Hacı Nərimanoğlu

# ŞUŞA - 270

Kitab Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə hazırlanmışdır.

Kitabın məzmununda əks olunan fikir və mülahizələr müəllifə aiddir və Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin rəsmi mövqeyini əks etdirmir.

**Bakı – 2022**

**Elmi redaktor və rəyçi: Elçin Əhmədov,**
Beynəlxalq münasibətlər üzrə
professor, siyasi elmlər doktoru

Tarix üzrə fəlsəfə doktoru, "Zəngəzur" Cəmiyyətləri İctimai Birliyinin sədri Hacı Nərimanoğlunun bu kitabında Şuşanın inşasına başlandığı vaxtdan indiyədək 270 illik tarixi, mədəniyyəti, yetirdiyi şəxsiyyətlər, hazırda şəhərdə mənfur düşmənin murdar ayaq izlərinin itirilməsi, yenidən dirçəlişi üçün görülən işlər sənədlər, foto, informasiya, elmi araşdırma, arxiv materialları, analitik yazılarda əks olunub.

Müəllifin kitaba daxil edilən elmi-kütləvi məqalələrinin bir qismi xarici dillərə tərcümə edilərək beynəlxalq internet məkanında, müxtəlif ölkələrin populyar KİV-də yayılmışdır.

Hacı Nərimanoğlu "Şuşa - 270".
Bakı, "Füyuzat" - 2022, 200 səh.

© H.Nərimanoğlu




Şuşa təkcə şuşalılar üçün deyil, bütün azərbaycanlılar üçün, Vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir. Şuşasız Qarabağ, Qarabağsız isə ümumiyyətlə Azərbaycan yoxdur.

*Ümummilli lider Heydər Əliyev*

Əziz Şuşa, sən azadsan!
Əziz Şuşa, biz qayıtmışıq!
Əziz Şuşa, biz səni
dirçəldəcəyik!
Şuşa bizimdir!
Qarabağ bizimdir!
Qarabağ Azərbaycandır!

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının*
*Prezidenti*





# *Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır.

Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaq Şuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamışdır.

Bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır.

Şuşa şəhərinin ötən əsrin 70-ci illərində sürətli inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə sıx bağlıdır. Şəhərin inkişafına dair xüsusi qərarlar məhz Ulu Öndərin təşəbbüsü ilə qəbul edilmişdir. Həmin vaxtdan Şuşada qu-

ruculuq işləri geniş vüsət almış, mədəniyyət xadimlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Strateji mövqeyi ilə seçilən Şuşa Azərbaycana qarşı hərbi təcavüzə başlamış Ermənistanın silahlı qüvvələri tərəfindən 1992-ci il mayın 8-də işğala məruz qalmışdır. İşğal dövründə şəhərdəki yüzlərlə tarix və mədəniyyət yadigarı vandalizm aktları nəticəsində dağıdılmışdır.

Haqq işi naminə apardığımız 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək, tariximizə Zəfər Günü kimi həkk olundu.

Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılmış, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunması üçün burada dövlət idarəetməsinə böyük diqqət yetirilmiş, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yaradılmışdır.

Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini

və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir.

Cıdır düzündə “Xarıbülbül” musiqi festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası da göstərir ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni- mənəvi dəyərini nəzərə alaraq qərara alıram:

1. 2022-ci il Azərbaycan Respublikasında “Şuşa İli” elan edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Şuşa İli” ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 5 yanvar 2022-ci il**[1]

---

[1] https://president.az/az/articles/view/55197

# *Şuşa*

Dünyada bir çox şəhərlər var ki, mədəni, tarixi və ya siyasi səbəblərdən simvol-şəhər hesab olunur. Onların adlarını çəkmək kifayətdir ki, bizim xatirəmizdə həmin şəhərin obrazını canlandıran bir çox assosiasiyalar yaransın. Hər bir azərbaycanlı üçün belə bir şəhər Şuşadır.

Şuşa kurort-şəhərdir, Şuşa muzey-şəhərdir, Şuşa Şərqin muğam akademiyasıdır...Bu kitab hər birimizin qəlbində yaşayan Şuşa haqqındadır. Bu, yaddaşımızın kitabıdır. Bütün Azərbaycan xalqının yaddaşının. Bu, Şuşanın təkrarolunmaz fenomeni haqda olan kitabdır. Bu kitab əbəs yerə "Köhnə Şuşa" adlanmır.

Şuşanın büllur havasının məstedici cazibəsi, onu əhatəyə alan dağların uğultulu əks-sədası, buradakı buz bulaqların ecazkar ləzzəti bu gün da xatirələrimizdən silinməyib. Bura müalicəedici gücə malik əsl sağlamlıq xəzinəsi idi: nadir şuşalı qonaqpərvərliyi də, minbir dərdə dərman olan havası da, təkrarolunmaz səfalı təbiəti də.

Mirzə Fətəli Axundovun "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasındakı hadisələr məhz burada baş vermişdir. Əslində, Müsyö Jordanın həqiqi prototipi var idi - Qarabağın flora və faunasını öyrənmək üçün bura gəlmiş təbiətşünas-alim Aleksandr Jordan. O, Qarabağ dağlarına heyran olmuşdur: *"İndiyədək bizim alimlər və təbiətşünaslar - Linney, Turnefor və Bertram cənabları elə hesab edirdilər ki, bu otlar yalnız Alp dağlarında, Amerikada, Afrika-*

*da və İsveçrə dağlarında bitir. Ancaq indi mən Qafqaza səfər edəndən sonra Paris Elmlər Akademiyasına sübut edəcəyəm ki, adı çəkilən alimlərin hamısı, sözsüz ki, yanılıblar, bu bitkilər Qarabağın dağlarında da geniş yayılmışdır. Bu otların əhəmiyyətini müəyyənləşdirib, təcrübədə onların təbiətini tədqiq edəndən sonra mən yeni bir əsər - həkimlər üçün dərslik çap etdirəcəyəm və bu otlara bütün dünyada şöhrət qazandıracağam".* Bu, Şuşa təbiətinin insana göstərdiyi sehrli təsirin yalnız bir nümunəsidir.

Şuşa muzey-şəhərdir. Onun memarlıq abidələri haqqında olan fikirlərdən sadəcə birini - onun "Kiçik Paris" adlandırılması fikrini göstərmək kifayət edər. Şuşanın küçələri, yaşayış evləri, karvansaraları, məscidləri, məqbərələri və sarayları çoxsaylı səyyah tərəfindən təsvir olunub. Şuşa xalçalarının gözəlliyini, yerli sənətkarların hazırladığı nadir sənət incilərini və bu əşyaların zərifliyini, yaşayış evlərinin möhtəşəm bəzəyini, nəqqaşlıq və xəttatlıq nümunələrini tərənnüm edən əfsanələr var.

Şuşa qala-şəhərdir. Onun divarları və tikililəri çox hadisələrdən, çox sirlərdən bəhs edə bilər. Məsələn, İranla Rusiya arasında imzalanmış Türkmənçay müqaviləsi və Qarabağ xanlığının Rusiyanın tərkibinə keçməsi, bunun nəticəsində də Aleksandr Qriboyedovun səyi sayəsində minlərlə erməni ailəsinin İrandan Qarabağa köçürülməsi barədə. Onun yazdığı xidməti sənədlərdən biri də elə məhz belə adlanır: "Ermənilərin İrandan köçürülməsi haqqında qeydlər".

Bu qeydlərdə A.Qrıboyedov yazırdı: *"Ermənilər, əsasən, müsəlman mülkədar torpaqlarında məskunlaşıblar.*

*Yay vaxtı buna imkan vermək olardı. Bu yerlərin sahibləri olan müsəlmanlar yaylaqlara köçdüklərindən başqa dindən olan gəlmələrlə o qədər də çox görüşmürdülər. Gəlmələr özləri çox sıx şəkildə məskunlaşır və haqlı olaraq narazı qalan müsəlmanların da yerini dar edirlər...Gəlmələrin yerləşdirilməsi ilə məşğul olanların, xüsusilə, knyaz Arqutinskinin səyindən çox şey asılıdır... Biz onunla bir məqam haqqında çox düşünürdük: necə edək ki, müsəlmanlar düşdükləri ağır vəziyyətlə barışsınlar? Onları necə inandıraq ki, bu çətinliklər uzun sürməyəcək və müvəqqəti yaşayış üçün yer verdikləri ermənilər onların torpaqlarını əbədi ələ keçirməyəcəklər".*

Yüz əlli ildən sonra A.Qriboyedovun "gəlmələr" və ya "köçkünlər" adlandırdığı həmən ermənilərin törəmələri özlərinin köçürülmələrinin şərəfinə Qarabağda abidə ucaldacaq, ancaq "myatsum" deyib, meydanlara axışaraq Qarabağı tələb etdikdən sonra bu tələblərin haqlı olduğunu sübut etmək üçün əşyayi-dəlil olan bu abidəni dağıdacaqlar.

Şuşa Şərqin qəribə bir formulasını - *"Əgər oxumursansa, deməli, şuşalı deyilsən"* - formulasını yaradan musiqi akademiyasıdır. Şuşanın nadir musiqi mədəniyyəti uzun illər ərzində çoxsaylı müğənni, musiqiçi və şairlər tərəfindən yaradılıb. Çox yerlərdən bura yalnız bir məqsədlə gəlirdilər: məşhur Şuşa xanəndələrinin səsinə qulaq asmaq və ya onların ustalıqla ifa etdikləri muğamın sirlərinə yiyələnmək üçün. Şuşa evlərinin divarları hələ də şərq gecələrinin şöhrəti olan muğam ustadlarının ifasını xatırlayır. Hacı Hüsü, Sadıqcan, Mirzə Muxtar, Bülbülcan, Cabbar Qaryağdıoğlu, Keçəçioğlu Məhəmməd, İslam Abdullayev, Məşədi

Məmməd Fərzəliyev, Məcid Behbudov, Məşədi Cəmil Əmirov, Seyid Şuşinski, Bülbül, Xan Şuşinski... Şuşaya musiqi şöhrəti gətirmiş gözəl xanəndələrin hamısının adını sadalamaq çətindir.

Bu şöhrətin zirvəsində isə əlbəttə ki, dahi Üzeyir bəy Hacıbəyov durur. Milli himnimizin banisi, "Leyli və Məcnun", "Koroğlu" kimi incilərin, "Arşın mal alan" və "O olmasın, bu olsun" kimi gözəl operettalarm müəllifi olan bu görkəmli şəxsiyyətin yaradıcılığı artıq bizim mənəvi **"MƏN"**imizin, ruhumuzun ayrılmaz bir hissəsinə çevrilib. Elə buna görə də Üzeyir bəy Hacıbəyovun Şuşadakı ev-muzeyi Azərbaycan mədəniyyətinin qiymətini bilənlərin səcdə etdiyi yerə çevrilmişdir Qarabağ Azərbaycanın gözəl şairi Xurşidbanu Natəvanı yetirən torpaqdır. Sonuncu Qarabağ hakimi Mehdiqulu xanın qızı, xalq arasında "Xan qızı" kimi şöhrət qazanmış Natəvan Şuşada ədəbiyyat tarixində xüsusi ad qoymuş poeziya məclisi yaratmışdı. Fransa yazıçısı Aleksandr Düma-ata Qafqaza və Azərbaycana səyahət edərkən Bakı polismeysteri M.Piqulevskinin evində Natəvanla tanış olur. Bu görüş onun təəssüratında olduqca səmimi, unudulmaz iz buraxır.

Vaxtilə Şuşada olmuş üç tunc heykəl - şair Xurşidbanu Natəvanın, bəstəkar Üzeyir bəy Hacıbəyovun və müğənni Bülbülün büstləri bu gün Bakıdadır. Bu heykəllər Şuşanın işğal olunduğu qara bir gündə - 1992-ci il mayın 8-də ermənilər tərəfindən güllələbaran edilmişdir. Bu heykəllər köçkün heykəllərdir. Onlar öz doğma torpaqlarından silah gücü ilə sürgün edilmiş şuşalıların talelərini yaşayırlar.



Şuşa Azərbaycan mədəniyyətinin parlaq simvolu olmuş və olaraq qalır. Bu gun o, həm də torpaqlarımızın işğal edilməsinin simvoludur. Bu kitabın hər səhifəsi bizim yaddaşımızın Şuşa ilə bağlı bir hissəsini tərənnüm edir. Bu kitab Şuşa haqqındadır, eyni zamanda bizim hər birimiz haqqında olan kitabdır. Və nə qədər ki, Şuşa ermənilərin işğalı altındadır, bizim hər birimiz şuşalıyıq.

**Mehriban ƏLİYEVA,**
**UNESCO-nun xoşməramlı səfiri**[2]

[2]Çingiz Qacar. Köhnə Şuşa, Bakı, "Şərq-Qərb", 2019, səh.6-7

## *Pənahəli xan - Qarabağ xanlığının qurucusu*



1747-ci ildə Nadir şah Əfşarın qurduğu nəhəng imperiyanın dağılmasından sonra vahid dövlətin parçalanması başlandı və bu, Azərbaycanda xanlıqların yaranmasına səbəb oldu. Qarabağ xanlığı öz ərazisinə, təbii şəraitinə görə daha üstün mövqeyə malik idi. Bu xanlıq Azərbaycan ərazisinin xeyli hissəsini əhatə edirdi. Onun sərhədləri Arazdan Göyçə gölünədək, Tərtər çayından bütün düzənlik və dağlıq Qarabağı, Zəngəzur, Bərgüşad mahallarını əhatə etməklə Mehri, Tatev, həmçinin Sisiana qədər uzanırdı. Qarabağ xanlığı Şəki, Gəncə, İrəvan, Naxçıvan, Qaradağ, Cavad və Şamaxı xanlıqları ilə həmsərhəd idi.[3]

Bu xanlığın banisi, qurucusu Pənahəli xan (1693 - 1763) Cavanşirlər tayfasının Sarıcalı oymağında doğulmuşdu. Azərbaycanda hələ qədim dövrlərdə məskunlaşmış Cavanşirlər tayfasının başçıları XVI əsrdən başlayaraq Qarabağı nəsildən-nəslə ötürülən irsi hakim hüququ ilə idarə edirdi. 1736-cı ildə Nadirin şah seçilməsinin əleyhinə çıxış edən digər tayfalar kimi, Cavanşirlər tayfası da Xorasana sürgün edilmişdi. Bu dövrdə onlara başçılıq edən Pənahəli

[3] "Qarabağnamələr"-I kitab, s.63, Bakı- "Şərq-Qərb", 2006

xan Nadir şahın ən nüfuzlu sərkərdələrindən birinə çevrilmişdi. Kərbəla, Lahor, Pişəvər, Dehli səfərlərində igidlik göstərib, döyüşlərin önündə gedib. Sonra saray intriqaları onların da arasını soyudub, Pənahəli xan 6 nəfərlə birlikdə Xorasandan Qarabağa qaçıb gəlmək məcburiyyətində qalıb. Tezliklə müstəqil Qarabağ xanlığının əsasını qoyub. Xanlığın aparıcı elləri, tayfa birliklərini - Cavanşir, Sarıcalı, Qacarlar, Qaramanlı, Baharlı, Zülqədər, Əhmədli, Qaraqoyunlu, Göyçəli, Ozan və başqalarını az vaxtda öz ətrafında birləşdirib.

Pənahəli xan yenicə yaranmış Qarabağ xanlığını möhkəmləndirmək üçün həm daxili, həm də xarici düşmənlərə qarşı uzun və gərgin mübarizə aparmalı oldu. Daxildə onun hakimiyyəti üçün ən böyük təhlükəni Qarabağın xristian məliklikləri (Çiləbörd, Gülüstan, Xaçın, Vərəndə və Dizaq) yaradırdı. Nadir şahın hakimiyyəti dövründə nisbi müstəqillik əldə etmiş bu məlikliklər bağımsız Qarabağ xanlığının yaranmasını düşmənçiliklə qarşıladılar. Tezliklə Azərbaycan torpaqlarını işğal etməyə çalışan Rusiyanın və onun əlaltısı olan Kartli-Kaxetiya çarlığının əlində oyuncağa çevrilən məliklər Qarabağ xanlığını məhv etmək və onun yerində xristian çarlığı yaratmaq üçün fürsət axtarırdılar. Lakin Pənahəli xanın yeritdiyi qətiyyətli siyasət onlara öz niyyətlərinə çatmağa imkan vermədi.

Pənahəli xanın və İbrahimxəlil xanın fəaliyyətində Qarabağ xanlığının ərazisini genişləndirmək və son nəticədə pərakəndə Azərbaycan torpaqlarını vahid dövlətdə birləşdirmək siyasəti özünü aydın göstərirdi. Bu istiqamətdə ilk

addımlar hələ Pənahəli xanın hakimiyyəti dövründə atılmışdı. O, daxildə öz mövqelərini möhkəmləndirməklə yanaşı, qonşu xanlıqların da torpaqlarını özünə birləşdirmək siyasəti yeridirdi. Məlumdur ki, Səfəvi dövlətinin dağılma mərhələsinə qədəm qoymasından istifadə edən osmanlılar XVIII əsrin 20-ci illərində yenidən Azərbaycanın çox hissəsini ələ keçirmişdilər. Osmanlı hakimiyyəti dövründə Zəngəzur torpaqlarının bir hissəsi – Sisyan və Meğri Çuxursəd vilayətinə, Bərgüşad, Həkəri, Çavundur nahiyələri Gəncə- Qarabağ əyalətinin tərkibində aid edildi. Nadir şah yenidən bütün Zənəzur ərazilərini osmanlılardan geri aldı və öz imperiyasının tərkibinə daxil etdi. 1747-ci il iyunun 19-dan 20-nə keçən gecə Nadir şah sui-qəsd nəticəsində öldürüldükdən və onun imperiyası çoxsaylı xırda dövlətlərə – xanlıqlara parçalandıqdan sonra Zəngəzurun Qapanat ərazisini Təbriz və Qaradağ xanları öz aralarında bölüşdürdülər. Qapan, Zəngəzur və Bərgüşad Təbriz xanına, Mehri, Güney və Çavundur Qaradağ xanına çatdı.

1750-ci illərdə Pənahəli xan Qarabağlı siyasət və güc yolu ilə Mehri və Güney mahallarını Qaradağ, Tatev və Sisyan mahallarını Naxçıvan, Zəngəzur və Qapanı isə Təbriz xanlığından qoparıb aldı. Beləliklə, bir neçə əsr əvvəl olduğu kimi, Zəngəzur yenidən bir inzibati vahidin tərkibində birləşdirildi.

1822-ci ildə ruslar Qarabağ xanlığını ləğv edib, hərbi dairə tərkibində bir əyalətə çevirdi.

1830-cu illərin əvvəllərində bu əyalətin tərkibində 9 minbaşılığı birləşdirən iri Zəngəzur mahalı da təşkil olundu. Bunlar keçmiş Sisyan, Tatev, Zəngəzur, Qaraçorlu, Püsyan, Bərgüşad, Qapan, Meğri-Güney və Çavundur (Çuldur) mahalları idi.

İrəvan və Gəncəyə məxsus bir çox torpaqları ələ keçirən Pənahəli xan Cavanşirin ilk işlərindən biri ona könüllü itaət edən və etmək istəməyən Qarabağın "Xəmsə" adlanan beş Alban-Xristian məlikliyinin birdəfəlik qəti mərkəzi hakimiyyətə tabe edilməsi olmuşdu.[4]

Pənahəli xanın ölümündən sonra hakimiyyətə gəlmiş İbrahimxəlil xanın dövründə Qarabağ xanlığı daha da gücləndi. Pənahəli xanın Qarabağ xanlığının sərhədlərini genişləndirmək siyasəti İbrahimxəlil xan tərəfindən uğurla davam etdi. Ayrı-ayrı vaxtlarda Azərbaycanın Təbriz, Ərdəbil, Qaradağ, Naxçıvan və Gəncə xanlıqları Qarabağ xanlığından asılı vəziyyətə salındı. Avar hakimi Ömər xanla da qohumluq əlaqəsi yaradan Qarabağ xanı hərbi cəhətdən daha da güclənərək Cənubi Qafqazın ən nüfuzlu hakimlərindən birinə çevrildi.

Qarabağ xanlığının yarandığı ilk dövrlərdə Pənahəli xanın fəaliyyətinin mühüm istiqamətlərindən birini paytaxt şəhərinin yaradılması təşkil edirdi. Bir tərəfdən daxili çəkişmələr, digər tərəfdən isə qonşu xanlıqların və Qacarlar dövlətində hakimiyyət uğrunda mübarizə aparan ayrı-ayrı

---

[4]Aysel Sadıqova, Pənahəli xan Cavanşir tərəfindən Qarabağın Alban-Xristian məliklərinin mərkəzi hakimiyyətə tabe edilməsi
*https://dergipark.org.tr/en/download/article-file/1836094

feodal hakimlərin hücum təhlükəsi Qarabağ xanını güclü müdafiə imkanları olan şəhər-qala tikdirməyə məcbur edirdi. Bu qala eyni zamanda Qarabağ xanlığının paytaxtı rolunu oynamalı idi. 1748-ci ildə əsası qoyulmuş Bayat qalası məhz bu məqsədə xidmət edirdi. Lakin qalanın düşmən hücumlarının qarşısını almaq baxımından kifayət qədər etibarlı olmadığına görə, Pənahəli xan 1751-ci ildə vaxtilə I Şah Abbasın qışlaq yeri olmuş Şahbulaq qalasını tikdirdi.[5] Pənahəli xanın ömür yolu, hərbi, siyasi fəaliyyəti barədə, eləcə də Şuşanın tarixi haqqında ən mükəmməl mənbələrdən biri, şübhəsiz, Mirzə Camal bəy Cavanşir Qarabağinin "Qarabağ tarixi" əsəridir. O, bu əsəri Tiflis canişini Vorontsov-Daşkovun tapşırığı ilə yazıb, Adolf Berje tərəfindən farscadan ruscaya çevrilib, 1855 –ci ildə "Kafkaz" qəzetində dərc olunub. Camal bəy 1797-1822 – ci illərdə Qarabağ xanlığının vəziri olub, atası da, özü də Pənahəli xanın ən çox inandığı saray əhlindən idi. 1773-cü ildə Xocalıda doğulub Şuşada mədrəsə təhsili alıb, fars, ərəb, avar, ləzgi dillərini bilib. Xanlığın ləğvindən sonra məhkəmədə işləyib, 1853-cü ildə vəfat edib.

Pənahəli xan 1763-cü il avqustun 21-də 70 yaşında Qacarlar dövlətinin Şiraz şəhərində Kərim xan Zəndin sarayında müəmmalı şəkildə vəfat edib. Vəsiyyətinə görə, nəşi Ağdama gətirilib dədə-baba İmarət qəbiristanlığında dəfn edilib.

---

[5] Camal Mustafayev, tarix üzrə elmlər doktoru, professor, Qarabağ xanlığı, Azərbaycan.-2015.- 17 fevral.- S.6.

Qeyd edək ki, “Qarabağ” sözünün etimologiyası barədə iki əsas fikir var. Birincisi, “qara” qədim türk dilimizdə “böyük”, “geniş” mənasını bildirir, bu ifadə həmin anlamda “Kitabi-Dədə Qorqud”da gen-bol işlənib. Məs; “Qara yerin üstünə ağ ban evin tikdirmişdi”, “Qara başım qurban olsun, suyum sənə”... Oğuz-türk anlamlı “qara”nın izi Qarabağın hər yanında qalıb: Qaraqoyunlu, Qaramanlı, Qaralar, Qarağac, Qaracallı, Qarakişilər, Qaraqaya, Qarasu, Qaraçay, Qaradərə, Qarahun... İkincisi, Qarabağlı adlı türksoylu tayfalar qədim türk ellərimizdə geniş yayılıb.



## *Şuşanın inşası*

Qarabağ xanlığının paytaxtı cəmi üç-dörd il ərzində əvvəl Bayat qalası, sonra Şahbulaq qalası oldu. Bölgədə getdikcə qızışmaqda olan ara müharibələri Pənahəli xanı daha etibarlı, əlverişli və düşmən hücumu üçün əlçatmaz olan yeni bir şəhər-qala tikdirməyə məcbur edirdi.

Pənahəli xanın Şuşa qalasını tikdirməsini tarixçi, Qarabağ xanlarının baş vəziri, Rzaqulu bəy Vəzirovun atası Mirzə Camal Cavanşir Qarabaği (1773-1853) belə təsvir edib: "Hökumət işlərini bir an belə unutmayan mərhum Pənah xanın işgüzar və bacarıqlı adamları, onun əmri ilə məsləhət üçün yığışıb dedilər: "Mərhum Nadir şah vəfat etdikdən sonra bizimlə Əliqulu xan və Sərdar Əmir Aslanın arasında sülh, ittifaq və dostluq əlaqəsi davam etməkdə idi. İndi, çox mümkündür ki, belə bir münasibət və dostluq əlaqəsi bizimlə Məhəmmədhəsən xan arasında olmasın. Ətrafdakı xanlardan da bir o qədər xatircəm deyilik. Onların Məhəmmədhəsən xanı üzərimizə təhrik edərək, birlikdə bizə qarşı çıxacaqları ehtimalı vardır. Belə bir vəziyyətdə Qarabağın elləri, adlı-sanlı adamları Qızılbaş qoşununun ayağı altında paymal olar, biz isə Şahbulaq qalasında qüvvətli bir düşmənin və ətraf xanların qarşısında müqavimət göstərə bilməyib, bütünlükdə qırılarıq. Ona görə də işin əlacını qabaqdan görmək lazımdır. Biz gərək dağların arasında, möhkəm və keçilməz yerdə elə bir əbədi və sarsılmaz qala tikək ki, onu

güclü düşmən belə mühasirə edə bilməsin. Qalanın bir tərəfi dağlarda olan ellərin üzünə daim açıq olmalı və mahallarla rabitəmiz, əlaqəmiz bir an belə kəsilməməlidir”.[6]

Uzun axtarışlardan sonra dəniz səviyyəsindən 1300 - 1600 metr hündürlükdə yerləşən və üç tərəfdən sıldırım qayalarla əhatə olunmuş dağ yaylası xanlığın yeni paytaxtı üçün əlverişli hesab edildi və tikintisinə başlanıldı. Şəhərin normal fəaliyyəti üçün zəruri olan işlər başa çatdırıldıqdan sonra, xanlığın paytaxtı Şahbulaq qalasından Şuşaya köçürüldü. Yeni şəhər-qala mövcud olduğu ilk illərdə öz banisinin adı ilə Pənahabad, sonralar isə bu yerin qədim adı ilə Şuşa adlandırıldı və Qarabağ xanlığının daimi paytaxtına çevrildi.

Milliyətcə erməni olan XIX əsr salnaməçisi Mirzə Yusif Nersesov Qarabağinin (1798-1864) fars dilində yazdığı “Tarixi-Safi” əsərindən sitat: “...Şuşa qalasının yerini müəyyən etdilər. Bu yeri Pənah xan özü gedib gözü ilə görmüş və hər cəhətdən bəyənmişdi. Lakin ərazinin ortasından su axmadığı üçün bir neçə yerdə quyu qazdırdı və bu quyulardan çoxlu su çıxdı. Bundan sonra 1166 (1752)-cı ildə Pənah xan xoş bir gündə Şuşa şəhərinin təməlini qoydu. Şəhər cənub-qərbdən, şimal-şərqdən, həmçinin qərb və cənub tərəfdən piyada və qeyriləri üçün gediş-gəliş mümkün olmayan möhkəm hasar və təbii sıldırım qayalarla əhatə olunmuşdur. Divar çəkmək üçün şəhərin aşağı tərəfini və bir də şərq tərəfinin bəzi yerlərini ölçdülər. Bu işdə

---

[6] «Qarabağnamələr”, "Şərq-Qərb” nəşriyyatı-2006, 1-ci kitab, səh.130-131.

kənd əhli, mahalların məlikləri, ellərin başçıları ilə bir yerdə çalışaraq, beş arşın hündürlüyündə, iki arşın enində bir divar hördülər. Bu divardan nə top gülləsi, nə də başqa bir şey keçməzdi. Çünki divar daş və əhənglə bərkidilmişdi. Bu divarlardan dörd darvaza açdılar. Şimal və şərq tərəfdən olan darvazaya - Şuşa kənd darvazası deyilir. İki darvaza isə şimal ilə qərb arasındadır. Bunlardan birinə İrəvan darvazası, digərinə isə Gəncə və Çiləbörd darvazası deyilir. Dördüncü darvaza isə dağılmış və hazırda onun yerinə divar tikilmişdir. İndi isə şəhərin ancaq üç darvazası var. Şuşa şəhəri bina olandan sonra Pənah xan Şahbulaq qalasının əhalisini, bəzi Qarabağ və başqa kənd adamlarını köçürüb Şuşa şəhərinə gətirdi, onlara burada yer verdi. Burada sikkəxana tikdirdi. Pənahabad adı ilə bir misqal vəznində gümüşdən pul sikkəsi vurdurdu. Sikkənin bir tərəfində Pənahabad, o biri tərəfində isə "La ilahə illəllah, Muhəmmədən rəsulullah" sözləri yazılmışdı. "Pənahabadın" altısı bir manat, səkkizi isə Qarabağ tüməni adlanırdı. Pənah xan Şuşa qalasını tikdirib qurtardıqdan sonra asudələşdi".[7]

Şuşanın Pənah xan tərəfindən inşasının eyni məzmunlu təsvirini Mirzə Adıgözəl bəy, Mirzə Camal bəy, Mir Mehdi Xəzani, Əhməd bəy Cavanşir, Mir Möhsün Nəvvab, Həsənəli ağa Xanqaradağski, Həsən İxva Əlizadə, Fətəli şah Qacarın naibüssəltənəsi Abbas Mirzənin oğlu Cahangir Mirzə və başqaları da yazıblar.

---

[7] «Qarabağnamələr", "Şərq-Qərb" nəşriyyatı-2006, 2-ci kitab, səh.23




Qarabağın Rusiya tərəfindən işğalından sonra o dövrün tanınan jurnalist, yazıçı və hərbi xadimi Platon Zubov (1796-1857) yazdığı bir tarixi romanda Şuşanın salınmasını belə təsvir edir: “Böyük silahlı dəstə ilə müşayiət olunan Pənah xan Vərənd məliyi və Cümşüdlə şimala gedəndə dağ silsiləsini aşaraq yuxarılara dırmaşmalı oldu. Onların qarşısında meşə və mamırlara bürünmüş sıldırım qayalar yüksəlirdi. Təxminən 7 verst yolu qət etdikdən sonra onlar yüksəkliyin ən yuxarı nöqtəsində böyük bir düzənliyə çıxdılar. Bu düzənlikdən vadinin ən uzaq nöqtələrində yerləşmiş kəndləri, zəngin üzüm bağlarını, meşələrlə örtülmüş




dağları seyr etmək mümkün idi. Bütün bunlar o qədər xırda görünürdü ki, onlar dünyanın ən kiçik əşyaları təsəvvürünü yaradırdı. Üç tərəfdən bu düzənliyin alınması mümkün deyildi. Çünki ora sərt qayalarla dövrələnmişdi və bu yerə yalnız şimal tərəfdən çıxmaq mümkün idi.

– Budur, – deyə ərazini diqqətlə gözdən keçirən Pənah xan dilləndi. Qalanın tikilməsi üçün ən münasib yer... Buradan necə gözəl mənzərələr görünür. Bütün ətraf sanki şüşədə görünən kimidir. Yeni qalanı Şuşa adlandırarıq. Şuşa! Necə də gözəl addır... Çalışacağam ki, bu qalanın layiqli sahibi olum.

Hamı atdan yerə düşdü və bir neçə daş götürərək təpəciklərin birinin üzərinə topladılar. Pənah xan onun üstünə qalxaraq təntənəli səslə dedi:

– Qoy Allah yeni yaradılan qalaya öz xeyir-duasını göndərsin, qoy o, Gülüstanın gülü kimi, peyğəmbər həyatinin cənnət ağacı kimi çiçəklənsin, qoy nə vaxtsa bütün Qarabağın mərkəzi olsun və ecazkar hadisələrlə məşhurlaşsın.

Qoy ətraf hakimlər yeni qalanın əzəməti qarşısında baş əysinlər və onun düşmənləri kül kimi yox olsun…Bu sözləri deyəndən sonra o, əlini alnına qoyub sonra yerə toxundurdu, bir ovuc torpaq götürüb toplanmış daşların üstünə səpdi. Hamı onun elədiyini təkrarladı”. [8]

Şuşa qalası qısa zamanda məşhurlaşır. Hətta, bəzi mənbələrdə Qarabağ xanlığı xanlığın mərkəzi olan Şuşanın adı ilə Şuşa xanlığı kimi də qeyd edilib.

Kartli-Kaxetiya çarı II İraklinin dəvəti ilə M.P.Vaqifin başçılığı altında bir qrup qarabağlı Tiflisdə Rusiyanın Cənubi Qafqazdakı canişini S.D.Burnaşev ilə görüşdə deyir: “Qarabağ xanı İbrahimxəlil xan adlı-sanlı nəslin parlaq nümayəndəsidir. O, olduqca vüqarlı, müdrik bir hökmdardır. Hökmdarı olduğu diyarın isə Şərqin qapısı sayılan Şuşa qalası kimi mərkəzi var”.




[8]Nərimanoğlu H. Şuşa «Qarabağnamələr”lərdə. https://zengezur.com/index.php/m-qal-l-r/254-susa-zharabazhnam-l-rd

## *"Şuşa" sözünün etimologiyası*

Bu barədə müxtəlif fikirlər var. Tədqiqatçı alim, dosent Zaur Əliyev yazır: "Şuşa şəhərinin adı türk tayfaları və türk sözləri ilə izah olunur. Bəzən "Şişə" (Şiş qayalarla əhatə olunduğuna görə) şəklində də işlədilir. Türklərin məskunlaşdığı ən müxtəlif yerlərdə Şuşa, Şoşu, Şuşi formalarında yaşayış məntəqələri, yer adları olmuşdur. Bir çox tədqiqatçılar Şuşa sözünü türk dilində mənası "uc", "yüksək" olan "şiş" komponenti ilə izah edirlər. Azərbaycan türklərinin təşəkkülündə mühüm rol oynamış türk tayfalarından biri də dondarlardır. Şimali Qafqaz çöllərində dondarların adını qədim müəlliflər hələ e.ə. V əsrdə qeyd etmişlər. Azərbaycanda bir neçə Dondarlı kəndi və Dondardağ var. Q.Qeybullayev qeyd edir ki, Şuşa toponimi də dondarların dilinə mənsubdur. II əsr müəllifi Tatsit Şimali Qafqazda dondarların Şoşu şəhərinin adını çəkir. Latın dilində "Ş" səsi olmdığına görə, müəllif onu Sosu (əslində Susu) kimi yazmışdır. XIX əsrin əvvəllərində Qarabağda üç Şuşa (həmçinin Şimali Qafqazda bir neçə) toponimi məlumdur. Bəzi mənbələrdə isə Şuşa adının qədim türk sərkərdəsi Şu-nun (e.ə.344 -334) İskəndərlə vuruşan səxsin tikdirdiyi "Su" qalası ilə eyniliyi, Şumer (şu+er) adı ilə səsləşməsi tədqiq olunur".[9]

---

[9] Əliyev Zaur, "Qarabağ Zəfəri-Şuşa" Bakı 2021. S.19-20



Biri də budur ki, “şaişə”, “şuş” ərəb dilində qəhrəman, igid, mübariz, yenilməz mənasını bildirir, yəni “yenilməz, mübariz qala”.[10]

Qeyd edək ki, 1971-1975-ci illərdə tanınmış azərbaycanlı arxeoloq M.M.Hüseynovun rəhbərliyi altında Qarabağın dağlıq hissəsində aparılan arxeoloji tədqiqatlar zamanı Şuşa yaxınlığında, Cıdır düzünün aşağı hissəsində paleolit dövrünə aid qədim insan məskəni aşkar edilib. “Şuşa mağarası” adı verilən bu yer Daşaltı çayının sol sahilində, dəniz səviyyəsindən 1500 metr yüksəklikdə, çayın müasir yatağından 80 metr hündürlükdə yerləşir. Düşərgənin eni 20, uzunluğu 100, hündürlüyü 7 metrdir. Aşkar edilən 5 təbəqə, tapılan 20-dək maddi-mədəniyyət nümunələri əsasında burada 200-250 min əvvəl insanların yaşadığı müəyyən edilib. Digər alimlərimizin, eləcə də ingilis səyyah və alimləri C.Morye, R.Burterin fikrincə Şuşa ərazisində eramızdan əvvəl insan məskəni, XIII əsrdə isə Şuşa ərazisində eyni adlı şəhər olub.[11]

---

[10] Molla Məhəmməd əl-Cari “Car salnaməsi”, Bakı-1997, səh.135.

[11] Əhmədov Elçin, Şuşa Azərbaycanın tarixi və strateji əhəmiyyətli mədəniyyət paytaxtı, Bakı, “Zərdabi Nəşr” MMC-2021. s.14-15

## *Şuşanın təbiəti, iqlimi*

Şuşanın füsunkar mənzərəsini, relyefini, təbii gözəlliklərini sözlə ifadə etmək çətin olsa da, “Qarabağnamələr”lərdə çox sayda belə təsvirlər vardır; dumanlı havada şəhərin hər hansı bir yerindən şimala, şimal-şərqə və şimal-qərbə nəzər salan adam belə gözəl bir mənzərəyə heyran qalır: burula-burula qalxan dumanlar, qara buludlar gah Qarabağ dağlarının qarlı zirvələrini və ağaran Qafqaz dağlarını dövrələyərək Şuşanın başına dolanır, ona toxunub dağılır, gah da bir anlığa qarşısını kəsib görünməz edir. Cənub-şərqdən Şuşanı hər iki tərəfdən sıldırım qayalı dərə əhatə edir. Şuşanın ətəyindəki dərənin üstündə gözəl bir bürc vardı. Bu bürc şəhərin o biri tərəfində olan qaya üzərində, ətrafında bir cığır belə olmayan yuva kimi görünürdü. Bura Xəzinə qayası adlanır. Həmin bürcdən aşağıda sanki qayaya yapışmış bir qəsr vardır; oradakı kahadan soyuq bir bulaq axır. Bu qəsr vaxtilə ən qorxulu zamanlarda əhalinin etibarlı sığınacaq yeri olmuşdur. Dərənin o biri tərəfində, çayın lap üstündə tövlə xarabalıqları görünür; yuxarıda, qəsrin qarşısında isə hasara alınmış və indiyədək içərisinə ayaq dəyməmiş kaha vardır. Bu kaha qaya boyu, şəhərin altından keçən yeraltı yol vasitəsilə o biri tayda, yuxarı qapının aşağısında başqa bir ucsuz-bucaqsız kaha ilə birləşir. Cənub tərəfdən – Kirs dağından nəzər saldıqda ətəklərində Şuşa yerləşən alınmaz qaya ilə bu şəhərin yarımdairəvi görünüşü dumanların arasından, sanki içərisində maye qay-

nadıldığına görə buxarlanan nəhəng bir mis qazanı xatırladır. Əbəs deyildir ki, 100 minlik qoşunla Qarabağa hücum edən Ağaməhəmməd şah Şuşanı savaşla ala bilməyib, İbrahimxəlil xana belə demişdi: “Filan-filan şüdə! Sən qazanın içində əyləşib, onun dəstəyini əlində tutmusan və elə xəyal edirsən ki, guya mənimlə çəkişirsən?! Mərhəba sənə! Hünərin varsa, çıx o qazanın içindən meydana!”

Şəhərin ərazisi dağlıqdır. Ən yüksək zirvəsi Böyük Kirs dağıdır (2725 metr). Keçəldağ aşırımı da rayon ərazisindədir. Bölgədə, əsasən, Yura və Təbaşir çöküntüləri mövcuddur. Müxtəlif növ tikinti materialları yataqları və mineral su bulaqları (Turşsu, Şırlan) var. Şəhərin kənarında dərin Daşaltı dərəsinin yaxınlığında yerləşən Cıdır düzü xüsusilə məşhurdur. Cıdır düzündən bir qədər aşağıda Qırxpilləkən deyilən dik pilləli yol Daşaltı çayına aparır. Şuşa şəhərindən cənubda, dəniz səviyyəsindən 1300-1600 m hündürlükdə yerləşən, uzunluğu 114 m, əhəng daşları ilə zəngin olan qədim Xan mağarası var idi.

Şuşa cənubdan Cıdır düzü, Üç mıx təpələri, Daşaltı kəndi və Kirs dağ silsiləsi ilə əhatə olunmuşdur. Şimaldan şəhəri Dövtələb təpəsi, Xəlfəli çayı və Xəlfəli kəndi, Mıxtökən yamacı əhatə edir. Qərbdə Şuşanın Zarıslı və Qala dərəsi kəndləri, məşhur Turşsu yaylası və Sağsağanlı dağı kimi mənzərəli yerləri vardır. Şərqdən Şüşə kəndi, Bağrıqan dağı, Topxana meşəsi və Xəzinə qayası şəhəri əhatə edib. Şuşanın şimal-qərbində, təxminən şəhərdən 2-3 kilometr aralı gözəl və səfalı bir meşə var. Bu meşədə ayna kimi saf və şəffaf, buz kimi soyuq sulu məşhur İsa bulağı, Damlı bulaq, Soyuq bulaq axır. Meşələrin heyvanlar aləmi son dərəcə zəngindir.

Şuşanın rəmzi sayılan xarıbülbül gülü ilə bağlı çoxlu əfsanələr və rəvayətlər var. Şeirlərdə, mahnılarda adı tez-tez keçən bu gülün yalnız Şuşanın torpağında və havasında bitdiyi söylənilir.

"Qarabağnamələr"lərdə Şuşanın təsviri sevgi, qürur hissləri ilə tərif edilir:

Zahid demə dünya nə sənindir, nə mənimdir,
Sən sevmədiyin cümlə bu yerlər vətənimdir,
Verməm vətənin bir qarışın yadlara əsla!
Şəfqətli anamdır bu mənim, can verənimdir![12]

Ustad Xan Şuşinskinin yazdığı və oxuduğu "Şuşanın dağları başı dumanlı, Dərdindən ölməyə çoxdur gümanlı…" – kimi mahnı və onun sözləri Şuşanın misilsiz olduğunu əks etdirir.

Bu əhvalat bir çox mənbələrdə yazılıb; Nuru paşa Şuşada imiş. Uzaqdan məlahətli, qəlb oxşayan azan səsini eşidir. Məscidə gəlib şirin səslə, avazla azan çəkən molla ilə tanış olur. Mollaya bir ovuc qızıl lirə bağışlayıb deyir:- Əgər İstanbula getməyə razı olsan, orada azan çəksən hər ayına bir kilo qızıl lirə verərəm. İstanbulda çox millətlərin, dinlərin nümayəndəsi yaşayır, kim sənin oxuduğun bu azanı eşitsə, inanıram ki, dönüb müsəlman olacaq. Molla deyir: - Paşam, təklifinizi məmnuniyyətlə qəbul edərdim. Ancaq qorxuram, yanınızda xəcalətli qalaram. Paşa niyəsini soruşur, belə cavab alır: – Çünki mənə belə səsi verən Şuşanın havası, torpağıdır. Burdan uzaqlarda inanmıram belə səsim olsun...

[12] "Qarabağnamələr", 3-cü kitab, s.77

## *Şuşanın 3 inkişaf dövrü, əhalisi, məhəllələri*

Şuşanın bir şəhər kimi formalaşması üç əsas mərhələdən keçmişdir. Pənahəli xanın hakimiyyət dövrünü (1748-1763) əhatə edən birinci mərhələdə şəhərin ilk böyük məhəlləsi – sonralar Aşağı məhəllə adlandırılan Təbrizli məhəlləsi salınmışdır. Pənahəli xan Şuşa qalasının tikilməsi üçün Təbriz, Ərdəbil və başqa şəhərlərdən buraya məşhur sənətkarlar gətirdi. Onların çoxu bu şəhərin ilk daimi sakinləri oldular.

Pənahəli xan Qarabağın Seyidli, Köçərli, Saatlı, Merdinli, Qurdlar və başqa kəndlərindən əhalinin bir hissəsini Şuşa qalasına köçürüb gətirdi. Eyni zamanda Gürcüstandan və qonşu xanlıqlardan Pusyan, Qaracallı, Cinli, Dəmirçilər, Həsənli, Qızıl Hacılı, Səfikürd, Boyəhmədli, Kəngərli və başqa tayfalar da köçüb Pənahəli xanın təzə yurduna – Şuşaya gəldilər. Yaxınlıqdakı Novruz kəndi də buraya birləşdirildi. Bu kəndin sakinləri xanlığın süqutuna qədər Novruz bayramını keçirmək üçün məsul sayılırdı. Qarabağ xanlığı yaradılmazdan öncə də bu ənənə vardı. Bu kəndin – məhəllənin sakinləri Qarabağda şirniyyatları, yeməklərilə tanınır, eləcə də bayram şənliklərinin keçirilməsi ilə məşhur idilər. İnsanlar Qarabağın ətraf ərazilərindən ilaxır çərşənbə və 20-21 martda bayram keçirmək üçün Novruz kəndinə gəlir, burda böyük tonqal qalanır, şənliklər keçirilirdi.

Şuşanın ilk dövrdə salınan 9 məhəlləsi bunlardır və hamısı türkcədir: Çuxur, Qurdlar, Culfalar, Seyidli, Quyular, Mərdinli, Hacı Yusifli, Qazançalı, Çölqala.

Şuşa tarixinin Pənahəli xandan sonra ikinci inkişaf dövrü İbrahimxəlil xanın hakimiyyəti illəridir - 1763-1806. Şəhərin

Xanlıq, Saatlı, Köçərli, Mamayı, Xoca Mərcanlı, Dəmirçi, Hamam qabağı, Təzə adlanan səkkiz kiçik məhəlləsi bu dövrdə meydana gəlmişdi. Bunlar şəhərin ikinci böyük hissəsini təşkil edən Yuxarı məhəlləni formalaşdırmışdı.

Şuşa şəhərinin formalaşmasının üçüncü mərhələsi Qarabağ xanlığının 1806-cı ildə Rusiya imperiyası tərəfindən işğal edilməsindən sonra başlamış və daha uzun müddət davam etmişdir. Yeganə həqiqət budur ki, Şuşadakı əksər yer-yurd, dükan-bazar, məhəllə, məscid, karvansara, hamam, məktəb... adları bu şəhəri yaradan, onun aborigen əhalisi olan Azərbaycan türklərinə məxsus idi. 1832-ci ildə Qarabağ əhalisinin 91 faizini azərbaycanlılar, 8,4 faizini ermənilər təşkil edirdi. Köçürülmə siyasəti nəticəsində azərbaycanlıların sayı nisbətən azalaraq 64,4 faizə, ermənilərin sayı isə artaraq 34,8 faizə çatmışdı. Çar Rusiyasının köçürmə siyasətindən sonrakı bütün dövrlərdə Şuşada heç zaman ermənilər sayca üstünlük təşkil etməyib.[13]

Ancaq erməni tarixçiləri bu həqiqətləri qəbul, etiraf etmək istəmir, Şuşanı özününküləşdirmək üçün hər cür elmi-tarixi saxtalaşdırmaya yol verirlər.[14]

Azərbaycanda aparılmış 1979-cu il siyahıya alınmasında Şuşada 9216 azərbaycanlının, 1409 erməninin, 1989-cu il siyahıya alınmasında isə 14738 azərbaycanlı və 1784 erməninin yaşadığı qeyd olunub.[15]

---

[13]https://portal.azertag.az/az/node/4229
[14] https://regnum.ru/news/polit/2894200.html
[15] Nərimanoğlu Hacı. Bildiyimiz Şuşa haqqında bilmədiklərimiz: tarix, bu gün və gələcək, 04.01.22, https://musavat.com/mobile/news/bildiyimiz-susa-haqqinda-bilmediklerimiz-tarix-bu-gun-ve-gelecek_857090.html

## *Şuşa əcnəbi səyyahların gözü ilə*

1824-cü ildə İngilis səyyahı Albemarl qrafı Corc Keppel Şuşada olarkən, bu şəhərin gözəlliyi, sakinləri onda böyük təəssürat yaratmışdı. Keppel yazırdı ki, şəhərdə iki min ev var, əhalinin böyük əksəriyyəti Azərbaycan (türk) dilində danışır. Corc Keppelin qeydləri çar Rusiyası tərəfindən aparılmış demoqrafik siyahıyaalma sənədləri ilə, eləcə də məşhur müəllim, tarixçi, yazar Mirzə Adıgözəl bəyin əhalinin tərkibi barədə yazdıqlarıyla da üst-üstə düşür, real gerçəklikləri əks etdirir.

Alman səyyah Baron Fon Qatsqauzen yazır: "1843-cü ildə Şuşada yol yoldaşım cənab Aderkas Qarabağlı İbrahimxəlil xanın nəvəsi, general-mayor Cəfərqulu xan Cavanşirə təqdim edilmişdi və onun tərəfindən çay süfrəsinə dəvət olunmuşdu. O, burada Şərq və Avropa adət-ənənələrinin və həyat tərzinin qəribə qarışığını gördü. Ev görünüşünə görə Şuşada varlı tatarların (azarbaycanlıların) evlərindən heç nə ilə fərqlənmirdi, lakin içəridə bütün Avropa rahatlığına xas qaydaya salınmış zal var idi, divarlarda güzgülər, tavanda çil-çıraqlar, divarların önündə bahalı qırmızı taxtadan düzəldilmiş mebel, divanlar, kreslolar, stollar, stullar... Divarlara divar kağızı çəkilmiş, rəsmlərlə bəzədilmişdi, bir sözlə, bütün əşyalar Avropa səliqəsi və dəbdəbəsində idi. Xan cənab Aderkası və başqa avropalıları Avropa qaydası ilə qəbul etdi. O, gözəl, boy-buxunlu, nəcib və əsilzadə siması ilə adamı cəlb edən, məğrur görkəmli,

qeyri-adi qüvvəyə malik bir kişidir. Onlar çay süfrəsi arxasında oturdular. Şərqli qonaqlar da gəldilər, öz adətlərinə görə divanda bardaş quraraq yayxanıb, tənbəki çəkir, çay içirdilər və söhbətdə yalnız, onlara sual verəndə iştirak edirdilər. Xidmətçilər Avropa livreyalarında (xüsusi biçimli zərbaftalı paltar) çay, pirojna, mürəbbə, şərbət və dondurma verirdilər. Başqa xidmətçilər tatar paltarları və çərkəzi çuxa geyinmişdilər. Musiqiçilər bahalı Vyana saatı frenellada uvertüra çalırdı. Cəfərin zəngin hərəmxanası və çoxlu uşağı var, lakin qonaqlar onları görmədilər".

1865-ci ilin mayında Şuşaya gələn məşhur rus rəssam Vasili Vereşşagin 3 aya yaxın burada qalmış, hətta, Parisə qayıdandan sonra da Şuşaya aid silsilə rəsmlər çəkmişdir və hamısında Şuşanın Azərbaycan türk şəhəri olduğu aydın görünür. Rəsmlərin adları belədir. "Şuşa məscidi", "Şuşada məhərrəmlik", "Müsəlman məktəbi", "Şuşada varlı tatar evinin zalı", "Şuşada varlı tatarın qonaq evi" və b.

Vasili Vereşşagin yazır: "Şuşa Qarabağ xanlığının baş şəhəridir, olduqca yaxşı möhkəmləndirilmiş bir yerdir Bu şəhərin evləri düzgün formalı, qəşəng və hündür olub, çoxsaylı və gözəl pəncərələrlə işıqlandırılır. Qayalıqlar qoynunda yerləşən bu şəhər elə həmin qayalıqlardan götürülmüş daşlardan tikilmişdir. Şəhərin bütün küçələrinə enli daş plitələr döşənmiş, evlərin damları tirlərdən düzəldilmişdir. Onu iki tərəfdən çılpaq qayalar, digər iki tərəfdən isə tikililər, divarlar və qüllələr qoruyur. Şuşa şəhəri Zaqafqaziyanın digər şəhərlərindən tamamilə fərqlənir ".

İngilis səyyahı Robert Burterin müşahidələri də maraqlıdır: "Şuşada Qafqazın başqa yerlərində olmayan, Avropa şəhərlərindəki kimi daş binalar, daş döşəməli geniş küçələr və qədim Romadakıları xatırladan gözəl hamamlar var. Bütün bunlar onun qədim şəhər olması haqqında fikir söyləməyə imkan verir".

"Şuşa Yelizavetpol quberniyasının qabaqcıl şəhərlərindəndir. O, ticarətdə və gözəllikdə Tiflislə rəqabət aparır. Yelizavetpol əyalətində yaşayan 625 min 599 adamın 24 min 522 nəfəri Şuşanın payına düşür".[16]

"Şuşa gündən-günə yox, saatdan-saata böyüyür, onun ticarəti inkişaf edir, şəhər əhalisi varlanır. Bura hər tərəfdən dəstə-dəstə adam axışıb gəlməkdədir".[17]

"Şuşanın görünüşü orta əsr Avropa şəhərlərini xatırladır. Bu şəhərin tacirləri ipək-barama alverində üstün mövqeyə malikdirlər, Tiflis, Moskva və Marsel şəhərləri ilə birbaşa ticarət əlaqəsi saxlayırlar".[18]

İtaliyalı jurnalist və yazıçı Luici Villari 1905-ci il avqustun 16-da Şuşada ermənilərin başlatdığı qətliamlara şahid olmuş, şəhər sakinlərinin üçdə ikisinin azərbaycanlılardan ibarət olduğunu, ermənilərin əvvəlcədən silahlanıb azərbaycanlılara qarşı qırğın törətməyə hazırlaşdığını qeyd edib.

Şuşa bu gün də xarici səyyahların ən çox gəlib görmək istədikləri məkanlardan biridir. Kitab nəşrə hazırlanarkən-

---

[16] İ.Drozdov "Kavkazski sbornik", II cild, 1882-ci il, s.457.
[17] "Qafqaz" qəzeti, 24 may 1868-ci il
[18] "Vestnik Kavkaza", 1903, səh.43, Tiflis

16.06.2022-ci ildə KİV-də "Dünyanın məşhur səyyahlarının Qarabağa səfəri başlayıb" başlıqlı xəbər yayılmışdı; dünyanın 10 ölkəsindən - Danimarka, Almaniya, ABŞ, Sinqapur, Ukrayna, Türkiyə, İspaniya, Macarıstan, Hindistan və İsveçdən olan 24 məşhur səyyahın Azərbaycanın işğaldan azad edilən torpaqlarına səfəri başlayıb. Səyyahlar 3 gün ərzində Xocavənd-Şuşa-Ağdam-Kəlbəcər-Laçın-Zəngilan marşrutu üzrə hərəkət edəcəklər.[19]



[19]https://azertag.az/xeber/Dunyanin_meshur_seyyahlarinin_Qarabaga_seferi_baslayib-2179415

## *Qarabağın Alban əsilli xristian məlikləri*

VII-IX əsrlərdə hazırkı Şimali Azərbaycanın - Azərbaycan Respublikasının əhatə etdiyi ərazidə mövcud olmuş Albaniya dövlətinin əhalisinin mühüm bir hissəsi türksoylu xristianlar idi və ərəblər bu torpaqları uzun sürən savaşlarla işğal etdikdən, əhalini qılınc gücünə müsəlmanlaşdırandan sonra belə Qarabağın dağlıq hissəsində yaşayan albanlar (utilər, savdeylər və qarqarlar) ənənəvi dini inanclarında - xristianlıqda qalmışdılar.

Qarabağın dağlıq hissəsinin xristian əhalisi rus çarı I Pyotra məktubunda özlərini alban adlandıraraq yazırdılar: “biz ağbanlar (yəni, albanlar) milliyyətcə utilərik”. Bu sübut edir ki, onlar hələ XVIII əsrin əvvəllərində də özlərini alban hesab edirdilər. Rusiyanın Cənubi Qafqazı işğalından sonra ermənilərin indiki İran və Türkiyə ərazilərindən Qarabağa köçürülüb gətirilməsi burada erməni amilinin gücləndirilməsinə stimul verdi. Bu siyasət albanların tarixi taleyində dönüş yaradaraq, onların erməniləşdirilməsinə rəvac verdi - 1836-cı ildə Alban katalikosluğu ləğv edilib erməni qriqorian kilsəsinin tabeliyinə verildi.

Bəzi erməni tarixçiləri bu beş məlikliyin hər birini az qala “erməni milli dövlətçiliyinin nümunəsi”, “əsrlər boyu erməni dövlətçililiyi ənənələrini qoruyub saxlayan, yaşadan” knyazlıq və s. kimi təqdim etməyə və eyni zamanda erməni əhalisini tarixi Qarabağ ərazisinin yerli sakinləri olduğunu sübut etməyə çalışırlar. Qarabağ ərazisində

mövcud olmuş beş xristian məlikliyi haqqında “Qarabağnamələr”də bu iddiaları puça çıxaran dəqiq bilgilər var.

Milliyətcə erməni olan Mirzə Yusif Nersesov Qarabağinin (1798, Hadrut- 1864, Şuşa) şahidi olub, görüb yazdıqları bu gün Qarabağ, Şuşaya iddia edən, alban xristian irsinə sahib çıxmaq istəyən ermənilərə ən tutarlı cavabdır. Onun “Tarixi-Şafi” salnaməsinin bir bölümü “Qarabağın Xəmsə mahalları və Xəmsə məliklərinin əsilləri haqqında” adlanır və burada erməni adı çəkilmir.[20] Erməni əsilli akademik İ.A.Orbeli də bu knyazlıqları Albaniyanın bir hissəsi sayır.[21]

Bu tarixi gerçəklik tarixşünaslığımızda son illər Qarabağla bağlı aparılmış bütün araşdırmalarla üst-üstə düşür.

Biz bu sadə tarixi gerçəkliyi etiraf edib, çatdırmağı bacarmırıq; islamın yayılmasına qədər bizim alban babalarımızın mühüm bir hissəsi xristian dininə mənsub idilər, məbədlər, monastırlar ucaldıblar, orada ibadət ediblər. Xristian türklərin tikdiyi kilsələr dilimizdə “əbədi və daimi məbəd” anlamında olan qədim “bəng” – “vəng” adlanıb: “Qoşa-vəng”, “Xudavəng”, “Dədə-vəng”, “Qıpçaq-vəng” və s.




[20]«Qarabağnamələr”, 2-ci kitab, s.17-18
[21] Çingiz Qacar. Köhnə Şuşa, Bakı, "Şərq-Qərb”, 2019, S.17

Arxeologiya, etnoqrafiya, antropologiya elmləri Azərbaycan xalqının formalaşmasında, etnogenezisində digər tayfalarla birlikdə albanların da mühüm rol oynadığını müəyyən Qarabağın dağlıq hissəsində alban irsimizə mənfur qonşularımzın sahib çıxmaq iddialarına dair bu sətirlərin müəllifinin cavabı azı on beş ölkənin populyar sayt, portalında 12 dildə yayılıb.[22] Eləcə də Gürcüstanın tarixi, elmi, siyasi dairələrinin Azərbaycanın Şimali-Qərb torpaqlarına, alban xristian abidələrinə iddiasının əsassızlığına münasibət bildirmişəm.[23]

Məşhur Azərbaycan eposu "Kitabi-Dədə Qorqud"un baş qəhrəmanı, "Oğuz elinin başçısı Qalın Oğuz"un, eləcə də igidlərin arxası "Salur Qazan"ın əsərdə "albanların başçısı" (II boy) olması bunun təkzibolunmaz sübutudur. Min illərdir Azərbaycanda çoxlu sayda Alban xristian məbədləri – Kiş (Şəki), Xudavəng, Gəncəsər (Kəlbəcər), Gürmük, Ləkit, Qum (Qax), Avey (Qazax), Cotari (Qəbələ), Keşikçi, Avey monastırları (Qazax), Qubadlının Yuxarı Cibikli, Məzrə kəndlərində Alban məbədləri, Laçında Ağoğlan monastırı və sair müqəddəs ibadətgahlar kimi ziyarət edilib, xalq, dövlət tərəfindən mühafizə olunaraq qorunub saxlanıb.

---

[22] "Alban kilsələri – tariximizin qədim izləri" videoçarxı xarici KİV-də https://aztc.gov.az/az/posts/id:1186 https://aztc.gov.az/az/posts/id:1183

[23] Nərimanoğlu H. Alban məbədlərimizə sahib çıxaq, onlar tariximizin ayrılmaz hissəsidir, 23.11.2014, http://zengezur.com/index.php/m-qal-l-r/144-alban-m-b-dl-ri-tarikhimizin-ayr-lmaz-hiss-sidir-sahibl-nm-liyik

## *Şuşa xarici hücumları dəf edir*

Şuşa qala şəhərinin inşası Qarabağ xanlığının sonrakı hərbi-siyasi tarixində mühüm rol oynadı. Məhz bu qalanın mövcudluğu sayəsində Qarabağ xanlığı çox güclü düşmənlərin hücumlarının qarşısını almış, öz müstəqilliyini qoruyub saxlamağa müvəffəq olmuşdu. Qarabağ xanlığına ilk belə güclü hücum 1757-ci ildə baş vermişdi. Qacarlar İranında və Cənubi Azərbaycanda hakimiyyət uğrunda mübarizədə müvəqqəti üstünlük qazanmış Məhəmmədhəsən xan Qacar həmin ilin avqustunda 30 minlik ordu ilə xanlığın paytaxtı Şuşaya hücuma keçdi. Xatınarxı deyilən yerdə düşərgə salan Qacar ordusu şəhəri mühasirəyə aldı. Bir aydan artıq davam edən mühasirə zamanı Qacar ordusunun



Şuşanı ələ keçirmək üçün göstərdiyi bütün cəhdlər uğursuzluqla nəticələndi. Qarabağ xanlığının tarixini qələmə almış Mirzə Adıgözəlbəy yazır ki, Şuşanın qəhrəman müdafiəçiləri düşmən əsgərlərini qırır, azuqə gətirən adamlarını, qoşun əhlinin heyvan və mal-qarasını qarət edib aparırdılar. Böyük itki verən və aclığa davam gətirməyən düşmən ordusunda döyüş intizamı pozuldu. Nəticədə Məhəmmədhəsən xan Qacar Şuşa qalasını ələ keçirə bilmədi və çox böyük itkilər, xeyli də silah-sursat buraxıb geri döndü. Məhəmmədhəsən xan Qacarın məğlubiyyətindən az sonra Şuşa Urmiya hakimi Fətəli xan Əfşarın hücumuna məruz qaldı. Faktiki olaraq Qaradağ, Marağa, Urmiya və Təbriz xanlıqlarının hakiminə çevrilmiş Fətəli xan 1760-cı ildə Azərbaycanın şimal xanlıqlarını da ələ keçirmək qərarına gəlmişdi. O, ilk növbədə Cənubi Qafqazın açarı hesab edilən Qarabağ xanlığını özünə tabe etməyə cəhd göstərdi. Fətəli xan Əfşarın bu hücumu haqqında məlumat verən Qarabağlı tarixçi Mirzə Camal yazır ki, Urmiya hakimi əvvəllər Pənahəli xanın yanına elçilər göndərib, onu itaətə və ittifaqa dəvət etdi. Lakin Pənahəli xan belə sərdarlara itaət etməyi haqlı olaraq özü üçün əskiklik və ar bilib, elçiləri kobud cavablarla geri qaytardı. Pənahəli xandan rədd cavabı alan Fətəli xan 30 minlik ordu ilə Qarabağa yürüşə başladı. Lakin onun Şuşanı qəfil hücumla ələ keçirmək planı baş tutmadı. Belə olduqda o, qalanı mühasirəyə alaraq şəhərin müdafiəçilərini aclıqla taqətdən salıb öz məqsədinə çatmağa cəhd göstərdi. Əhməd bəy Cavanşir yazır ki, Fətəli xan Əfşar Pənahəli xandan narazı olan bir çox yerli hakimləri və qonşu

xanları öz ətrafına toplayaraq Şuşanın 17 verstliyində olan Xocalı kəndində möhkəmləndi, qarşıdurma partizan müharibəsi xarakteri aldı. Qara Murtuz bəy və Pənahəli xanın başqa silahdaşları bu yerlərə bələd olmayan düşmən qüvvələrini müvəffəqiyyətlə tələyə salaraq qırırdılar. Şuşanın altı aya qədər davam edən mühasirəsi zamanı Fətəli xanın ordusu ciddi itkilərə məruz qaldı. Şəhəri ələ keçirmək üçün təşkil edilmiş sonuncu hücum əməliyyatı xüsusilə ağır oldu. Mirzə Camalın verdiyi məlumatdan aydın olur ki, bu hücum zamanı Urmiya xanı ölü və əsir düşənlərlə birlikdə 2 min nəfər əsgər itirmişdi.

Şuşa şəhərini döyüşlə ələ keçirməyin mümkün olmadığını başa düşən Fətəli xan hiyləyə əl atdı. O, öz qızını Pənahəli xanın oğlu İbrahimxəlil ağaya ərə vermək və bununla da guya düşmənçiliyə son qoymaq istədiyini bildirdi. Uzun sürən döyüşlər zamanı xeyli qüvvə itirmiş və zəifləmiş Qarabağ xanı təklifin hiylə olduğundan şübhə duysa da, buna razılıq verdi. Fətəli xanın düşərgəsinə gələn İbrahimxəlil ağa əsir götürüldü və Urmiyaya aparıldı, ağıl və cəsarəti ilə girovluqdan qurtuldu.[24]

[24] "Qarabağnamələr", 3-cü kitab, s.22-26

## *Kürəkçay müqaviləsi. Şuşa qəzasının yaranması*

1805-ci il mayın 14-də Rusiya ilə Qarabağ xanlığı arasında Kürəkçay müqaviləsi imzalandı. 11 maddədən ibarət "Andlı öhdəlik" adlanan traktat ilə Qarabağ xanlığı rus imperiyasının vassalı oldu. Həmin müqaviləyə görə Qarabağ xanlığı aşağıdakıları öhdəsinə aldı:

1. İbrahimxəlil xan İran, Türkiyə və başqa dövlətlərlə hər cür əlaqə və asılılıqdan imtina edib, yalnız rus imperiyasını tanıyır və onun hakimiyyətini qəbul edir. 2. Qarabağ xanlığı qonşu hakimlərlə əlaqə saxlamamalıdır. Onlardan alınan hər növ məktublar Şuşadakı rus komandanlığının və ya Gürcüstan baş hakiminin Qarabağda olan vəkilinin mülahizəsinə verilməlidir. 3. Xanlığın ərazisində saxlanan rus qoşunları üçün komandanlıq tərəfindən təsdiq olunmuş qiymətlərlə ərzaq tədarük olunmalıdır. 4. Rus qoşunları üçün lazımi bina verilməlidir. 5. Gəncədən Şuşaya gedən yol arabaların rahat getməsi üçün təmir olunmalıdır. 6. Sədaqət və inam əlaməti olaraq xanın böyük oğlundan olan nəvəsi həmişəlik Tiflisdə yaşamaq şərtilə girov verilməlidir. 7. Xan hər il rus dövlətinə 8000 çervon bac verməlidir. Və bunu da iki vaxtda: fevralın və sentyabrın birində ödəməlidir.

Bu şərtlərin müqabilində rus dövləti Qarabağ xanlığına aşağıdakıları vəd edirdi: 1. Xanın mülkü salamat saxlanılır. Xanlığın idarəsi irsi böyüklüyə görə nəsildən-nəslə keçir və bunu rus imperatoru təsdiq edir. Məhkəmə işi, cəza və vergi

toplamaq xanlığın ixtiyarında qalır. 2. Xanın mülkünü müdafiə etmək üçün Şuşa qalasına topları ilə birlikdə 500 nəfər rus soldatı göndərilir. 3. Xana öz evində saxlamaq üçün üzərində rus gerbi olan bayraq bağışlanır. 4. Xanın əmanət təyin edilən nəvəsinə gündəlik xərc olmaq üzrə 10 manat gümüş pul müəyyən edilir.

İbrahimxəlil xana general-leytenant, Məhəmmədhəsən ağaya general-mayor, Xanlar ağaya polkovnik hərbi rütbəsi verilir.

İbrahimxəlil xanın ölümündən sonra 1806-cı ildə hakimiyyətə Mehdiqulu xan gəlir. Ona da general-mayor rütbəsi verilir. Mehdiqulu xan siyasi təzyiqlər üzündən 1822-ci ildə xanlığı tərk edərək Tehrana gedir, Qarabağ xanlığı da ləğv olunur.

Mehdiqulu xan sonradan xahiş edərək 1826-cı ildə Qarabağa dönür. Lakin ona sadəcə Qarabağda yaşamaq hüququ verilir, xan vəzifəsi bir daha bərpa olunmur. Mehdiqulu xan 1845-ci ildə vəfat edir.

Xanlıq ləğv edildikdən sonra Şimali Azərbaycanın digər yerlərində olduğu kimi, Qarabağda da komendant idarə üsulu yaradılır, o, hərbi-müsəlman dairəsinin (mərkəz Şuşa) tərkibinə daxil edilir. Bu dövrdə Rusiya qoşunlarının işğalçılıq əməliyyatlarında iştirak edən və əslən erməni olan general-leytenant V.Q.Mədətov (1782-1829) Qarabağda erməni-rus müstəmləkə rejimi yaratdı, hər islahat ermənilərin idarə sistemində daha geniş təmsil edilməsinə, erməni əhalisinin artımına hərtərəfli imkanlar açdı.

1846-cı il inzibati ərazi bölgüsü zamanı Şuşa qəzası yeni yaradılmış Şamaxı quberniyasına (1859-cu ildən Bakı) tabe edildi. 1867-ci ildə Yelizavetpol quberniyası yaradıldıqda Şuşa qəzası onun tərkibinə verildi, quberniyada Zəngəzur, Cavanşir və Cəbrayıl qəzaları da təşkil olundu.[25]

"Kürəkçay"ın (1805-ci il) ardınca Rusiya ilə İran arasında bağlanan "Gülüstan" (1813-cü il), "Türkmənçay" (1828-ci il) müqavilələri tarixi Azərbaycan torpaqlarının parçalanmasına və sonrakı böyük milli faciələrimizə yol açdı.



[25] Nərimanoğlu H. "Zəngəzur:100 sual, 100 cavab", QHT Nəşriyyatı-2019, s.152-153

## *Ermənilərin Qarabağa və Şuşaya köçürülməsi*

1813-cü il oktyabrın 12-də imzalanan Gülüstan və 1828-ci ilin 10 fevralında imzalanan Türkmənçay müqaviləsindən sonra çar Rusiyasının Cənubi Qafqazda, xüsusilə də müsəlman türklərin – azərbaycanlıların yaşadığı ərazilərdə imperiya, müstəmləkə siyasətini həyata keçirməsi məqsədyönlü, sürətli, davamlı xarakter almışdı. Qacarlar İranından ermənilərin Şimali Azərbaycana köçürülməsi həmin müqavilənin XV maddəsilə təsdiq olunurdu. 1829-cu il Ədirnə müqaviləsi ilə Osmanlı imperiyasından da ermənilərin yenicə işğal olunmuş Şimali Azərbayan ərazilərinə köçürülməsi həyata keçirilməyə başlamışdı. Ermənilərin köçürülməsinin əsas istiqamətlərindən biri Qarabağ torpaqları idi.

Qafqazdakı rus qoşunlarının baş komandanı A.P.Yermolovun (1816-1827) göstərişi ilə tərtib olunan "Təsvir"də Qarabağ xanlığının ləğv edilməsi zamanı onun əhalisinin etnik tərkibi əksini tapmışdır. "Təsvir"ə görə Qarabağ əyalətində olan 20.095 ailədən 15.729-u azərbaycanlı (1.111-i şəhərdə, 14.618-i kənddə), 4366-sı erməni, o cümlədən qriqorianlaşan xristian albanlar idi (421-i şəhərdə, 3.945-i kənddə yaşayırdı). Ermənilərin kütləvi şəkildə Qarabağa köçürülməsi nəticəsində burada yeni erməni kəndləri (Marağalı, Canyataq və d.) meydana gəlməyə başlamışdı. Ermənilər sonralar köçürülmə şərəfinə Qarabağda abidələr ucaltmış, lakin XX yüzilliyin 80-ci illərində Azərbaycana

qarşı ərazi iddiaları qaldırdıqları zaman izi itirmək üçün onları dağıtmışdılar. Rəsmi məlumatlara əsasən, 1828-1830-cu illər arasında, cəmi 2 il ərzində, Şimali Azərbaycana, o cümlədən Qarabağa Arazın o tayından 40 min, Osmanlı imperiyasından 90 min erməni köçürüldü. Qeyri-rəsmi erməni köçkünləri ilə birlikdə onların sayı 200 mini ötmüşdü. Köçürülmədən sonra Qarabağın etnik tərkibində ermənilərin sayı ilbəil artmağa başladı. Şuşada yaşayan ermənilər XIX əsrin əvvəlində Rusiya ilə Qacarlar İranı, Osmanlı Türkiyəsi arasında aparılan müharibələr nəticəsində Qarabağa köçürülmüş ermənininin bir hissəsi idi. Bu köçürmə işlərinə rəhbərlik edən Aleksandr Qriboyedov, Vasili Veliçko, İ.Şopen və başqalarının məktublarında, raportlarında bu barədə dəqiq bilgilər vardır. Köçürmə işlərinin əsas rəhbərlərindən olan "Ağıldan bəla" müəllifi Qriboyedov rus im-




Maraga - 150" mounted in 1978 on the occasion of 150 an
rmenians from Persian region Maraga to Karabakh. In 1
in Nagorny Karabakh began "realisation of right of the
ination" inscription on the memorial "Maraga - 150" imm
d

peratoruna yazırdı: "Əlahəzrət, yeni rus torpaqlarında (Cənubi Qafqaz) ermənilərin məskunlaşmasına icazə verməyin. Onlar elə tayfadırlar ki, bir neçə on il yaşadıqdan sonra dünyaya hay-küy salacaqlar və bura bizim qədim dədə-baba torpağımızdır deyəcəklər". Polkovnik Lazarev İran ərazisində yaşayan xristianların Şimali Azərbaycan xanlıqları ərazisinə köçürülməsinin nəticələri haqqında general Paskeviçə yazdığı 24 dekabr 1829-cu il tarixli hesabatında göstərirdi ki, köçürmə işləri 26 fevral 1828-ci ildə başlanmış və iyunun 11-də başa çatmışdır. Bu müddət ərzində 8249 xristian ailəsi (onlardan cəmi 100-ü aysor ailəsi olmuşdu, qalanları isə erməni ailələri idi) İrəvan, Naxçıvan və Qarabağ əyalətinə köçürülmüşdür. Köçürmə işlərinə xəzinədən 16 min qızıl pul və 400 gümüş pul xərclənmişdi. Guya köçmək istəyən 1500 erməni ailəsi isə İranda qalmışdı və onların köçürülməsinə imkan tapılmamışdı. Özlərinə yer edən ermənilər bu gözəl şəhəri çarizmin xristianlaşdırma siyasətinə uyğun olaraq özününküləşdirmək üçün planlı işlər görüblər.

Xüsusilə erməni əsilli rus generalı Valeriyan Qriqoryeviç Madatovun Şuşaya komendant təyin olunmasından sonra ermənilərin köçürülüb yerləşdirilməsi intensiv xarakter alıb. Bununla da Azərbaycanın Qarabağ bölgəsi daimi münaqişə yuvasına çevrilb. Mir Möhsün Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" və Məmməd Səid

Ordubadinin "Qanlı illər" əsərlərində bu hadisələr real faktlarla təsvir olunub.[26] 1918-20-ci, 1988-94-cü illərdə Qarabağda etnik təmizləmə, deportasiya, soyqırımı siyasəti daha geniş vüsət aldı. 1920-ci illərdən Stalin rejiminin çöküşünə qədər sübursuz, dəlilsiz güllələnib qətlə yetirilən, sürgünə göndərilənlərin 90 faizininin sənədlərində ermənilərin imzası var idi, Azərbaycanın güc strukturlarında işləyənlərin yarıdan çoxu ermənilər idi və xalqımızın başına gətirilən bütün müsibətlərin planlanmasında, icrasında erməni izi aşkar görünürdü. Əslində son iki əsrdə bu siyasət heç dayanmayıb; Qafqaz İslam Ordusu, Azərbaycan Xalq Cümhuriyyəti ordusu sıralarına qatılan bütün əsgər, zabir, generallar son nəfərinə qədər, azı 50 min nəfər, milli düşüncəli bütün aydınlar məhv edildi. II Qarabağ müharibəsindəki ağır məğlubiyyətin bəyanatla rəsmi imzalı təsdiqindən sonra ermənilərin dinc şəraitdə Kəlbəcər, Laçından köçüb rədd olub getməsi üçün 15 gün vaxt verildi. Ancaq bu günlərdə mənfur erməni xisləti bir daha çılpaqlığı ilə üzə çıxdı, toplumun nə qədər kinli, məkrli xislətə sahib olduğunu bütün dünya gördü; ermənilər tərk etdikləri yerlərdə özləri ilə daşıyıb apara bilmədikləri hər şeyi – ev, eşik, meşə, sosial obyektlər...nə varsa od vurub yandırdılar.[27]

---

[26] Nərimanoğlu H. Ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi rus, ingilis, erməni mənbələrində http://zengezur.com/index.php/m-qal-l-r/144-alban-m-b-dl-ri-tarikhimizin-ayr-lmaz-hiss-sidir-sahibl-nm-liyik

[27] Nərimanoğlu H. Erməniliyin mahiyyətini dünya gördü. https://zengezur.com/index.php/m-qal-l-r/156-iki-khalzh-iki-ordu-ke-mi-d-v-bu-zh-n-yakhud-d-yi-m-y-n-erm-ni-khisl-ti

# *İbrahimxəlil xan*



Qarabağ xanı İbrahimxəlil xan Cavanşir Azərbaycan tarixində məxsusi yeri olan müdrik siyasətşi, şücaətli dövlət xadimi olub.

Müasirlərindən verilən aşağıda sitatlar da buna sübutdur.

Məşhur "Qarabağnamə" müəlliflərindən biri Mirzə Adıgözəl bəy Qarabaği yazırdı: "Mərhum İbrahimxəlil xan padşah adlanmasa da, onun cah-cəlalı müasiri olan İran padşahlarından daha çox idi. Vilayətlərin xanları və xanzadələri həmişə gözəl xasiyyətli xan cənablarının hüzurunda qonaq olardılar".

Rus alimi, professor P.İ.Kovalenski "Gürcüstan haqqında qeydlər" əsərində Qarabağ xanından belə söz açmışdı: "İbrahimxəlil xan Şuşanı elə bir qoçaqlıq, cəsarətlə müdafiə edirdi ki, onun adı bütün İranda və Rusiya imperator sarayında məşhurlaşmışdı. Öz qüvvəti, qoçaqlığı və zənginliyi ilə İbrahimxəlil xan çoxdan şöhrət qazanmışdır".

Milli tarixşünaslığımızın banisi Abbasqulu ağa Bakıxanov "Gülüstani-İrəm"də yazır: "İbrahimxəlil xan hünərli, ədalətli, bərk ürəkli və sadə rəftarlı bir hökmdar idi".

Sovet və milli tarixşünaslığımızda, bir sıra bədii əsərlərdə (Səməd Vurğunun “Vaqif” dramı) İbrahimxəlil xan haqqında tarixi gerçəklikdən uzaq uydurmalar baş alıb gedib, real tarixdən xəbərsiz auditoriyada mənfi obrazı yaradılıb. Xüsusilə, onun Ağaməhəmməd şah Qacarın Şuşaya hücumu ərəfəsində şəhəri tərk etməsinin səbəbi düzgün yazılmır. Tarixçi Şəfiqə Həmidova “XVIII əsrin ikinci yarısında Azərbaycan–Gürcüstan münasibətləri tarixindən” adlı monoqrafiyasında bu məsələyə aydınlıq gətirərək, tarixi mənbələrə istinadla yazır ki, Qacarın Şuşaya ikinci hücumunda İbrahimxəlil xan yaxınlaşan düşmənlə vuruşmaq üçün 200 nəfərlik dəstəsilə Şuşa qalasından çıxır, düşmənin qabaq süvarisini geri oturdur. Ancaq bu döyüşdən sonra Şuşa qalasına qayıda bilir, çünki qardaşı oğlu Məmməd bəy Cavanşirin xain dəstəsi və bəzi bəylər qala darvazalarını içəridən bağlamışdılar. Qalaya girə bilməyən İbrahimxəlil xan aşağı enib, Xankəndidəki əhli-əyalını, yaxın qohumlarını da götürüb, Şuşadan uzaqlaşıb əlavə qüvvə almaq üçün Balakənə qaynının yanına gedir. Bundan əvvəl isə at ilxısı şah ordusunun əlinə keçməsin deyə daha etibarlı yerə sürdürür.[28]

Ağa Məhəmməd şah 1795-ci il iyul və avqust aylarında 85 minlik qoşunla Arazı keçib Qarabağa yürüş etmiş, Şuşanı üzük qaşı kimi mühasirəyə almışdı. Qacar 3 dəfə hücum edib qala bürclərinin birini dağıtmış, 33 gün Şuşanı mühasirədə saxlamışdı. İbrahimxəlil xanın qoşunu və hətta qadınlar da mərdliklə döyüşmüşdülər. Partizan dəstələri isə

[28] http://elibrary.bsu.edu.az/files/books_460/N_76.pdf, s.40-41

şah ordusuna qənim kəsilmişdi. Şahidlər yazırlar ki, qadınlar hündür, sıldırım qayalıqlardan daşları şah qoşunlarının başına yağdırmışdılar. İbrahimxəlil xanın müdrik, adil, qorxmaz hökmdar olduğunu Ağa Məhəmməd şah Qacarın Şuşaya hücumu zamanı yazdığı məktublara cavablarında, sonra da onun nəşini əsl müsəlman olaraq uzaqgörənliklə, düşmən də olsa, ehtiramla Tehrana yola salmasında təsdiqini tapır. Şah tələb edirdi ki, böyük oğlu Məhəmmədhəsən ağanı onun yanına girovluğa göndərsin və müəyyən miqdarda vergi versin. İbrahimxəlil xan bu əmri rədd edərək cavab məktubunda yazmışdı: "Göndərdiyim girov əmim oğlu Əbdüssəməd bəy və Mirzə Vəli Baharlı şah sarayında günahsız öldürüldüyü üçün bir daha heç kəsi göndərməyəcəyəm. Vergi məsələsinə gəlincə, atam Pənahəli xan öləndə bir kimsəyə vergi verməməyi mənə vəsiyyət etmişdir".[29]

Mirzə Camal yazır: "İbrahim xan qəribsevən, qonaqpərvər, yetimlərə kömək edən, rəiyyətpərvər, qeyrətli, safürəkli, çörəkli, ehsan sahibi və ənam paylayan idi. Seyidlərə, fağırlara sədəqə və nəzir verirdi. Alimlərə hörmət edərdi."

İbrahimxəlil xan vəziyyəti düzgün qiymətləndirib xanlığı, dinc əhalini, qoşunlarını labüd itki, dağıntı, faciələrdən dəfələrlə qorumuşdu. Oğlu Əbülfət xanı məktubla 1796-cı ildə güclü qoşunla Qarabağa hücuma hazırlaşan V.A.Zubovun yanına göndərib onu sülhə razılaşdırmışdı. Hələ gənc yaşlarından atası Pənahəli xanla birlikdə Nadir şah Əfşarın

---

[29] Şəmistan Nəzirli, İbrahimxəlil xan – Qarabağın ağıllı və igid hakimi, Xalq qəzeti, 04.03.22

hərbi yürüşlərində iştirak edib, zəngin döyüş təcrübəsi, biliyi almışdı. Kürəkçay müqaviləsi ilk baxışdan Qarabağ xanlığının müstəqilliyinin saxlanılması görüntüsü yaratsa da, əslində bu sənədin imzalanması həm İbrahimxəlil xan, həm də onun xanlığı üçün ağır nəticələrə gətirib çıxardı. Məğrur, əxlaqlı müsəlman-türk xarakterli Xan sözü bütöv insan idi, başqalarını da elə bilirdi, yanaşı imza qoyduğu sömürgəçi çar general, zabit, məmurları isə məkrli niyyətlərini çox tez büruzə verdilər.

1806-cı ilin yaz fəslində iranlılar yenə də Qarabağa yürüş etməyə hazırlaşırdılar. Tez-tez İbrahimxəlil xanın yanına şahın elçiləri gəlir, vədlər və ümidlərlə onu öz tərəfinə çəkmək istəyirdilər. Hər dəfə iranlılarla görüşünü İbrahimxəlil xan işğalçı rus hərbi birliyinin rəhbəri mayor Lisaneviçə bildirirdi. Müharibənin qarşısını almaq üçün İbrahimxəlil xan bacardıqca iranlılarla mülayim hərəkət etməyə çalışırdı. Digər tərəfdən, məhsulun yetişməsi və yığılması dövrü yaxınlaşdığından xan Qarabağı müharibə meydanına çevrilməsinə maneə olmağa çalışırdı. İran qoşunu Şuşa qalasına doğru hərəkət edir, İbrahimxəlil xan ailəsinin təhlükəsizliyini qorumaq üçün Şuşadan 12 kilometr aralıda olan Xan bağından köçüb şəhərin 4 kilometrliyində Qaraqaya adlı yerə gəlib düşərgə salır.

Gecə mayor Lisaneviç az sayda qoşunla Şuşadan çıxıb xanın düşərgəsinə hücum etdi. Xan çadırdan çıxıb mayoru gördü: "- Gecənin bu vaxtında nə hadisə üz vermişdir?" - deyə sual verdi. Lakin nahaq qan tökməyə adət etmiş Lisa-

neviç heç bir sorğu etmədən çadırlara atəş açmaq üçün soldatlara əmr etdi. Çadırda olanlardan 17 nəfəri öldürüldü. Ölənlər içərisində İbrahimxəlil xandan başqa arvadı Tuba xanım, qızı Səltənət bəyim, 12 yaşlı oğlu Abbasqulu ağa, Kəbirli bəylərindən iki nəfər qonaq və başqaları var idi. 12 iyun 1806-cı il idi. 85 yaşlı İbrahimxəlil xan 1763-cü ildən bəri 43 il idi ki Xanlıq edirdi.

Bu qətliam II Nikolay və onun 11 nəfərlik ailə üzvlərinin 1918-ci ilin iyulun 16-dan 17-ə keçən gecə Yekaterinburqda qırmızı bolşeviklər tərəfindən güllələnməsini xatırladır.

Mayor Lisaneviçin insanlıqdan uzaq, şərəfsiz xəyanəti ilə sakit, dinc həyat keçirib ibadətlə məşğul olan, ömrünün qürub günlərini yaşayan ahıl yaşlı İbrahimxəlil xanın ailə üzvləri ilə birlikdə çox böyük amansızlıqla qətlə yetirilməsindən sonra mayor Lisaneviçin komandanlığı ilə rus hərbi hissəsi xan bağında yerləşdi, bir qədərdən sonra bu hərbiləşmiş dəstə Şuşa şəhərinə köçürüldü. Həmin qanlı və faciəli gecədə Mehdiqulu ağa və Cəfərqulu ağa Şuşada idilər. Bu hadisə şuşalıları və bütün Qarabağlıları qəzəbləndirdi, etirazlara səbəb oldu.

Lakin Mehdiqulu xan (1772-1845) xalqı sakitləşdirib dedi: "Hökumət özü müqəssirləri cəzalandıracaq". Ancaq xalqın narazılığı və çoxlu şikayəti nəticəsiz qaldı. İbrahimxəlil xan çarizmin qəddar müstəmləkəçiliyinin qurbanı oldu. Bu qətliamdan sonra Lisaneviçin vəzifəsi və hərbi rütbəsi sanki mükafatlandırılır kimi artırıldı.[30]

---

[30] "Qarabağnamələr", 3-cü kitab, səh.107-108

İbrahimxəlil xan qurub yaradan, özündən sonra Şuşa, Qarabağda zəngin irs qoyan xan olub. Onun hökmranlığı dövründə Şuşada inşa edilən Gövhər ağa məscidi, 2,5 km uzunluğunda qala divarları, kümbəzlər, Əsgəran qala istehkamı, Ağdamın bağ hasarları, Xankəndi, Xan bağları, karvansara, çox sayda digər binalar bu gün də mədəni, arxitektur, mülki əhəmiyyətini qoruyub saxlayır.



# *Molla Pənah Vaqif – Qarabağ xanlığının baş vəziri*



Molla Pənah Vaqif XVIII əsrin məşhur siyasi və ictimai xadimi, yeni realist şeirimizin banilərindən biridir. Qazaxın Salahlı kəndində anadan olmuşdur. Belə bir fikir var ki, onun uzaq əcdadları bura böyük Füzulinin vətəni olan Bayatdan köçmüşdür. Pənah adını Vaqif Şuşaya (Pənahabada) köçəndən sonra Qarabağ xanlığının banisi Pənahəli xan Cavanşirin şərəfinə götürmüşdür, yəni Pənah xana pənah gətirən. Belə ənənə Azərbaycanda yayılmışdı. Məsələn, Nadirqulu bəy - gələcək Nadirşah Şah Təhmasibin yanında xidmətə başlayanda Təhmasibqulu xan adını, böyük Azərbaycan şairi Xaqani təxəllüsünü xaqan Mənuçöhrün şərəfinə qəbul etmişdi və s.

Vaqif yaxşı təhsil almışdı. O, fars və ərəb dillərini yaxşı bilmiş, astronomiya, riyaziyyat, memarlıq, musiqi və poeziyada böyük biliyə malik olmuşdu. Qazaxda Vaqif məşhur alim və müəllim Şəfi Əfəndinin yanında oxuyub. Bəzi bioqrafiar hesab edirlər ki, sonrakı təhsilini o, Gəncədə, ya da Təbrizdə alıb. Qazaxda, sonra isə Qarabağda məscid məd-

rəsəsində müəllimlik fəaliyyəti ilə məşğul olub, burada fəxri Molla Pənah adını alıb. Onun alimliyinin şöhrəti vətəninin hüdudlarından kənarda da geniş yayılmağa başlayıb. Xalq arasında, hətta belə bir zərb-məsəl də var: “hər oxuyan Molla Pənah olmaz... “.

XVIII əsrin ortalarında Gürcüstanla sərhəddə təhlükəli şərait yaranır və Qazax mahalından bir çox ailələr Qarabağın və Gəncənin müxtəlif rayonlarına köçürlər. Köçkünlərin arasında Vaqifin ailəsi də olur. Ailə Qarabağın Cavanşir qəzasının Tərtərbasar kəndində sığınacaq tapır. Burada Vaqif müəllimlik fəaliyyətini davam etdirir. Kiçik, kasıb bir kənddə bu iş çox cüzi gəlir gətirir, Vaqifin ailəsi də bir çox ailələr kimi ehtiyac içərisində yaşayır. Az sonra Vaqif Tərtərbasardan Şuşaya köçür. Burada o, məktəb açır, gözəl bir müəllim və istedadlı şair kimi qısa bir müddətdə şuşalıların etimadını və rəğbətini qazanır. Vaqif Şuşanın tikintisinə də kömək edir. Şairin şöhrəti İbrahimxəlil xana çalır və xan onu öz sarayına dəvət edir. Molla Pənah Vaqifin saraya necə düşməsi haqqında bir neçə rəvayət var. Onlardan birinə görə Vaqif ayın tutulmasını və zəlzələnin olacağını çox dəqiqliklə əvvəlcədən deyir. Bunu eşidib-bilən İbrahimxəlil xan bəxti gətirmiş münəccimlə tanış olmaq istəyir və onu sarayına dəvət edir. Vaqifin ağlına, zəkasına, fəhminə və şəxsi cazıbəsinə valeh olan İbrahimxəlil xan ona sarayda yaşamağı təklif edir. Başqa bir rəvayətə görə Vaqif Gəncədə olarkən bir nəfərin adından Gəncə hakimi Cavad xan Ziyadoğlu Qacara məktub göndərir. Məktub Cavad xanın xo-

şuna gəlir, Vaqifi sarayına gətirir və İbrahimxəlil xanın təkidli xahişi ilə onu Qarabağa göndərir. Şuşada xan sarayının, yaşayış evlərinin və qala divarlarının tikintisində dəyərli məsləhətlər verir. Onun zəngin kitabxanası var idi və o, daim biliyini artırmaqla məşğul olur, saray əyanları və Şuşa ziyalıları arasında öz alimliyi ilə seçilir, "Vaqif" ("Bilikli") ədəbi təxəllüsünü doğruldur, Qarabağ xanlığının vəziri vəsifəsində Vaqif dövlət xadimi, ağıllı və uzaqgörən siyasətçi kimi özünü göstərdir. Artıq 1783-cü ildə gürcü çarı II İrakli Rusiyanın təbəəliyinə keçir və Vaqif bir il sonra Tiflisdə bu iki dövlət arasında müqavilə bağlanması şərəfmə keçirilən qəbulda iştirak edir. Onun Tiflisdə yazdığı və II İraklinin oğlu, şahzadə Yulona, gürcü gözəllərinə və Tiflis şəhərinin tərifinə həsr etdiyi şeirləri məşhurdur.

1783-cü ildə İbrahimxəlil xan Qarabağ xanlığını Rusiyanın təbəəliyinə qəbul etmək xahişi ilə II Yekaterinaya məktubla müraciət edir. O, ruslar və Tehranda hakimiyyətə gəlmiş Ağaməhəmməd şah Qacar arasında seçim etməli olur. İbrahimxəlil xan reallığı düzgün dəyərləndirib üstünlüyü Rusiyaya verir. Baxmayaraq ki, Qarabağda lap keçmişdən Qacarlar məskunlaşmışdılar və bu diyar Ziyadoğlu nəslindən olan Qacarlar tərəfindən təxminən 200 il ərzində idarə olunmuşdur. Ağaməhəmməd şahın Qarabağa gəlişindən əvvəl İbrahimxəlil xan II İraklı ilə daha da yaxınlaşır. Vaqif İbrahimxəlil xanın, II İraklinin, İrəvan hakimi Məhəmməd xan Qacarın və Talış hakimi Mir Mustafa xanın Ağaməhəmməd şaha qarşı birgə mübarizəsi barədə

danışıqlarda iştirak edir, İbrahim xanınn güclü iradəyə malik müdrik hökmdar olduğunu hər görüşdə vurğulayır.

Qarabağa yürüşə hazırlaşan Ağaməhəmməd şah İbrahimxəlil xandan itaət etməyi və bunun sübutu kimi oğlunu girov göndərməyi tələb edir. İbrahimxəlil xan onunla razılaşmır.

1795-ci ildə Ağaməhəmməd şahın qoşunları Arazı keçib, Şuşa istiqamətində irəliləyirlər. Qalalılar Vaqifin rəhbərliyi ilə müdafiəyə yaxşı hazırlaşa bilirlər. Şəhərin mühasirəsi uzanır və Ağaməhəmməd şah İbrahimxəlil xanı qorxutmağı qərara alıb, saray şairindən ona məktub yazmağı əmr edir. O, aşağıdakı şeiri yazır:

*Fələyin mancanağından fitnə daşı yağır.*
*Sən isə axmaqcasına Şişə içərisinə sığınmısan.*

Bir vərəqdə yazılan bu beyt şahın döyüşçülərinin qalaya atdıqları oxa bərkidilir. Və həmin yolla da onlar Vaqifin yazdığı cavabı alırlar:

*Əgər məni qoruyan mənim bildiyimdirsə,*
*O, Şişəni daşın qoltuğunda da mühafizə edər.*

Bu misralar Ağaməhəmməd şahın qəzəbinə səbəb olur və o, Şuşanı yenidən top atəşinə tutur.

Qalanın uğursuz mühasirəsi 33 gün davam edir və bundan sonra şahın qoşunları mühasirədən əl çəkib, Gürcüstana yollanırlar. Qalanın müdafiəsində silahdan çox gözəl istifadə edə bilən Vaqif də iştirak edir. Onun öz tüfəng atmağına həsr etdiyi müxəmməsi də var.

Ağaməhəmməd şah Qacarın öldürülməsindən dərhal sonra Qarabağ xanlığının başında İbrahimxəlil xanm qardaşı oğlu Məhəmməd bəy Cavanşir durdu. O, Vaqifin həbsxanadan azad edilməsindən bir müddət sonra şairi və onun oğlu Əli bəyi edam etdirdi. Şairin edamının səbəbləri barədə də tarixçilər iki variant üzərində dayanır; Rusiya ilə gizli əlaqələri və Məhəmməd bəy Cavanşir Vaqifin gözəl arvadı Qızxanıma (Qızxanım Vaqifin ikinci arvadı olub, birinci arvadı Mədinə idi) sahib olmaq arzusu. Ancaq bizcə, çoxdan xanlıqda gözü olan, əmisinə də xəyanət edən, Şuşanın qapısını Qacarın üzünə döyüşsüz açan Məhəmməd bəy qarşısında dura biləcək bütün güclü, nüfuzlu insanlardan yolunu təmizləmək istəyirdi. Sonradan Vaqifi oğlunun yaxınlığında dəfn edirlər, məqbərəsi ucaldılır.[31]

İbrahimxəlil xanın digər vəziri Mirzə Camal uzun zaman sarayda birlikdə çalışdığı Vaqif haqqında yazırdı: “Vaqif təxəllüslü Axund Molla Pənah tədbirli, kamallı məşhur vəzir idi. Qacarlar məmləkətində və Rumda şöhrət qazanmışdır. Onun türkcə yazdığı aşiqanə şeirləri indi də dillərdə əzbərdir.”

2020-ci il noyabrın 8-də Şuşanın yenidən Azərbaycana qovuşmasından sonra Vaqifin məqbərəsi bərpa edilib.

[31] Çingiz Qacar. Köhnə Şuşa, Bakı, "Şərq-Qərb”, 2019, s.47-55

## *Qacarlar. Ağaməhəmməd şah Qacarın Şuşada qətli*

Təəssüf ki, tarix elmimizdə sovet-KQB rejiminin antitürk, anti-islam siyasətinə uyğun olaraq uzun illər Qacarlar dövləti barədə tarixi gerçəkliyə, həqiqətlərə uyğun olmayan tezislər ortaya atılıb. Oğuz-Türkmən soylu Qacarlar rəsmi olaraq 1935-ci ildən etibarən "İran" adlanmağa başlayan ərazidə 150 ilə yaxın, təxminən 1780-ci illərdən 1925-ci ilədək hakimiyyət sürmüşdür. Qacarlar da "Dövləti qızılbaşiyyə"ni quran Səfəvilər, Əfşarlar kimi eynilə təmiz türk qanlı, oğuz-türk soyundan gələn şah, hökmdar nəsilləridir. Qacarlar dövlətinin hökmdarları həmişə özlərini Qızılbaş dövlətinin varisləri adlandırıb, Səfəvilərin davamçıları və nəsli kimi özlərini elan ediblər. Abbasqulu ağa Bakıxanov Qacarların Azərbaycana olan bağlılığını çox aydın şəkildə ifadə etmişdir: "İrəvan, Gəncə və Qarabağ əhalisi və əhalisinin çoxu, Qacarlar nəslindən olmuşlar". Qacarların kiçik bir xanlıqdan böyük bir dövlətə çevrilməsi Ağaməhəmməd şah Qacarın böyük uzaqgörənliyi və siyasi taktikaları nəticəsində mümkün olmuşdur. Ağaməhəmməd çox bacarıqlı, uzaqgörən siyasətçi kimi yaxşı anlayırdı ki, əski Səfəvilər torpaqlarında möhkəmlənməyənə qədər yeni dövlətin ömrü Əfşarlar dövləti kimi, qısa sürəcəkdir. Ağaməhəmməd şah Qacarın Tehranı ələ keçirib (1786) onu Qacarlar dövlətinin paytaxtı seçdikdən sonra əsas məqsədi dövlətin ana sütunu olan Azərbaycan türklərindən daima

dəstək almaq, eyni zamanda çar Rusiyasının işğalçılıq siyasətini pozmaq idi. O, vahid dövlətdə birləşmək üçün Urmiya xanlığının xanı Əli xan Əfşara yazırdı: "Türk tayfaları Əfşarlar və Qacarlar bir-birilə müharibə aparmaqla ümumu düşmənin (çar Rusiyasının) qələbəsi üçün imkan yaradırlar. Qacar tayfaları ilə ittifaq bağlamaqla Əfşar tayfaları öz vilayətlərinin müstəqilliyini qoruya bilərlər və heç kimin onların torpaqlarına hücum etməyə cəsarəti çatmaz".[32]

1796-cı ilin mart ayının 21-də "Şahənşah" elan edilən Ağaməhəmməd şah Qacar Şeyx Səfi türbəsindən gətirtdiyi qılıncı qurşamaqla özünü Səfəvilərin varisi elan etmiş oldu. Təmiz qanlı türk soylu türk xanədanı qurmaq üçün qədim türk idarəçiliyini örnək alan Qacar Azərbaycanı şimalı və cənubu ilə bir dövlətdə birləşdirməyə cəhd edir. Qafqaza doğru irəliləyən ruslara qarşı birləşmək üçün Azərbaycanın şimal ərazilərində özlərini müstəqil elan edən xanların yanına elçilər göndərdi.[33]

Ağaməmməd şah xanlıqların artıq Rusiya ilə gizli anlaşmaya getməsin eşidəndə qəzəblənir və dərhal 85 minlik qoşunla şimali Azərbaycana qarşı yürüşə başladı. Onun əvvəlcə Qarabağ və digər xanlıqları işğal etmək planı yox idi. Ümid edirdi ki, xanlıqlar xaçpərəstlərlə iş birliyinə getməz.

---

[32] Faiq Qəzənfəroğlu, https://modern.az/az/news/108975/azerbaycan-tuumlrklerinin-son-imperiyasi-qacarlar-doumlvleti-ii-yaziAzərbaycan Türklərinin son imperiyası: Qacarlar Dövləti

[33] "Agha Muhammad Khan and the Establishment of the Qajar Dynasty", The Cambridge History of Iran, Vol: 7, Edit by: P. Avery,G. R. G. Hambly, C. Melville, Cambridge University Press, New York 2008, s. 114.

Lakin Qarabağ xanlığının da Rusiya ilə yaxınlaşması, yazışmaları barədə kəşfiyyat ona məlumat gətirəndə dərhal hücuma başlamaq qərarına gəldi. 1797-ci ilin ilk baharında Ağaməhəmməd şah güclü ordu ilə Qarabağ istiqamətində hücuma başladı. İbrahimxəlil xan qaynından, qonşu xanlardan hərbi kömək almaq üçün ailəsini də götürüb Car-Balakənə gedir. Rusiyanın Qacarlar dövlətindəki əsas agenti, sarayda mühüm adamlardan olan Sadıq xan aldığı təlimata uyğun olaraq, gecə ikən şah Qacarı qətlə yetirir, başını kəsib İbrahimxəlil xana göndərir. 1797-ci il uyunun 27-si idi. Ağaməhəmməd şahın nəşi İbrahimxəlil xanın ağıllı tədbiri ilə Şuşadan Tehrana, oradan Nəcəf şəhərinə aparılır, 8 yanvar 1798-də birinci imam həzrət Əlinin məqbərəsi yaxınlığında dəfn edilir.[34]

İbrahimxəlil xan Qarabağ xanlığını və öz hakimiyyətini qoruyub saxlamaq üçün Osmanlı dövlətinə də elçilər göndərib, kömək istəyib.[35]

1768-1774-cü və 1787-1791-ci illər Rusiya – Osmanlı müharibəsində məğlub olan Osmanlı imperiyası Rusiya ilə münasibətlərini kəskinləşdirməkdən çəkindiyi üçün Azərbaycan xanlıqlarına kömək göstərə bilməmişdi. Ardınca Qacarların da Rusiya imperiyasına məğlub olması Cənubi Qafqazda, o cümlədən Azərbaycanda rusların öz işğalçı niyyətlərini həyata keçirməsini sürətləndirdi. Acı təəssüflər

---

[34]Abbas Amanat's (1998):essay on Qajar Iran in Layla S. Diba, ed., Royal Persian Paintings: The Qajar Epoch 1785-1925 , I.B. Tauris Publishers, London

[35] Kafkas araştırmaları. İstanbul, 1988. Vəsiqə:12, s.94-95

olsun ki, əsrlər boyu türk dövlətləri olan Osmanlı ilə Səfəvi, Əfşar, Qacar xanədanlarının, Azərbaycan xanlıqlarının ümumi düşmənə qarşı birləşməkdənsə, biri-biri ilə savaşması rus, ingilislərin müsəlman Şərqində güclənməsinə, bölgəyə nüfuz edə bilməsinə imkan yaradan əsas amil olub, bu gün də eyni proses davam edir.



## *Şuşada sənətkarlıq. Şuşalı tacirlər Rusiya və Avropada*

1752-ci ildə əsası qoyulan Şuşa Qarabağda həm də sənətkarlığın mərkəzi olub. Burada toxunan incə naxışlı, sırf yerli ornamentli xalçalar Şərqin hər yerində məşhur idi. Tacirlər bundan yaxşı pul qazanırdı. 1832-ci ildə Şuşada 42 cür ipək, 28 cür pambıq parçalar toxuyan 132 dəzgahlı müəssisələr var idi. 300-dən çox sənətkar burada çalışmaqla yanaşı, bu sənətin sirlərini gənclərə öyrədirdi. Şuşa boyaqçılarının, gön-dəri, yəhər-yüyən ustalarının, şal toxuyanların, papaqçıların əl işləri yaxın-uzaq ellərdə məşhur idi. Şəhərdə silah-sursat, qab-qacaq, geyimlər də hazırlanır, dükanların sayı, sahəsi ilbəil genişlənirdi.

XVIII əsrin ikinci yarısından başlayaraq, ticarət və sənətkarlıq Şuşanın həyatında böyük rol oynayırdı. Tiflisdə rus dilində çıxan "Qafqaz" qəzeti yazırdı: "Şuşa tacirləri İranın, Hindistanın şəhərlərində olur, hətta Almaniyada məşhur Leypsiq yarmarkasında iştirak edirlər. Onlar Leypsiqə, Londona, Marselə, Moskvaya ipək parçalar aparırlar".

"Kaspi" qəzeti isə yazırdı ki, XIX əsrin ikinci yarısında Şuşa artıq Qafqazın əsas ticarət mərkəzlərindən birinə çevrilib. Bakıda, Tiflisdə və Xəzərin sahilboyu şəhərlərində ticarətlə məşğul olan ən məşhur tacirlər Şuşalılar idi. Onlar Fransaya, İtaliyaya barama, yun, xalça va digər mallar aparır. Şuşa bünövrəsi qoyulan vaxtdan Bakı, Gəncə, Nuxa, Şamaxı, İrəvan, Naxçıvanı ticarətdə çox geridə qoyub". [36]

---

[36] Çingiz Qacar. Köhnə Şuşa, Bakı, "Şərq-Qərb", 2019, s.47-55

Şuşa indiki İran və Türkiyəyə gedən Cənubi Qafqazın karvan yollarının və bu ölkələrlə Rusiyanın tranzit ticarət yollarının kəsişməsində yerləşirdi. Şuşaya hər yerdən çoxlu sənətkarlar axışırdı və onlar öz növbələrində, ticarətin gələcək inkişafına təkan verirdilər. Şuşanın sənətkarları, tacirləri yüksək peşəkarlığı, halallığı, vicdanlılığı ilə ad-san qazanmışdı. Yolları dağ, meşələrdən keçən dik yerlərdən ötsə də, Şuşanı Təbrizlə və Yaxın Şərq ölkələrinin başqa şəhərləri ilə birləşdirən və dağlıq meşələrdən Araz çayından keçən qısa karvan yolu böyük şöhrət qazanmışdı. Şuşanın karvansaralarında indiki Qafqaz, Rusiya, İran, Türkiyə, İraq, Hindistanın müxtəlif şəhərlərinin tacirlərinə rast gəlmək olardı. Tacirlər yükdaşımada əsas dəvədən və atdan istifadə edirdilər. Karvanlarda 29-30-dan 300-500-ə qədər dəvə olurdu. Karvanın başında karvanbaşı – sarvan dururdu. Onun vəzifəsinə əlverişli marşrutun, vaxtın və dayanacaq yerinin təmin edilməsi, yolda və istirahət vaxtı karvanın qorunması, gömrükxanaçılar, mühafizə dəstəsi və s. ilə pul haqq-hesabları daxil idi. XIX ərsin ikinci yarısında Şuşalı Kəblə Məhəmmədin və Kəblə Mürsəlin məşhur "Kavaler" silahlı dəstələri Şuşa tacirlərinin uzaq səfərlərdə etibarlı mühafizəçiləri idi. Geri qayıdarkən tacirlər özləri ilə ədviyyat, indiqo, boyaqotu, badam, quru meyvələr, qənd, tütün, zərxara, atlas, kolenkor (pambıq parça növü) gətirirdilər. Ağdamda Şuşalı və gəlmə tacirlərin böyük mal anbarları var idi və müntəzəm olaraq topdansatış bazarları təşkil olunurdu. XIX əsrin yarısında əsas tədavül vasitəsi – Qarabağ xanlığının əsas pul vahidi gümüş pənahabadiləri (gümüş

pulla 20 qəpik), yarımpənahabadi və mis yarımşahı idi, ancaq rus sikkələri, holland çervonları, İran tümənləri və riallar da bazarda işlənirdi. Bazarlarda pulları dəyişmək üçün sərraflar olurdu. Ödəniş yalnız pulla yox, həm də maldəyişmə ilə həyata keçirilə bilərdi.

Əgər XIX əsrin əvvəllərində Şuşada təxminən 100 dükan vardısa, əsrin ikinci yarısında onların sayı 935-ə, XX əsrin əvvəllərində 1400-ə çatmışdı. Dükanlar əsas Rastabazar və Aşağı bazarda yerləşirdi. Şəhərdə poçt da işə düşmüşdü. Yollar yaxşılaşdıqca, köhnə arabaların sayı da azalır, atlara qoşulan furqonlar, faytonlar arabaları uzaq səfərlərdən tamamilə sıxışdırıb çıxardırdı.

Şuşanın fədakar tədqiqatçısı Firudin Şuşinski XIX əsrin axırlarında və XX əsrin əvvəllərində yaşayan tanınmış şuşalı tacirlərin böyük bir siyahısını tərtib edib - onların hamısı müsəlman türk-azərbaycanlıdır, çoxunun da adının qarşısında hacı, kərbəlayı, məşədi titulları var.

Şəhərdə ticarət və sənətkarlığın qızğın inkişafının əsas səbəbi müxtəlif növ yerli xammalın bolluğu, bir çoxunun isə yalnız Qarabağda yetişməsi idi. Meşə, daş materialları, qoyun yunu, ipək, heyvan dərisi, piyi, təbii otlardan alınan boyaq maddələrinin bolluğu xalçaçılıq, ipəkəyirmə, dəriçilik, dülgərlik, dulusçuluq, sabunbişirmə, daş emalı istehsalının inkişafına imkan yaratmışdı. Şuşa öz xalçaları, naxışlı silahları, yəhərləri, zərgərlik məmulatları ilə şöhrət qazanmışdı. Eyni peşənin sənətkarları, onların emalatxanaları müəyyən bir ərazidə yerləşirdi. Tacirlərin dükanları bazar meydanlarına yaxın mərkəzi küçələr boyunca yerləşirdi.

Peşələrin əksəriyyəti nəsildən-nəslə ötürülürdü və çox də-rin köklərə malik idi. Onların arasında xalçaçılığın və bədii naxışlı əl işlərinin adını ilk növbədə çəkmək lazımdır. Şu-şanın kəndlərində və qismən də özündə natural təsərrüfat inkişaf etmişdi. Demək olar ki, bütün ailələrdə toxuma, bo-yama və hana dəzgahları var idi. Adi yun və ipək parçalara, müxtəlif xalça məmulatlarına tələbatı böyük ailələrin öz üzvləri ödəyirdi. Evdə onlar boyaq, dəri aşılama, sabunbi-şirmə istehsalı ilə məşğul olur, adi dülgərlik işləri görürdülər, bir çoxu eyni emalatxanalarda birləşirdilər. Əl işi məmulatlarının əksəriyyəti sifarişlə hazırlanırdı. Misdən düzəldilmiş qablar, zərgərlik məmulatları, ayaqqabı, parlaq üst paltarları, incə naxışlarla bəzədilmiş yəhər və çullar, xalçalar və silahlar alıcıların zövqü ilə istehsal edilirdi. Xal-çaların və parçaların keyfiyyəti və rəqabət qabiliyyəti çox vaxt boyaların təmizliyi və davamlılığı ilə müəyyən olunur-du. Ona görə də yun və ipək sapların boyanmasma xüsusi diqqət yetirilirdi. Xalq texnologiyasında istiladə edilən təbii boyaq maddələrinin hazırlanması üçün xammal Şuşanın ət-rafında kifayət qədər idi. Şəhərdə bir neçə boyaqçı emalat-xanası vardı. Ən qədim sənətlərdən biri dulusçuluq, dəri məmulatlarından hazırlanan mallar idi. Su, şərab, süd, yağ saxlamaq üçün adi gil qablardan istifadə etmək daha geniş yayılmışdı. Gildən o qədər də bahalı olmayan çıraqlar da hazırlanırdı. Şuşa başmaqçıları, papaqçıları Xan sarayların-dan başlamış yaxın-uzaq ölkələrə qədər ad-san qazanmışdı. XIX əsrin sonlarında Şuşada geniş yayılmış kustar barama-

açma və baramadan eşilmiş ipək mal istehsalında xırda artellər fabriklərə çevrilirdi. Şuşada 20 belə ipək fabriki, 19 dəri zavodu, 7 sabunbişirmə sexi, 8 boyaqçı müəssisəsi gecə-gündüz işləyirdi. Sabunu heyvan piyindən, fıstıq ağacının yağından, ya da qaraqandan - sabundaşından bişirirdilər. Şuşada müxtəlif ölçü və təyinatda olan xalçaların – cecim, xurcun (aşırma heybə), məfrəş (yorğan-döşək üçün çuvalsandıqça), çuvallar (müxtəlif təsərrüfat əşyaları üçün kisə) və cürbəcür bəzəkli çullar şöhrət tapmışdı. Musiqiçilərin, müğənnilərin və aşıqların da xüsusi ittifaqları – cəmiyyətləri olurdu ki, onların sifarişləri ilə bir-birindən nəfis musiqi alətləri hazırlanırdı.



Ancaq Şuşa yaranandan onun gözə görünməz bir bəlası da peyda olmuşdu; çar hökumətinin Qarabağ və Şuşaya köçürdüyü ermənilər arasında çoxlu fərasətli dəllal işbazlar da üzə çıxmışdı, onlar yerli sənətkarların mallarını ucuz qiy-

mətə alıb yaxın-uzaq ölkələrdə baha qiymətə, həm də erməni ustaların hazırladıqları mallar kimi satırdılar. Amma bunun ağ yalan olduğunu istənilən məhsulun naxışından tanımaq olurdu. Həm də ilk baxışda sezilməyən cizgilərlə sənətkarlar öz adını toxuyub bir kənarda həkk edirdi. Bu gün dünya muzeylərində Şuşa və Qarabağda toxunmuş "Aran", "Bağçada güllər", "Balıq", "Buynuz", "Bərdə", "Bəhmənli", "Qarabağ", "Qoca", "Qasımuşağı", "Ləmbəran", "Muğan", "Ləmpə", "Malıbəyli", "Xanqərvənd", "Xanlıq", "Xantirmə", "Qələbi", "Şabalıdbuta" xalı, xalçaları milli ornamentləri ilə adamı uzaqdan çağırır: "Mən şuşalıyam" – deyir. O da məlumdur ki, ermənilərdə xalçaçılıq sənəti geniş yayılmayıb.[37]

Şuşa xalçaları 1867-ci ildə Parisdə və 1872-ci ildə Moskvada keçirilən sərgilərdə qızıl medallara, mükafatlara layiq görülmüşdü. Həmin dövrdə Qafqazın rusdilli mətbuatı yazırdı: "Şuşada siz çox gözəl yerli xalçalara rast gələ bilərsiniz. Naxışı, rəngi, möhkəmliyi ilə bu xalçalar, zənnimcə, heç də İrana məxsus məmulatlardan geri qalınır, hətta Xorasan xalçalarını da üstələyir. Siz onları, mənşəyini izah etməyə zəhmət vermədən Tiflis karvansaralarında tez-tez görə bilərsiniz". Başqa bir yazıda isə deyilir: "Zaqafqaziyada xalça istehsalına ahəng verən ən yaxşı toxucu qadınlar Şuşadadır. Şuşa şəhəri çox böyük xalça satışı yeridir".[38]

---

[37] Nərimanoğlu H. "Şuşa həqiqətləri", bu yazı, video-çarx beynəlxalq internet məkanında 10 dildə yayılıb. https://aztc.gov.az/az/posts/id:1174.
[38]https://www.millikitabxana.az/dissertations/tarix?l=M




1875-ci ildə Şuşada olan alman Herbert Eksner bu şəhərin sakinlərinin və qarabağlıların məişətində xalçaçılığın əsas yer tutmasından yazırdı.  Avropanın Viktoriya və Albert muzeyində, Kiyevin Şərq və Qərb Sənəti Muzeyində, çox sayda avropalı kolleksionerin şəxsi kolleksiyalarında saxlanan məfrəş, şəddə, duz və pul kisələri, aşırma dağarcıq, xurcun Şuşa sənətkarlarının əl işləridir.

Alman rəssam O. Şnurlinqin Şuşada olarkən rəngli boya ilə çəkdiyi “Xalçasatanlar” rəsmi də Şuşanın xalçaçılıq sənətinə güzgü tutan qiymətli əsərdir.[39]

[39] Yenə orada

## *Şuşanın məscidləri, dini ziyarətgahları*



Həsənəli Qaradaği (1848, Şuşa – 1929, Şuşa) "Qarabağ vilayətinin qədim və cədid keyfiyyət və övzaları, Pənah xan, İbrahimxəlil xan və Mehdiqulu xan əyyami-hökumət-lərinin əksər vəqaye və hekayətləri" əsərində bu başlıqdakı mövzunu o qədər doğru-dürüst, əhatəli təsvir edir ki, ayrı araşdırma aparmaq lüzumsuzdur. O, yazır: "Şuşa şəhəri zəngin memarlıq abidələri şəhəridir. Bunların bir çoxu tarix keçdikcə uçub dağılmış, bir hissəsi isə bizim dövrümüzə qədər gəlib çatmışdır. Bu abidələrdən iki məscid, divanxa-na (ruslar buranı hərbi kazarmaya çevirmişdilər), böyük

karvansara daha yaxşı vəziyyətdə qalmışdır. Cümə məscidi adı ilə məşhur olan bu bina meydanın qarşısında tikilmişdir. Əhali çox vaxt həmin binaya Yuxarı məscid deyir. Bu bina hicri 1182 (1768)-ci ildə İbrahimxəlil xan tərəfindən tikilmişdir. Hicri 1282 (1866)-ci ildə İbrahimxəlil xanın qızı həmin məscidi əsaslı şəkildə təmir etmişdir. Bunu məscidin girəcəyindəki qapının üstündəki kitabələr əks etdirir. Bu kitabələr həmin məscidin vəqf hesabına işləməsi və təmir olunmasını göstərir. Məsciddəki kitabələr fars dilində aydın nəstəliq xətlə daşa həkk olunan sənət əsərləridir. Eyni zamanda, kitabələrdə hər iki məscidin gəlirinin nəyə sərf olunduğu ətraflı şəkildə, yerli-yataqlı yazılıb. Bu kitabələrdə Şuşanın dini mənzərəsi, məscidlərin idarəedilməsi mükəmməl yazılıb. Dini kamillik, əsl müsəlmançılıq, Allaha ibadət, məscidin, dini icmaların borcu, vəzifəsi bu yazılarda bütün mahiyyəti, yüksək ülviyyəti ilə əks olunub və bu gün məscid, ziyarətgahları, nəzir qutularını şəxsi mənafelərinin təminatına çevirən üzdəniraq din xadimlərimiz üçün o sətirlər ibrət almaq üçün örnəkdir. Tarixçi əlavə edir ki, Aşağı məscid də İbrahimxəlil xanın qızı Gövhər ağa tərəfindən bina olunmuşdur. Maraqlıdır ki, hər iki məscidin inşa və təmirləri bir-birinə yaxın tarixə təsadüf olunur. Şuşada məhlə məscidləri ilə yanaşı, iki came məscidinin tikilməsinə ehtiyac olub. Çünki Şuşada yalnız şiələr deyil, sünnilər də çox idi. Dindarlar arasında da təfriqələr vardı. XVIII əsrin sonu, XIX əsrin əvvəllərində Şuşada 12-yə qədər təriqət və ya əqidə mövcud idi. “Şeyxi”lər və “Üsuli”lər daha məşhur idi, aralarında gərgin mübarizə gedirdi. Mərhum Gövhər

ağa Yuxarı Cümə məscidini inşa və təmir edən kimi Şeyxilər dərhal oranı "işğal etdilər". Aşağı məsciddə isə əsasən Üsulilər ibadətlə məşğul idi. Acı təəssüflər olsun ki, Azərbaycanda və müsəlman ölkələrində bu gün də həmin təriqətçilik meylləri daha təhlükəli şəkildə davam etməkdədir.

Şuşanın məscidləri, mədrəsələri ilə yanaşı, ziyarətgahları da var idi – Həzrət Əli kahası, Həzrət Abbas şəfa ocağı, Saqqaxana və Pirgah pirləri, Seyid Mirfəsih türbəsi, Mir Mehdi ağanın ocağı, Çuxur məhəllədə iki minarəli şəfa ocağı, Qasım ağanın ocağı, Seyidli məhəlləsində Seyid Xəlil Seyid Əli oğlu ocağı və sair. Şuşanın din xadimləri, seyidləri Qarabağda məşhur idi. Şuşaya indiki İran və Türkiyədən çar üsuli-idarəsinin müstəmləkə siyasətinə uyğun olaraq köçürülüb gətirilən qriqorian təriqətli ermənilərin kilsələri, xristianlaşmış alban əhalinin məbədləri olub və onlar burada azad şəkildə dini ayinlərini, ibadətlərini icra ediblər. Qazançı kilsəsi, Yaşıl kilsə və sovet dövründə dağıntıya məruz qalmış rus pravoslav Qala kilsəsi indi də durur.[40]

8 noyabr 2020-ci ildə müzəffər Azərbaycan Ordusu Şuşanı yağı tapdağından azad etdikdən sonra Heydər Əliyev Fondunun himayəsi altında birinci olaraq Yuxarı və Aşağı Gövhər ağa məscidlərinin və Saatlı məscidinin bərpa-təmir işlərinə başlandı.

---

[40] Nərimanoğlu h, Şuşa məscidləri, dini ziyarətgahları, http://zengezur.com/index.php/m-qal-l-r/262-susa-m-sdzidl-ri-dini-ziyar-tzhahlar

# *Şusanın memarı - Kərbəlayı Səfixan Qarabaği*




Şuşanın ən istedadlı və məhsuldar memarı olan Kərbəlayı Səfıxan Qarabağinin tərcümeyi-halı qeyri-adidir. O, sadəcə olaraq layihəçi kimi işləmirdi, ən hündür nöqtələrə çıxaraq tikintinin bütün mərhələlərində fəal iştirak edirdi. Atası bənna Sultan Hüseyn tanınmış usta idi. Memar Şuşada və bütün Qarabağda böyük kafedral məscidlərin, sarayların, möhtəşəm malikanələrin, karvansaraların, hamamların, kiçik məscidlərin və kiçik yaşayış evlərinin tikintisini sonadək uğurla aparıb. Bundan başqa, buzxana, dəyirman, müdafiə qurğuları da tikib. Bunun hamısı onda çox gözəl alınırdı, çünki o, yerli şəraiti, sifarişçilərin də, sadə insanların da zövqünü və tələbatını əla bilirdi. Azərbaycan memarlığının qədim ənənələrini yaxşı mənimsəmişdi. Kərbəlayı Səfıxan 1910-cu ildə Şuşanın məşhur Saatlı məscidini təmir edən zaman 122 yaşında məscidin minarəsindən yıxılmış, on gündən sonra vəfat etmişdi. Xalq arasında deyirdilər: “Dindar Səfixanın bəxti son dərəcə gətirdi ki, o öz ömrünü Allahın evində başa

vurdu". Şuşalılar onu gözəl bir memar, Allah adamı və yaxşı ailə başçısı kimi son mənzilə böyük ehtiramla yola salmışdılar.

Bu tarixi, memarlıq abidələrimizdə böyük sənətkarın mahir usta əlinin, ağlının, zəka və istedadının izləri yaşayır; Şuşada Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa məscidi (1874-75), Saatlı məscidi (1883), Culfalar məscidi, Hacı Ələkbər məscidi, Bərdədə İmamzadə məscidinin yenidən qurulması (1868), Ağdamda məscid (1870), Odessada Tatar məscidi (1870), Aşqabadda "Qarabağlılar" məscidi (1880) və b. Kərbəlayi Səfixan Qarabağinin əsərləridir.[41]



[41] Rizvan Qarabağlı, Memar Kərbəlayi Səfixan Qarabaği. Bakı: 1995

## *Şuşalı Mirmöhsün Nəvvab Qarabaği*



Məşhur alim, musiqişünas Firudin Şuşinskinin yazdığına görə, XIX əsrin sonlarına yaxın Şuşada 95 şair, 22 musiqişünas, 38 peşəkar xanəndə, 16 rəssam, 5 astronom və münəccim, 18 memar, 16 həkim və sair var idi.

Şəhərdə 10-a yaxın köhnə tipli ədəbi, musiqi və başqa cəmiyyətlər, məscidlərin nəzdində 10-dan çox məktəb və mədrəsə fəaliyyət göstərirdi. Şuşanın yetişdirdiyi ensiklopedik biliyə malik görkəmli musiqişünas, şair, rəssam, xəttat, münəccim, kimyaçı və riyaziyyatçı Mirmöhsün Nəvvab Qarabağinin (1833-1918) elm və mədəniyyət tariximizdə xüsusi yeri var.

Mirmöhsün Nəvvab 1833-cü ildə Hacı Seyid Əhmədin ailəsində anadan olmuşdur və ömrü boyu Şuşada yaşamışdır. Təhsilini əvvəlcə ruhani məktəbində almış və burada ərəb, fars dillərini mükəmməl öyrənmiş, sonra Sarıcalı Abbasın mədrəsəsində astronomiyanı, kimyanı, riyaziyyatı və başqa elmləri mənimsəmişdir. Şuşanın mədəni və ictimai həyatında fəal iştirak etmişdir. O, şeir yazır, əsasını qoyduğu çapxanada kitab çap etdirir, yaratdığı yeni tipli məktəbdə dərs deyir, elmin və mədəniyyətin ən müxtəlif sahələrinə həsr olunmuş 20-dən çox kitab yazır. “Məclisi-fəramuşan”

("Unudulmuşların məclisi") və "Xanəndələr məclisi'ni yaradır, Şuşada kitabxana və qiraətxana açır. Onun rəhbərlik etdiyi məclislərə şairlər Abdulla bəy Asi, Fatma xanım Kəminə. Məşədi Əyyub Baki, Həsənəli xan Qaradaği, Əbülhəsən Şəhid, musiqiçilər və xanəndələr Hacı Hüsü, Məşədi Cəmil Əmirov, İslam Abdullayev, Seyid Şuşinski və başqaları daxil idilər. Bu məclislər Azərbaycanın digər məclisləri - Şuşada "Məclisi-üns", Şamaxıda "Beytus-səfa", Bakıda "Məcməüş-şüəra" ilə sıx əlaqə saxlayırdı. "Məclisi-fəramuşan"ın yığıncaqlarını Mirmöhsün Nəvvab bəzən Cıdır düzündə keçirirdi. Bu məqsədlə yaxınlıqdakı mağaralardan biri uyğunlaşdırılmışdı. Orada 30-40 nəfər otura bilərdi. El içində bu mağara "Ağzıyastı kaha" adını almışdı. Mirmöhsün Nəvvabın əsərləri içərisində Qarabağın XVIII və XIX əsrlərdə yaşamış 100-dən çox şairinin həyatı və yaradıcılığı haqda məlumat verilən "Təzkireyi-Nəvvab" antologiyası xüsusi maraq doğurur. Onların arasında Vaqif, Vidadi, Kərbəlayı Səfi Valeh, Zakir, Cəfərqulu xan Nəva, Məhəmməd bəy Aşiq, Abdulla bəy Asi, Natəvan, Mehdiqulu xan Vəfa, Fatma xanını Kəminə, Həsənəli xan Qaradaği, Mirzə Rəhim Fəna, Mirzə Həsən Yüzbaşov, Mirmöhsün Nəvvab, Miribrahim Ağamirzadə, Hacı Abbas Ağəlı, Mirmehdi Xəzani və başqa şairlər var idi. Bu şairlərin siyahısına onun oğlu Miribrahim də daxildir. Mirmöhsün Nəvvab riyaziyyat, kimya və astronomiya ilə maraqlanırdı. Öz evində iki teleskoplu kiçik rəsədxana və kimya laboratoriyası yaratmışdı. 1899-cu ildə astronomiya dərsliyi kimi yazdığı "Ki-

layət-ül-ətfal" kitabında göy cisimlərinin düzülüşünün cədvəllərini, tutulmaların vaxtını göstərib. Kimya laboratoriyasında şagirdlərə təcrübələr göstərir, orta əsr kimyaçılarının bir sıra reseptlərini sınaqdan keçirirdi. "Nəsihətnamə" kitabında Nəvvab gənclər üçün 500 nəsihət verir. Pedaqoq və alimin etik fikirlərini əks etdirən "Kifayət-ül-ətfal", "Nur-ül-ənvar" və "Pəndnamə" kitabları ibrətamizdir. Qarabağın və Azərbaycan incəsənətini Mirmöhsün Nəvvab öz rəssamlıq yaradıcılığı ilə zənginləşdirmişdir. Onun akvarel rəsmləri, kitab miniatürləri və yaşayış binalarının və məscidlərin divar rəsmləri indi də qalır. O, şəhərin əsas məscidi - Gövhər ağa məscidini naxışlarla bəzəmişdir. Onun öz evinin və dərs dediyi məktəbin divar naxışlarının bir neçə surəti qorunub saxlanır. Onun "Vüzuh-ül-ərqam" ("Rəqəmlərin izahı") adlı məşhur musiqi traktatı ilk dəfə 1913-cü ildə Bakıda nəşr olunmuşdur. Mirmöhsün Nəvvabın Azərbaycan dilində yazdığı "Vüzuh-ül-Ərqam" musiqi traktatı Şərqdə bu üslubda yazılan sonuncu əsərdir. Onun musiqiyə həsr edilmiş "Kəşf-ül-həqiqeyi məsnəvi" adlı başqa bir əsəri də olub. Traktatda müəllif ayrı-ayrı muğamların yaranması və adı ilə, bəzi dəstgahların tərkibi, şeir mətni ilə muğamın əlaqəsi, ifaçının və dinləyicinin qarşılıqlı əlaqəsi və onların akustika nöqteyi-nəzərindən optimal qarşılıqlı yerləşməsi ilə bağlı məsələləri şərh edib.

M.Nəvvabın dəyərini itirməyən çap olunmuş elmi-tarixi əsərləri bunlardır: "Nəsihətnamə", Bakı-2005, 56 s., "Təvarixirəzm və şurişi tayifeyi-əraməniyeyi — Qafqaz ba fir-

qeyi müsəlmanan" ("Qafqaz erməni tayfası ilə müsəlmanların vuruş və iğtişaş tarixləri", "1905-1906-cı illərdə erməni-müsəlman davası", Bakı-1993, 128 s., "Divan", Bakı-1999, 192 s, "Təzkireyi-Nəvvab", Bakı-1998, 560 s., "Avropa ibtidai musiqi savadı dərsliyi. Bakı-1995., "Vüzuh-ül-Ərqam", Bakı-lm, 1989, 84 s və d.

Şuşa işğaldan azad edildikdən sonra Mir Möhsün Nəvvabın qəbirüstü abidəsi də bərpa edilib.



## *Gövhər ağa*

1752-ci ildə Qarabağ hökmdarı Pənahəli xan Şuşanın təməlini qoyarkən ucaldılan binaların ilk sırasında məscidlər də olub. Yuxarı Gövhər ağa və Aşağı Gövhər ağa məscidlərinin inşasına 1768-1769-cu illərdə başlanıb. Şuşanın qoşa minarəli bu məscidləri tək Qarabağın deyil, bütün müsəlman Şərqinin orijinal üslubda tikilən incilərindən sayılır.

Bəs "Qarabağnamə"lərdə vəsf edilən Gövhər ağa kim olub?

"Cənnət məkanlı xanlar xanı xoşbəxt İbrahimxəlil xan Cavanşirin qızı həzrəti Zəhranın möhtac kənizi, misilsiz xanım, böyük əsilli və uca nəsəbli, səadətli və şərafətli və həqiqət ədalı yüksəklik və böyüklüyün xəzinəsinin yeganə gövhəri həzrəti Məryəm xasiyyətli, əsrin Bilqeyisi sərkar cənabi-Gövhər ağa bütün möminlərdən, xüsusilə Şuşa şəhərindəki qeyd olunmuş möminlərdən dua" tələb edən Gövhər ağa - Gövhərnisə bəyim (1790—1888) Qarabağ xanı İbrahimxəlil xanın qızı, Mehdiqulu xanın bacısıdır. Anası gürcü knyazı Abaşidzenin qızı Cəvahir xanımdır. Gövhər ağa gənc yaşlarından gözəlliyi, iti ağlı ilə tanınıb, dövrün adətlərinə uyğun olaraq, atasının iradəsinə boyun əyməyə məcbur olub. Yəni Gövhər ağa 16 yaşında olanda 60 yaşlı Şəki xanı Cəfərqulu xan Xoyskiyə ərə verilib. Övladı olmayıb. Ərinin cavan və yaraşıqlı mirzəsi Əlini sevib. Bundan xəbər tutan xan Mirzə Əlini amansızlıqla öldürdüb. Cəfərqulu xan Xoyskinin 1814-cü ildə vəfat etməsindən sonra

Gövhər ağa Şuşaya qayıdıb. Ömrünün qalan hissəsini dini ibadətə, şeirə, sənətə, xeyriyyəçiliyə həsr edib. Məscidlərdəki yazılı lövhələrdə tez-tez Gövhər ağanın adı tərif, mədh olunur: "Bu Gövhər həmişə Allahın sədəfi içərisində olsun".

Gövhər ağa həm də məşhur şairə Xurşidbanu Natəvanın bibisi idi. Natəvanın ilk həyat müəllimi Gövhər ağa olub. O, ilk təlim-tərbiyəsini, xeyriyyəçiliyi, şeir, sənət həvəsini öncə bibisi Gövhər ağadan alıb. Özü də onun layiqli davamçısına çevrilib.

Gövhər ağa ata-babasının yadigarı olan həmin köhnəlmiş, darısqal məscidləri tamamilə sökdürüb, yerində qoşa minarəsi olan ikimərtəbəli yeni məscidlər tikdirib. Qadın, kişi zalları, eyvan, mehrab, kürsülü minarələr əlavə edib, təbii yerli tikinti materiallarından ucaldılan məscidləri milli Qarabağ ornamentləri - "güldəstə" ilə bəzədib. Məscidin minarələrindəki həndəsi ornamentlərin çardaq örtüyü ağac materiallarından quraşdırılıb, son ucluğu aypara şəkilli fiqurla bəzədilib.

Gövhər ağa Şuşa şairlərinin "Məclisi-fəramuşan" toplantılarının da daimi iştirakçısı idi. Gövhər ağa öz qəzəl və fəxriyyələrini bu məclislərdə oxuyardı. Şuşanın din, ədəbiyyat, sənət adamlarına, məktəblərə də hamilik edirdi.

1888-ci ildə vəfat edən Gövhər ağa Ağdamda Cavanşir nəslinə mənsub İmarət qəbiristanlığında dəfn edilib.

8 noyabr 2020-ci ildə azadlığına qovuşan Şuşada ilk təmir-bərpa edilən məkanlar Yuxarı Gövhər ağa və Aşağı Gövhər ağa məscidləri olub.

## *Xan qızı, Şah xanımı Ağabəyim ağa*



İki yüz ildən çoxdur ki, Qarabağ xanı İbrahimxəlil xanın qızı, Qacar şahı Fətəli şahın xanımı Ağabəyim ağanın qürbətdə öz əhvalını ərz etdiyi bu bayatı Qafqaz, İran, Türkiyədə dillər əzbəridir, muğam, şikəstələrdə, xanəndələrin ifasında səslənir:

*Əziziyəm, Qarabağ,*
*Şəki, Şirvan, Qarabağ,*
*Tehran cənnətə dönsə,*
*Yaddan çıxmaz Qarabağ!*

Dünyanın ən dəbdəbəli şah sarayı, qələm, kağız, bayatı... göz yaşları içərisində yazılan şeirlər – heç nə zərif, incə qəlbli bu xanımın vətən həsrətini, qəriblik, qürbət ağrısını ovundura bilmir. Ağabəyim ağanın könlünü şad etmək, onu sevindirmək üçün Fətəli şah Tehranda möhtəşəm bağ saldırır. Çox sevdiyi xanımının doğma vətəni Şuşada, Xankəndidə, Qarabağda bitən ağac və gül-çiçəklərdən gətirdib burada əkdirir ki, Ağabəyim doğma yerlərin havasını bu bağdan ala bilsin, bəlkə onda könlu şadlanar. Hətta, bağbanı da Şuşadan gətirdir. Bu gülüstanın da adını “Vətən bağı” qoyurlar. Ağabəyimə həmin bağın hazır olduğunu deyirlər, ilk

dəfə gəlir, görür, seyrə dalır və ürəyi sıxılır, yanaqlarından yaş süzülür, dərindən ah çəkib ağlayır. Bütün saray əhli bu vəziyyətə heyran qalır. Çünki düşünürdülər ki, "Vətən bağı" onun üçün elə Qarabağın bir parçası olacaq, dərdi yüngülləşəcək, ancaq əksinə olur. Ağabəyim bu dəfə üzüntüsünü belə ifadə edir:

*"Vətən bağı" al-əlvandır,*
*Yox üstündə Xarıbülbül.*
*Nədən hər yerin əlvandır,*
*Köksün altı sarı, bülbül.*

Fətəli şah bu dəfə Şuşaya adamlar göndərir, Xarıbülbül güllərindən gətirdib əkdirir, ancaq bir-iki gün keçməmiş onlar solub quruyur. Çünki Xarıbülbül yalnız Şuşa havasında və torpağında bitirdi, başqa heç yerdə.

Şahın Ağabəyim ağaya sevgisi hüdudsuz idi, sarayda hamı şahın bu xan qızına sevgisindən həsədlə danışırdı. Təkcə gözəlliyi ilə yox, nadir istedadı, iti ağlı, hazırcavablığı, qüruru, şairliyi, sənət bilgisi onu hamıdan fərqləndirirdi. Şuşadakı xan sarayı şairlər, xanəndələr, rəssamların daimi yığnaq yeri idi. Həssas, hafizəli, hazırcavab xan qızı bildiklərini öyrətməkdən doymurdu.

Bir dəfə Şah soruşur ki, mən ki səni bu qədər sevirəm, bəs sən məni niyə sevmirsən? Ağabəyim ağanın sakit cavabı: - bir ürəkdə iki məhəbbət ola bilməz. Cavab şahın şəstinə toxunur və onu qısqandırmaq, acıqlandırmaq üçün deyir ki, amma mənim ürəyimə 500 qadın da yerləşir. Ağabəyim

ağanın şaha cavabı da yaddaşlara, dillərə, tarix salnamələrinə düşür: - Sürü yatağı ilə məhəbbət məkanı olan qəlbin fərqi də elə bundadır.

Tehrana gəldiyi gündən Ağabəyim ağaya sarayın, xəzinənin qapıları açıq idi, külli-ixtiyar sahibi idi.

Şahla zifaf gecəsinə hazırlıq olanda, paltar seçimi çox uzanır, xan qızı nə göstərirlərsə, bir bəhanə ilə bəyənmir, geri qaytarır. Axırda şahın təzəlikcə rəhmətə getmiş əziz anasının həmişə geyindiyi sevimli paltarını seçib bəyənir: - "bunu geyəcəyəm"– deyir. Fətəli şah günlərlə həsrətlə, xoş duyğularla bu zifaf gecəsini gözləyirdi. Qapı açılır, şah qarşısında sanki anasını görürmüş, ürəyi əsir, dizi titrəyir, dili dolaşır, özünü itirir, otaqdan dəli kimi çıxır. Onun bu sözlərini bir neçə saray tarixçisi yazıya köçürüb: "İbrahimxəlil xanın qızı məni zəhərli ilan kimi çaldı".

Fətəli şah duyğusal, həssas insan idi, bu geyimin mənasını dərhal anlamışdı, xəyallarının puça çıxdığını başa düşsə də, ömrü boyu Ağabəyim ağanın vüsalına qovuşmaq istəyi onu tərk etməmişdi. Ağabəyim ağa isə heç zaman sevməsə də, ancaq həmişə onun hörmətini saxlamağa çalışırdı. Bu, onun ailə, nəsil tərbiyəsindən irəli gəlirdi.

Ömrü boyu şah Qarabağlı xan qızının sevgisini qazanmağa çalışır. Ancaq əbəs yerə, çünki Ağabəyim ağanın ilk və son eşqi əmisi Mehrəli bəyin oğlu Məhəmməd bəy idi, o da Şuşada qalmışdı. 54 illik ömründə yalnız onun eşqi, sevgisi ilə yaşadı, əhdinə, məhəbbətinə vəfalı qaldı.

Şah vüsalına yetmədiyi Ağabəyim ağaya sevgilərlə

yazdığı böyük bir şeir dəftərini verib deyir ki, oxu, bəyənmədiyin şeirin üstünə barmağını qoyarsan. Ağabəyim ağa da şahın şeirlərini oxuyur, dəftəri çevirir və şəhadət barmağını dəftərin üstünə qoyur, yəni heç birini bəyənmədim. Şah başqa cavab gözləyirdi, hamının yanında pərt olur. Çünki, şeirləri ilə də xan qızının könlünə bir yol tapa bilməmişdi.

Ağabəyim ağa olduqca ləyaqətli, vüqarlı və əzəmətli xanım idi. Saray mirzələri onun haqqında yazırdı ki, o, oxumuş aqil, kamil və qələm adamı olan bir xanım idi. Saray tarixçiləri yazır ki, Ağabəyim ağa dünyadan bakirə köçdü...

Ömrünün sonunadək Qarabağdan özü ilə gələn, çoxusu da şah sarayındakılardan ağlı, gözəlliyi ilə seçilən 200-dən artıq xidmətçisi ilə birlikdə oturub durar, fars dilini təmiz bilsə də, doğma türk dilində danışardı.

Ağabəyim ağa ərəb və fars dilləri ilə yanaşı, ingilis və fransız dillərini də bilirdi. Bu dillərin vasitəsilə şərqin və Avropanın məşhur şahzadələri və kraliçaları ilə ünsiyyət qururdu. 1811-ci ildə İngiltərə kralının İrana səfir təyin etdiyi ser Orelin Fətəli şahla görüş zamanı etimadnaməsini təqdim edərkən Ağabəyim ağaya kral və kraliça adından almas ənbəçə (arxalıq) bağışlamışdı. Şahbanu Ağabəyim ağa dövlətin xarici əlaqələri ilə bağlı dövrün bir çox münəvvərlərilə məktublaşırdı. İran səfərinə çıxmış İngiltərə kralı Ağabəyim ağanın camalına və kamalına heyran olaraq öz əli ilə ona "Müqəddəs Georgi" ordeni təqdim etmişdi. Ağabəyim ağa bu ödülü almış yeganə türk qadınıdır. Şuşada olduğu kimi, Tehran sarayı da rəssam, alim, filosofların

daimi yığnaq yeri idi. O, sarayda elə böyük nüfuz, hörmət qazanmışdı ki, rəsmi ziyafətlərə daxil olanda, öz yerində əyləşənə kimi hamı ayaq üstə dururdu.

Fətəli şah nə qədər böyük səhvə yol verdiyini anlayıb, ömrü uzunu bunun əzabını çəksə də, Ağabəyim ağanı Şuşaya qaytarmağı şəninə sığışdırmadı.

Ağabəyim ağanın qəriblikdə çəkdikləri şeirlərində əks olunub.

Ta həşr nəvisənd əgər, mi nəşəvəd tey,
Nə dəftəri –hüsni to, nə tumari fəraqəm.

(Ta qiyamətə qədər dərdim yazılsa da qurtaran deyil, nə sənin gözəlliyinin dəftəri, nə mənim ayrılığımın şərhi).

Bir çox mənbələrdə Ağabəyim ağanın rusları Qafqazdan çıxarmaq uğrunda sonadək qərarlılığı, öz fikrini şah sarayında da açıq ifadə etməsi, Rusiya ilə bağlanmış müqavilələrin ləğvinə çalışması, növbəti müharibənin tərəfdarı olması bildirilir. Şah sarayında özlərinə gizli və güclü şəbəkə qurmuş ermənilər məhz bu səbəbdən Rusiyanın Tehrandakı səfirliyinin sifarişi ilə Ağabəyim ağanı əvvəl saraydan uzaqlaşdırmağa, ardınca da həyatının sonuna yaxın sarayı tərk etmək məcburiyyətində qalıb Qum şəhərində məskun olduğu qəsrdə zəhərləyib öldürməyə nail olurlar. Ağabəyim ağa 1832-ci ildə 52 yaşında vəfat edir, Qum şəhərində xanədan sahiblərinə məxsus Darül-İman adlanan qəbristanlıqda dəfn olunur.

Onun kədərli, nisgilli həyatı bir çox ədiblərin əsərlərinə mövzu olub. Azərbaycan Xalq Cümhuriyyətinin Türkiyədə olan ilk səfiri Yusif Vəzir Çəmənzəminlinin atası Məşədi

Mirbaba Qarabağ hökmdarı İbrahimxəlil xanın nüfuzlu vəzirlərindən biri olmuşdur. Odur ki, saray həyatına yaxından bələd olan bir yazıçı  kimi o, özünün "İki od arasında" romanında Ağabəyim ağanın uşaqlıq illəri, əmisi oğluna olan ilk məhəbbəti haqqında geniş söhbət açıb. Ağabəyim ağanın əldə olan şeirlərindən görünür ki, o da müasirləri Q. Zakir, Aşıq Pəri, Ə.Qaracadaği kimi müxtəlif janr və formalardan məharətlə istifadə edib.

Ağabəyim ağanın yaradıcılığından bizə yadigar yalnız dillər əzbəri bu beytlərdir:

*Əfsus ki, yarım gecə gəldi, gecə getdi,*
*Heç bilmədim ömrüm necə gəldi, necə getdi.*
*Könlüm dəxi aram olmadı, dönsün qana,*
*Ta deyim dərdimi bir-bir becə gəldi, becə getdi.*
*Öldürüb hicrdən vəslində ehya eylədi,*
*Son dünyadakı ömrüm vecə gəldi, vecə getdi...*

Onun ayrı-ayrı tarixçilərin yazılarında qalan bu 6 beyti və 2 bayatısı...bəlkə də İran arxivlərində əlyazmaları var. Ağabəyim ağanın nisgilli şairə taleyi xalqın yaddaşında sevgi ilə  yaşayır.[42]

[42] Nərimanoğlu H. Xan qızı, Şah xanımı Ağabəyim ağanın acı taleyi
https://zengezur.com/index.php/m-qal-l-r/253-khan-zh-z-sah-khan-m-azhab-yim-azhan-n-adz-taleyi

## *Tehranda doğuldu, Şuşada yaşadı, Bərdədə dəfn edildi*



Feldmarşal, tarixçi alim şahzadə Bəhmən mirzə Qovanlı-Qacar 1811-ci il oktyabr ayının 11-də Tehranda anadan olmuşdur - Fətəli şahın nəvəsi, Abbas Mirzənin dördüncü oğlu, Azərbaycan valisi, Məhəmməd şahın ana-bir qardaşıdır. O, Abbas Mirzənin oğlanları arasında ən istedadlısı olub. İran, xüsusilə də, Azərbaycanda böyük hörmət sahibi idi. Anası, şahzadə Asiya xanım da qacarlar nəslindən idi. Ana babası Mirzə Məhəmməd xan Qacar Xorasan hakimi və qardaşı Hacı Allahyar xan Qacarlar dövlətinin məşhur siyasi xadimlərindən sayılırdı. 20 yaşı olanda babası Fətəli şah Qacar Bəhmən Mirzəni Ərdəbilin hakimi təyin edir. Fətəli şahın ölümündən sonra başına təzəcə tac qoymuş Məhəmməd şah qardaşlarını özünə qarşı sui-qəsddə günahlandırıb 1834- cü ildə Bəhmən Mirzəni və Abbas Mirzə həbs edib Ərdəbil qalasına həbsxanaya saldırır. Lakin elə həmin il Məhəmməd şah anasının xahişi ilə Bəhmən Mirzəni azad edib Tehrana hakim təyin edir və ona feldmarşal rütbəsi verir. Məhəmməd şah özünün üçyaşlı oğlunu

vəliəhd elan edir, uşaq Azərbaycanın canişini olur. Qacarların yuxarı təbəqələri, o cümlədən şahın iki doğma qardaşı - Qəhrəman Mirzə və Bəhmən Mirzə belə məsul vəzifə üçün uşağın yaşının çox az olmasını bildirərək bu qərarı qəbul etmirlər. Başda Rusiya olmaqla xarici dövlətlər onları müdafiə edir və Qəhrəman Mirzə Azərbaycanın hakimi təyin olunur. Bəhmən Mirzə həmin vaxt Burcuhidin, Silaxorun və Həmədanın hakimi idi. Qəhrəman Mirzənin ölümündən sonra Azərbaycanın idarəsi Bəhmən Mirzəyə verilir. Ölkənin faktiki hakimi, vəzir Mirzə Ağası başa düşürdü ki, Bəhmən Mirzənin arxasında duran Rusiya və dayısı, Xorasanın qüdrətli hakimi onu taxta oturtmağa çalışacaqlar və ona görə də vəzir bir sıra qabaqlayıcı tədbirlər görür. Nəticədə Bəhmən Mirzənin dayısı İraqa qaçır, onun özü isə rus səfirliyində sığınacaq axtarmağa məcbur olur. Rus səfirliyinin xahişi ilə şah ona Rusiyaya getməyə icazə verir. 1848-ci il may ayının 12-də "Lənkəran" paroxodunda Bəhmən Mirzə Bakıya yola düşür, mayın 15-də Şamaxıya yollanır, 20-də isə Tiflisə çatır. Yeddi arvadı və 19 övladından ibarət ailəsi də mayın 28-də İrandan Naxçıvan yolu ilə Tiflisə gəlir. Təbrizdən xəzinəsi və 95 dəvəyə yüklənmiş o dövrə görə çox böyük əlyazmaları, 400 kitablıq kitabxanası da gətirilir. Həmin kitabxananın bir hissəsi hazırda AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır. Onların əksəriyyətində ekslibris (kitab cildinin içəri tərəfinə yapışdırılan və kitab sahibinin adı olan bədii nişan) rolunu oynayan möhür, bəzilərində isə hətta Abbas Mirzənin

də möhürü var. 1848-ci ildə Tiflisdə Mirzə Fətəli Axundzadə ilə görüşür, qonaq gəlib gedirlər. Bəhmən Mirzənin oğlu Xanbabaxan Mirzə Qacarın Mirzə Fətəlinin qızı ilə evlənməmişdən qabaqkı tanışlığı da buradan başlayıb. Nisbətən kiçik bir şəhər olan Tiflisdə hamı bir-birini tanıyırdı, yeni gəlmə ilə, üstəlik bu dərəcədə tanınmış bir şəxslə hamı tanış olmağa can atırdı. Rus hökuməti Bəhmən Mirzəni böyük hörmət və ehtiramla qəbul etmiş, ona ildə 6 min çervon çar təqaüdü ( 9 min 600 rubl ) və Rusiyanın istənilən yerində yaşamaq üçün ev verməyi vəd etmişdi. Bəhmən Mirzə Qarabağda - Şuşada məskunlaşmağa icazə istəyir. 1851-ci il oktyabr ayının 4-də özünün böyük hərəmxanası, uşaqları və yaxın adamları ilə Şuşaya köçür, hündür daş divarla hasara alınmış böyük saray kompleksi tikdirir. Bu saray kompleksinə 15-16 otaqlı ikimərtəbəli imarət, dəyirmi eyvanları, böyük oval zalı, 14 arvadının hər biri üçün beş-altı otaqdan ibarət kiçik evləri olan bağ, anbarlar, mətbəxlər və çoxlu yardımçı binalar daxil idi. Orda onun uşaqları üçün



kiçik məktəb, kitabxana, məscid və hamam da vardı. Bütün kompleksin ətrafına hündür hasar çəkilmişdi. Bəhmən Mirzənin öz karvansarası da var idi.

1905-ci ildə erməni-müsəlman davası zamanı Bəhmən Mirzənin sarayı ermənilər tərəfindən yandırılır. Bəhmən

Mirzənin oğlu, ilk peşəkar azərbaycanlı pianoçu qadınlardan biri olan Nəzirə xanımın atası Qulamşah Mirzə Qacar sonradan sarayı qismən bərpa etdirir. İnqilabdan əvvəl Bəhmən Mirzənin uşaqları və nəvələri Tiflisin, Şuşanın, Gəncənin, Bakının ictimai həyatında fəal iştirak edirdi. Tiflis Qadın Xeyriyyə Cəmiyyətində bu nəslin bir neçə qadın nümayəndəsi çalışırdı. Gəncədə indi Nizami-Puşkin kitabxanası kimi məşhur olan kitabxana ("Hüseyniyyə") Bəhmən Mirzənin qızı Səbiyyə xanımın ianəsi ilə tikilir. AMEA-da Bəhmən Mirzənin oğlu Əbdülsəməd Mirzə tərəfindən üzü köçürülən bir neçə əlyazma kitab saxlanılır. Bəhmən Mirzə özü bir neçə tarixi əsərin müəllifidir. Onun "Məhəmməd şah təzkirəsi" (1832) və "Şükümamcyi-şahənşahi" ("Çarlar çarına minnətdarlıq" kitabı I Aleksandra həsr olunmuşdur) AMEA M.Füzuli adııa Əlyazmalar İnstitutunda saxlanılır. Onun zəngin əlyazma kitabxanasının bir qismi də oradadır. Kitabların bir hissəsi Bəhmən Mirzənin xüsusi sifarişi ilə tərcümə olunmuş və üzü köçürülmüşdür. Məsələn, o, "Min bir gecə"nin ərəbcədən tərcüməsini Əbdüllətif Tasuciyə sifariş etmişdir. Kitab ilk dəfə 1845-ci ildə Təbrizdə nəşr olunmuşdur. Bəhmən Mirzənin Con Kozalini tərəfindən yağlı boya ilə çəkilmiş portreti Milli İncəsənət Muzeyində saxlanılır. Kitablarına ona məxsus kvadrat şəklində olan möhür vurulmuş və kalliqrafik yazı ilə "Şah taxt-tacının yeganə incisi - Bəhmən. 1240 (1824)" yazılmışdır.

Bəhmən Mirzə övladlarına və nəvələrinə Rusiyanın ən imtiyazlı təhsil ocaqlarında Avropa təhsili verir, özü isə siyasətdən uzaqlaşıb Azərbaycanın tarixinə dair əsərlər yazır.

Oğlanlarının əksəriyyəti dövlət qulluğunda xidmətçi idi. Onların arasında rus ordusunun və Azərbaycan Demokratik Respublikası ordusunun səkkiz generalı - Şəfi xan, Feyzulla Mirzə, Rzaqulu Mirzə, Əkbər Mirzə, Əmir Kazım Mirzə, Məhəmməd Mirzə, Mahmud Mirzə, Əmənulla xan Mirzə, eləcə də Rusiya və İranda xidmət edən çoxlu yüksək rütbəli zabit var idi, bir çoxu erməni daşnakları ilə müharibədə qəhrəmancasına döyüşmüşlər. Oktyabr inqilabını Bəhmən Mirzənin uşaqlan qəbul etmirlər və onların əksəriyyəti həyatlarını buna görə qurban verirlər. Qacarlar ailəsinin Qarabağdakı başçısı Bəhmən Mirzə Qacarın oğulları və qızları (sayları 63 olub), onlardan törəyənlər Azərbaycanın nüfuzlu ailələri ilə qohum olmuş, qız alıb vermiş, ulu şah nəslini davam etdirmişlər.

Bəhmən Mirzə 1884-cü il fevral ayının 11-də Şuşada vəfat etmiş, vəsiyyətinə görə Bərdə şəhərindəki "İmamzadə" dini kompleksinin qəbiristanlığında dəfn olunmuşdur. Hələ sağlığında o, İmamzadədə günbəz taxtapuşu olan üç otaqdan ibarət məqbərə tikdirmiş, divarlarda özünün tərtib etdiyi altı didaktik, dini mənalı epitafiya yazdırmışdır.

İstedadlı siyasi xadim, sərkərdə və alim Bəhmən Mirzə Qacarın xatirəsi külli-Qarabağda, o taylı bu taylı Azərbaycanda əziz tutulur, Rusiya, Ukrayna, Gürcüstanın bir çox muzey və kitabxanalarında saxlanan əlyazmalarında, kitablarında, İranın və Azərbaycanın tətbiqi incəsənət nümunələrində adı yaşayır.

## *Xurşidbanu Natəvan*



Xurşidbanu Natəvan (1832-1897) Şuşada Qarabağ xanı Mehdiqulu xanın ailəsində anadan olub. Xan öz qızına doğma anası Xurşidbanunun adını verib. Ailənin yeganə övladı, həm də Qarabağ xanlıqlarının sonuncu vərəsəsi olduğu üçün, onu sarayda "Dürrü yekta" (Tək inci), el arasında isə "Xan qızı" çağırmışlar. Xan qızının müasiri Mir Möhsün Nəvvab və başqalarının əsərlərində Natəvanın şairliyi ilə bərabər səmimi, xarici görünüşcə eyibsiz, zərif xanım, əl işlərində, rəssamlıq sənətində çox qabiliyyətli və kamil olduğu yazılıb. Onun çəkdiyi şəkillərin toplandığı "Gül dəftəri" hazırda Əlyazmalar İnstitutunun arxivində saxlanılır.

Xurşidbanu yaxşı ev təhsili almışdı, ərəb, fars, sonra isə Tiflisdə olarkən rus dilini də öyrənmişdi, Qasım bəy Zakir, Mirzə Camal, Mirzə Adıgözəl bəy, Əhməd bəy Cavanşir və bir çox başqaları kimi ədəbiyyat, incəsənət həvəskarları və pərəstişkarlarının arasında böyümüşdü. Sarayda yaşayan çoxlu xala və bibiləri ona xalça toxumağı, əl işləri öyrətmiş, yüksək bədii zövq aşılamışdılar. Mehdiqulu xan 1845-ci il mayın 14-də qəflətən vəfat edir, Ağdamda məşhur "İmarət"

qəbiristanlığında dəfn olunur. Sonralar xanın sümüklərini şiələr üçün müqəddəs olan Kərbəlaya (İraq) aparıb, orda basdırmışlar, məqbərə isə bu günədək durur. Natəvan gənc ikən atasını itirməyin əzabını çəkir, ağıçıların səsi kəsilməmiş Xan qızının evinə elçilər ayaq döyməyə başlayır. Namizədlər arasında Bəhmən Mirzə də var idi. Bəzi Qarabağ əyanları Xurşidbanu ilə evlilikdə xanlığın vəziyyətini möhkəmlətmək imkanı da görürdülər. Ancaq çar hökuməti buna razı olmazdı. O, strateji cəhətdən Rusiya üçün çox mühüm olan Qarabağ xanlığının qadın hakiminin özbaşına ərə getməsinə imkan verməzdi. Xüsusən də, ona görə ki, onun qanında Qacarlar sülaləsinin qanı axırdı. Natəvan yalnız kağız üzərində xan olsa da, o özü rus məmurlarının fikri ilə hesablaşmağa məcbur idi, çünki maddı cəhətdən onlardan çox asılıydı. İtaət etmədiyi halda isə mülklərindən və pul təminatından məhrum ola bilərdi. Çarizmin Tiflis canişinliyi ona belə namizəd tapmışdı - Xasay xan Usmiyev nüfuzlu kumık knyazı Musa xanın oğlu idi. Xan gənc oğlunu rus çarına sədaqət rəmzi kimi Sankt-Peterburqa əmanət yollamışdı. Paytaxtda onu əvvəlcə Paj korpusuna təyin edirlər, sonra isə Fransaya Napoleonun bitirdiyi Sen-Sir Hərbi Akademiyasına oxumağa göndərirlər. Mükəmməl təhsil almış, ağıllı və şöhrətpərəst Xasay xan gənc yaşlarında general-mayor rütbəsi almışdı. Rus-türk müharibəsində iştirak etmiş, bir sıra orden və medallarla təltif olunmuşdu. Boş vaxtlarında ədəbiyyatla məşğul olurdu. Tiflisdə Mirzə Şəfi Vazeh, Mirzə Fətəli Axundov, Aleksandr Çavçavadze, Georgi Sereteli, Bestujev-Marlinski kimi görkəmli xadimlərlə

və bir çox başqaları ilə dostluq edirdi. O, Mirzə Şəfinin Tiflisdə fəaliyyət göstərən "Divani-hikmət" ("Müdriklik cəmiyyəti") ədəbi məclisinin üzvü idi.

İzdivac barədə məsələləri həll etmiş ana və bala elə həmin ilin payızında Tiflisdən Şuşaya qayıdır. Xurşidbanu xan torpaqlarının, saraylarının və mülklərinin sahibi qalır, anası Bədircahan bəyim ildə 1000 çervon təqaüd alır. 1850-ci ildə Xasay xan Usmiyev nişanlısının dalınca Şuşaya gəlir. Toydan sonra onlar əvvəlcə Dağıstana, knyazın doğma kəndinə, ordan isə xidmət etdiyi Tiflisə gedirlər. Rəsmi sənədlərdə və Tiflis mətbuatında Xurşidbanu "knyaginya" adlandırılmağa başlayır. Tiflis həmin illərdə Qafqazın mədəni mərkəzi idi. Şəhərin yüksək dairələrində knyaz Usmiyev heç də axırıncı yerlərdə deyildi. Ona hörmət bəsləyir, onunla hesablaşırdılar. Xurşidbanu Tiflisə gəldiyi ilk günlərdən şəhərin yüksək aristokrat mühitinə daxil edildi və xüsusən, Şərq ədəbiyyatı həvəskarları arasında çox keçmədən nüfuz qazandı. Burada onun poetik istedadının inkişafı üçün çox gözəl mühit var idi. Lakin taleyin hökmü başqa cür oldu. Şairin həyatının tədqiqatçıları yazırlar ki, Tiflis iqlimi Xurşidbanuya düşmədi və o, qan azlığı xəstəliyinə tutuldu. Həkimlər ona heç cür kömək edə bilmədilər və nəhayət, Xan qızına Şuşaya qayıtmağı məsləhət gördülər. 1852-ci ildə Xurşidbanu Şuşaya qayıdır və bir ili də yataqda keçirir. Hökmlü və bəzən də əsl hərbçi kimi sərt olan knyazla münasibətləri korlanır. Bunun səbəblərindən biri də Xurşidbanunun ana ola bilməməsi idi. Həmin il Şuşaya gələn Mirzə Fətəli Axundov gəncləri barışdırmağa çalışır.

1853-cü ilin sonunda Xurşidbanu tam sağalır və knyazla barışır. Xasay xan daimi yaşamaq üçün Şuşaya köçür. Burada o, yerli əyanlarla yaxınlaşır, özünə həmfikirlər tapır. Lakin geniş kübar həyatına adət etmiş knyaz üçün kiçik Şuşa darıxdırıcı olur. O, müntəzəm olaraq Tiflisə, Vladiqafqaza, doğma Dağıstana gedirdi. Orda irsi xan torpaqlarında qazandığı pulu ailəsinin gələcəyi barədə qətiyyən düşünmədən əyləncələrə xərcləyirdi. Həkimlərin Xurşidbanuya heç cür kömək edə bilməyəcəklərinə əmin olan knyaz 1854-cü ildə onu Bakıya məşhur Şıx pirinə aparır. Çoxsaylı zəvvarlar belə hesab edirdilər ki, bu pir qadınların problemlərinin həll edilməsinə kömək edir. 1855-ci ildə onun oğlu olur və atasının şərəfinə oğluna Mehdiqulu adı verir. Bir ildən sonra isə xalq arasında “Xanbikə” deyilən qızı Fatmabikə doğulur. Mehdiquluya xalq arasında “Xanoğlan”, yaxud da “knyaz” deyirdilər. Poeziya ilə maraqlanan Mehdiqulu ədəbi mühitdə “Vəfa” təxəllüsü ilə də tanınırdı.

Dünya şöhrətli fransız yazıçısı Aleksandr Düma (ata) 1858-1859-cü illərdə Qafqazı səyahət xatirələrinə aid 3 cilddən ibarət kitabı Parisdə nəşr olunub. O, Bakı məhəllələrinin birinin polismeysteri Piquliyevskinin evində qonaq olarkən Xurşidbanu Natəvan və onun həyat yoldaşı, knyaz Xasay Usmiyev, eləcə də ailənin böyükləri, azyaşlı uşaqları ilə görüşüb tanış olmasını da təsvir edib. Düma lirik şeirləri ilə tanınıb sevilən Azərbaycan şairəsi Natəvan ilə şahmat oynayıb. Oyunun nəticəsi isə çox yaddaqalan olub. Natəvan Dümanı mat edib. Natəvan Dümaya qalib gələrkən ondan yaşca xeyli kiçik idi. Onun cəmi 26, Dümanın isə 56 yaşı

vardı. Düma şahmat oyununda məğlub olandan sonra Natəvanın ağlına heyranlıq əlaməti olaraq Parisdən gətirdiyi Napoleonun büstünü və fil sümüyündən düzəldilmiş zərif şahmat fiqurunu ona hədiyyə edib. Aleksandr Dümanın atası Napoleon ordusunun generalı olub. Bu səbəbdən də Dümanın Napoleona xüsusi rəğbəti var idi. O, öz  hədiyyəsilə də həm Natəvanın şahmatda mahir olmasını, həm də Napeolona sevgisini ifadə edib. Xasay xan Usmiyev həyat yoldaşı Natəvanın öz əlləri ilə toxuduğu bir pul kisəsini və iki arxalığı A.Dümaya bağışlayır. A.Düma fransız ədəbiyyatı və mətbuatı ilə maraqlanan Usmiyev haqqında yazırdı: "Mən onun fransız dilinin belə gözəl və belə təmiz tələffüzünü eşidəndə diksindim. Fransızca o, əsl parisli kimi danışırdı". Rəssam Çingiz Mehbalıyevin "Xurşidbanu Natəvan və Aleksandr Dümanın şahmat oyunu"  əsərində bu hadisə məharətlə kətana köçürülüb.



1980-ci ildə şairin anadan olmasının 150 illiyi münasibətilə 1980-ci ildə İmarət memarlıq kompleksində Natəvanın qəbirüstü abidəsi qoyulub.

Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus yer tutan, övlad itkisi ilə hüzünlü ömür sürən Natəvanın paytaxt Bakı ilə yanaşı, Avropa şəhərlərində heykəlləri ucaldılıb. Heydər Əliyev Fondunun dəstəyi ilə Belçika Krallığının Vaterlo şəhərində Azərbaycanın görkəmli şairi Xurşidbanu Natəvanın abidəsi açılıb. Heykəlin postamentində "Şərqin müasir maarifçi və şairə qadını Xurşidbanu Natəvan, Qarabağ şahzadəsi, Azərbaycan" sözləri yazılıb. Xurşidbanu Natəvana daha bir abidə Fransanın Evian-le-Bən şəhərində Leman gölü sahilindəki "Azərbaycan parkı"nda 2017-ci ildə qoyulub. Mədəniyyətlər xalqları, ölkələri birləşdirən ən etibarlı körpüdür. 2022-ci il həm də 270 yaşlı Şuşanın şairə qızı Natəvanın 190 illiyidir və Şuşada parlayan Natəvanın nuru Avropanın bir sıra şəhərlərinə də işıq saçır.[43]



[43] Nərimanoğlu H, "Aleksandr Düma və Azərbaycan şairi Natəvanın görüşü" Məqalə Fransa portalında yayılıb. https://www.aztc.gov.az/az/posts/id:1345

## *Şuşa və Xankəndi Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycan SSR tərkibində*

Xatırladaq ki, Şuşanın inşasından və Qarabağ xanlarının əsas iqamətgahına çevriləndən sonra Qarabağ xanları Şuşanın sərt qışından ailəsini qorumaq, bütün fəsillərdə istirahət üçün əlverişli olan Xan bağlarının yerində Xan kəndini saldılar. Əsrlərdir ayağı dəyər hər yerdə "Özümə yer edim, gör sənə nə edirəm" prinsipi ilə siyasət yürüdən rus işğalçıları bir müddət sonra geniş, hər cür şərait yaradılmış Xankəndində rus polkunun "ştab"ını, süvari korpusu yerləşdirdi, bununla da kəndin əvvəlki sakit, firavan həyatı pozuldu. 10 fevral 1828-ci ilin Türkmənçay müqaviləsindən sonra Şuşa və Xankəndinə də Qacarlar İranı və Osmanlı Türkiyəsindən xeyli sayda erməni ailəsi köçürüldü, bir qismi də Xankəndində çar ordusunun hərbi hissələrində, dövlət idarələrində işlə təmin edildi. 1822-ci ildə Qarabağ xanlığı ləğv edildi, yeni yaradılan Şuşa qəzası Yelizavetpol quberniyasına daxil oldu. Bu ərazilərin tarixi, demoqrafiyası barədə dəqiq bilgilər verən rus etnoqrafı İ.Seqal yazırdı ki, Xankəndində (Selenie "Xan-Kendi") istefaya çıxandan sonra vətənlərinə geri dönmək istəməyən bəzi rus əsgərləri də ailəliklə qalıb yaşayırdı. Çar Rusiyasının XIX əsrə aid

bütün hərbi və mülki xəritələrində bu yerin adı “Xankəndi” göstərilib, Şuşa da "Şuşi" yox, elə "Şuşa" kimi yazılıb.[44]

**Azərbaycan Demokratik Respublikasının (1918-1920) və Azərbaycan Respublikasının uyğun inzibati-ərazi vahidləri**




1905-1906-cı illərdə Şuşada erməni ifrat millətçi, separatçı və terrorçularının törətdikləri ilk kütləvi terror aktları və qətliamlarda 100-ə qədər azərbaycanlı öldürülür, 20 ev yandırılır. Köməyə Laçınlı Sultan bəy Sultanovun başçılıq

---

[44] Nərimanoğlu H. Xankəndi necə Stepanakert oldu. https://zengezur.com/index.php/m-qal-l-r/147-khank-ndi-nedz-stepanakert-oldu. Bu məqalə əsasında hazırlanmış videoçarx 10 dildə 20-dək xarici portalda yayılıb: https://aztc.gov.az/az/posts/id:1179

etdiyi dəstə gəlir, çar hökumətinin qızışdırdığı bu münaqişə tez bir zamanda söndürülür. Ancaq erməni və rus gizli anlaşması olan strateji əhəmiyyətli Şuşa qalasının erməniləşdirilməsi planı bununla bitmir, gizli terror dəstələri yaradılır, hər an fürsət gözləmə taktikası seçilir. Buna cavab olaraq Şuşalı Əhməd bəy Ağaoğlunun başçılığı altında "Difai" (müdafiə) təşkilatı qurulur.

Hüseyn Baykaranın "Azərbaycan İstiqlal Mübarizəsi tarixi" və Nağıbəy Şeyzamanlının "Azərbaycan İstiqlal Mücadiləsi xatirələri" araşdırma əsərlərində "Difai"nin Şuşa komitəsi haqda diqqətəlayiq faktlar verilib. Həqiqətən, bu təşkilat Azərbaycan tarixinə şərəfli mübarizlik səhifələrini yazıb, istilaçı, terrorçu daşnak birliklərinə ağır sarsıdıcı zərbə vurub, layiqli dərs verib.

1918-1920-ci illərdə isə Şuşa Qarabağ general-qubernatorluğunun mərkəzi idi. 1919-cu ilin 19 yanvarında yaradılan Qarabağ quberniyasına Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzaları daxil idi.

1918-ci il 28 mayda Tiflisdə Azərbaycan Xalq Cümhuriyyətini elan edən, İstiqlal Bəyannaməsinə imza atan 26 istiqlalçıdan biri, ilk hərbi nazir, Qarabağın general-qubernatoru Xosrov bəy Sultanovun Şuşada erməni separatçılara, terrorçulara qarşı mübarizədə böyük rolu olub. Xosrov bəy bir müddət Qarabağı Şuşadan idarə edib, buranın mərkəz statusunu yenidən bərpa edib.

1919-cu ilin Novruz bayramında erməni-daşnak hərbi dəstələri general Dronun rəhbərliyi ilə Qarabağa yeganə keçid olan Əsgəranı zəbt etmiş, Şuşa və Zəngəzurla əlaqələri

kəsmişdilər. Xosrov bəyin başçılıq etdiyi Azərbaycan əsgərləri dəqiq, çevik hərbi əməliyyatla mayın 30-da erməni qoşunlarını darmadağın edərək Xankəndi və Şuşanı düşməndən geri almışdı. 1919-cu ilin iyununda X.Sultanovun başçılığı ilə keçirilən digər əməliyyatda Şuşaya gizli yolla silah aparan Erməni Milli Şurasının üzvləri həbs edilərək Qarabağ ərazisindən çıxarılmışdı. O zaman Zəngəzuru azərbaycanlı əhalidən təmizləyib özünü "Zəngəzur kralı" elan edən Osmanlı ordusunda xidmət etmiş general Andranikin 5 min nəfərlik nizami qoşun hissəsi ilə birlikdə Abdallar kəndindən (Laçın ərazisi) keçib Şuşa-Qarabağ ermənilər ilə birləşmək planını bir döyüşün nəticəsi həll etdi; Zabux dərəsində Andranikin qoşunlarını mühasirəyə alan Sultan bəyin partizan dəsətələri bu planı öldürücü zərbə ilə darmadağın etdi. Azərbaycan Cümhuriyyətinin Hərbi naziri general Mehmandarovun başçılığı ilə gələn dəstə yardıma xeyli gecikmişdi. Nazir Abdallara-Laçına gəlir, təhlükənin bitdiyini görür, əlini Sultan bəyin çiyninə qoyub deyir: - Vaxt gələcək sənin bu qəhrəmanlığının əvəzində Azərbaycan xalqı bax o Laçın qayasının ən hündür yerində heykəlini ucaldacaq. Sənin bu qəhrəmanlığın Şuşa və Qarabağın gələcək taleyini həll etdi.[45]

AXC dövründə Şuşada ermənilərin ən xəyanətkar silahlı qiyamlarından biri 1920-ci il martın 22-də Azərbaycan

[45] Nərimanoğlu H. Xalq qəhrəmanlarımız: Sultan bəy və Xosrov bəy Sultanov qardaşları http://zengezur.com/index.php/m-qal-l-r/188-mzhallr

xalqının Novruz bayramı günü baş verdi. Bu qiyam bolşevik Rusiyasının 28 aprel işğalı ərəfəsində ölkənin şimal sərhədlərinin müdafiəsi işinə ağır zərbə vurdu və müstəqil Azərbaycan dövlətinin – Azərbaycan Xalq Cümhuriyyətinin süqutunu sürətləndirdi. Bu, Qərbi Zəngəzurun Sovet Ermənistanına verilməsi (1920) və dağlıq Qarabağda erməni muxtariyyətinin yaranması üçün əsas oldu.[46]



Sovet hakimiyyəti dövründə Şuşa şəhərinin inzibati statusu bir neçə dəfə dəyişikliyə məruz qaldı. PK(b)P MK Qafqaz bürosu plenumunun 1921-ci il 5 iyul tarixli qərarı ilə Şuşa yeni yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi kimi müəyyənləşdirildi. 1923-cü il iyulun 7-də mərkəz Şuşadan Xankəndinə dəyişdi. Görünür, ermənilər Azərbaycana qarşı hazırladıqları məkrli planları Şuşadan həyata keçirməyin heç də asan olmayacağını başa düşüb bu addımı atmışdılar. Şuşa şəhəri isə AK(b)P MK Rəyasət Heyətinin 1923-cü il 16 iyul tarixli iclasının xüsusi

[46] Nərimanoğlu H. "Zəngəzurun Ermənistana verilməsi: mötəbər mənbələr nə deyir?" yazısına xatırlatma və sözardı. https://zengezur.com/index.php/m-qal-l-r/135-z-nzh-zurun-erm-nistana-verilm-si-m-t-b-r-m-nb-l-r-n-deyir




qərarı ilə Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə daxil edildi. Şəhər eyni adlı rayonun və 12 kənddən ibarət Malıbəyli volostunun mərkəzinə çevrildi. Bununla da Şuşa 170 ildən artıq yerinə yetirdiyi statusdan – bütün Qarabağın mərkəzi statusundan məhrum edildi. Şuşa şəhərinə vurulmuş ən böyük zərbələrdən biri onun qısa müddətə də olsa, rayon mərkəzi statusundan məhrum edilməsi oldu. 1963-cü il yanvarın 4-də Şuşa rayonu ləğv edilərək Stepanakert rayonunun tərkibinə qatıldı. Yalnız Nikita Xruşşovun hakimiyyətdən uzaqlaşdırılmasından sonra 1965-ci il yanvarın 6-da Şuşanın rayon statusu yenidən bərpa edildi. İnzibati rayona Şuşa şəhəri və 31 kənd daxildir. Acı təəssüflər olsun ki, II Qarabağ müharibəsində Ordumuzun tam hərbi, fiziki, mənəvi üstünlüyü Qarabağ məsələsinin birdəfəlik həlli ilə nəticənmədi, Rusiyanın müdaxiləsi və digər səbəblərdən artıq Şuşanı təmizləyib erməni silahlılarının tamamilə tərk etdiyi Xankəndinə daxil olan ilk xüsusi təyinatlı hərbi dəs-

tələrimiz şəhəri tərk etmək, savaşı dayandırmaq barədə verilən əmri yerinə yetirməyə məcbur qaldı. Şuşanın kəndləri də Xankəndi, Xocalı və digər bölgələrimiz kimi hələ də rus-erməni hərbi strukturlarının nəzarətindədir. Heç şübhə yoxdur ki, gec ya tez Qarabağın dağlıq ərazilərində yaşayan ermənilər ya gerçəklikdə Azərbaycanın tamhüquqlu vətəndaşları kimi yaşamağı qəbul edəcək, ya da köçüb istədikləri yerə gedəcəklər. Onların başqa seçim yolu yoxdur.



## *Türk əsgərləri Şuşada. Albay Cəmil Cahid*

M.Ə.Rəsulzadə 1918-ci ildə yazırdı: "Bu müşkül vəziyyətdən milləti qurtaracaq yeganə çarə vardır – Türkiyə. Ümidlər oraya dikilmişdir". 1918-ci ilin 15 sentyabrında Bakını azad edən Nuru paşa komandanlığında Qafqaz İslam Ordusunun ilk tədbirlərindən biri Qarabağ və Zəngəzura təcili kömək göndərmək oldu. Nuru paşa Qarabağ bölgəsində misli görünməmiş bir qətliam hazırlığına başlayan erməniləri dayandırmaq üçün hərəkətə keçdi. Qarabağ hərəkatı üçün 1-ci Azərbaycan diviziyası yaradıldı. Komandanlığına da Bakı Qarnizonu Komandanı albay (polkovnik) Cəmil Cahid bəy gətirildi. O, Nuru paşa ilə birlikdə Trablüsərbdə, Balkanlarda, Qurtuluş savaşında qəhrəmanlıqlar göstərmişdi. Bu diviziyanın əsas gücünü 5-ci Qafqaz piyada diviziyasının sərəncamında olan 106-cı piyada alayı ilə 9-cu Qafqaz alayı təşkil edirdi. 1.200 nəfərlik 1-ci və 2-ci və 250 nəfərlik süvari alayları azərbaycanlılardan ibarət idi. Yeni diviziyanın tərkibinə bir dağ topçu batalyonu ilə üç zirehli maşın daxil edilmişdi. Bakı yaxınlığında qəhrəmancasına döyüşən Anadolu və Azərbaycan türk əsgəri birlikləri vaxt itirmədən yola düşdü və qatarla əvvəlcə Yevlaxa gəldi, oradan isə Ağdamda toplaşmağa başladı. Şuşa və Gorusun ələ keçirilməsi dağlıq Qarabağda asayişin təmin edilməsi əsas vəzifə idi. Sentyabrın 23-də Ağdama çatan həmin bölük, oktyabrın 7-də Sultan bəy Sultanovun təşkil etdiyi



qüvvələrlə Zəngəzur qəzasının mərkəzi Gorus istiqamətində hücuma başladı, Şuşanı itkisiz ələ keçirdi, özünü "Zəngəzuru qubernatoru" elan edən Andranik Ozanyanın əsas qüvvələri Gorusun cənubuna qovuldu. Şuşanın mühasirədən xilas olan müsəlmanları Türk ordusunu hərarətlə qarşıladı. Cəmil Cahid bəy şəhər rəisi erməni Kavalanı erməni məhəlləsinə göndərərək, itaət edəcəkləri halda can və mallarının təminat altında olacağı, əks halda isə müharibə qanunlarına uyğun olaraq cəzalandırılacaqlarını bildirdi. Az sonra erməni başbilənləri Cəmil Cahid bəyin yanına gələrək, xalqın böyük hörmətlə Türk ordusuna bağlılığını və əmrlərə itaət edəcəklərini bildirdilər. Bundan sonra Komandan ermənilərin kilsəyə yığışmalarını tələb etdi. Cəmil Cahid bəy buradakı nitqində, ermənilərin indiyə qədər türklərə çox pisliklər etdiklərini söylədi. Həm də Türk dövlətinin tam vətəndaşlıq hüququ verməsinə baxmayaraq, qarşı

tərəfin nankorluq etməsindən söz açdı. Bu səbəbdən cəzalandırılmalı olduqları halda, Türkün ulu vicdanının bir daha onları əfv etdiyini bildirdi. Albay Cəmil Cahid bəy ermənilərə silahı dərhal təhvil vermək tələbini irəli sürdü. Türk ordusunun rəsmi keçid mərasimi keçirəcəyini bildirən Cəmil Cahid bəy, ermənilərin də bu mərasimdə iştirakını və beləliklə də, yerli müsəlman türklərlə barışmalarını istədiyini qeyd etdi. Dediyini də elədi və bundan sonra şəhərin erməni və türk məhəllələri arasındakı səngərlər yığışdırıldı, əsas erməni məhəllələrinə Türk əsgərləri yerləşdirilərək asayiş təmin edildi, ermənilərin müsəlmanlara qarşı terroru dayandırıldı, davakar liderlərin bir çoxu aradan götürüldü. Başqa yol da arandı; Qafqazdakı ingilis, fransız missiyasının Cümhuriyyət Hökumətinə qarşı təzyiqlərini azaltmaq, Naxçıvan və Zəngəzurun işğal planlarından çəkindirmək üçün Osmanlı ordusunun Qəmərlidəki taxıl anbarlarından aclıq çəkən ermənilərə 12 ton buğda da paylanıldı.

Qafqaz İslam Ordusunun ən qorxmaz komandanlarından biri olan Cəmil Cahid bəyin adı Şuşaya qədər də dillər əzbəri idi. Onun rəhbərliyi ilə iyunun 7-də Qazaxda, iyunun 11-12-də Gəncədə ermənilər tərksilah edilmişdi. Səməd bəy Rəfibəyov Gəncə döyüşləri haqqında xatirələrində yazır: “Döyüş axşama qədər davam etdi. Cəmil Cahid bəy hər an bizimlə idi. Ən ağır döyüşlərdə öndə gedirdi. Axşam saat 11-də bir keşiş, bir erməni zabiti və bir komissar əllərində ağ bayraq Cəmil Cahid bəyin qərargahına gəldilər. Danışıqlardan sonra onlar tərksilah olmağa razılıq versələr də, vədlərinə əməl etmədilər. Bundan əsəbiləşən Cəmil Cahid bəy



avqustun 12-də səhər tezdən hücuma keçmək əmrini verdi”. Balkan, daha sonra isə Birinci Dünya Müharibəsində, Bakının alınmasında, qayda-qanunun təmin olunmasında misilsiz şəxsi igidlikləri, qətiyyəti ilə ad-san qazanmış albay Cəmil Cahid bəy Nuru paşanın da sevimlisi, ən etibarlı komandirlərindən idi. O, Nuru paşanın əmri ilə sentyabrın 15-də Bakı azad olunan kimi şəhər komendantı təyin edilmişdi. Onun Bakı əhalisinə müraciəti, gördüyü sərt tədbirlər qısa zamanda nəticə verdi, ipə-sapa yatmayan qoçulardan tutmuş, talançı, oğru, sabotajçılara qarşı sərt tədbirlərin hamısının arxasında onun adı durur, hər kəsi lərzəyə salırdı, uzun illər xaos, anarxiya, çoxhakimiyyətlik hökm sürən, intizamsızlıq içində boğulan çoxmillətli, çoxminlik Bakıya məhz belə qətiyyətli, qorxubilməz komendant lazım idi. Onun küçə, məhlə, bazar, hər gediş-gəlişli yerə yazılıb yayılan əmrinin məzmunu belə idi: “Osmanlı ordusuna pənah gətirən bütün əhalinin cins və məzhəbə ayırmadan canı, malı, ərz və halı əmniyyət altındadır. Hər kəs dükanları açıb iş və gücü ilə məşğul olacaqdır. Talançı, mülk yandıran, adam öldürən günahkarlar

dərhal qətl ediləcəkdir. Heç bir kəs, heç bir bəhanə ilə axşam saat 7-dən sabah saat 7-yə qədər evdən çıxmayacaqdır. Tüfəng, silah götürmək, fişəng atmaq qəti qadağandır. Bakı komandanı, miralay Cəmil Cahid”.

Şuşalıların onu çox böyük ehtiram və hörmətlə necə qarşılaması, erməni əhalinin Cəmil Cahid adı qarşısında xofu, bu qəhrəman türk zabitinin portreti, şəxsi mənəvi xüsusiyyətləri o zaman Şuşada yaşayan Cəlil Məmmədquluzadənin həyat yoldaşı Həmidə xanımın “Xatirələrim”ində yaddaqalan cizgilərlə əks olunub: “Şuşada ermənilərlə müsəlmanların münasibətləri tarıma çəkilmiş vəziyyətdə idi. Söz-söhbət gəzirdi ki, türklər gəlirlər. Türklər Şuşa yolunu açmaq üçün gəlirlər. Hər kəs türklərin gəlişini gözləyir və Şuşada böyük pişvaz tədbirləri görülürdü. Şəhər bəzədilmiş, qala qapılarının girəcəyində bir neçə zəfər tağı asılmışdı. Bu zəfər tağlarının birini Şuşa qadınları adından mən ucaltmışdım. Ağ kəlağayı üzərində tikmə naxışla hilal-ulduz salmış və türkcə belə bir şüar yazmışdıq: “Gün gələcək, həqiqət günəşi doğacaq, əsarətdə qalan Ana-Şərq istiqlal qazanacaq!”

Şəhərə birinci olaraq Cəmil Cahid paşa avtomobilində daxil oldu. Paşa ilk olaraq məscidi ziyarət etdi. Sonra Xan bulağına qalxdı. Bu vaxt şəhərin erməni səmtindəki hakimiyyət nümayəndələri çoxlu sayda bayraq və nişanlarla əhatə olunmuş avtomobillə müsəlman səmtinə daxil olaraq öz itaətlərini bəyan etdilər. Sonra uzun-uzadı nitqlər söylədilər, sülhdən, dostluqdan, qonşuluqdan, danışdılar və getdilər”. Həmidə xanım erməni başbilənlərin Cəmil Cahid

bəyin şərəfinə ziyafət təşkil etməyini də, onu ələ almaq cəhdlərinin alınmadığını da yazır: "Bu ziyafətə müsəlman ziyalıları da dəvət olunmuşdu. Biz də orada idik. Ziyafət çox canlı keçdi. Paşanın ətrafında gözəl bir erməni qadını dolaşırdı".

Ermənilərin məkrli niyyətlərini anlayan Cəmil bəy Mirzə Cəlilin və Həmidə xanımın təklifi ilə gecə onların qonağı olur. "Cəmil Cahid dəvətimizlə bizə qonaq gəldi. Paşanın əhvalından görünürdü ki, Mirzə Cəlillə tanışlıqdan çox məmnundur. Onlar uzun-uzadı söhbət etdilər". Həmidə xanım Cəmil bəyin tezliklə nəinki Şuşada, bütün Qarabağda əmin-amanlıq yaratdığını, Şuşadakı ermənilərin türk ordusuna tabe olduğunu yazırdı. Ermənilərdən: "türk ordusunun bütün əmrlərinə tabeyik" vədini aldığını qeyd edirdi.

Qafqaz İslam Ordusunun sıralarında olan Mucip Kamalyeri xatirələrində yazır: "Təbiət gözəlliklərinə sahib Şuşaqalaya şəhərin varoşlarında bizləri maraq və həyəcanla bəkləyən türklərin candan alqışları içində və pək çabuk hazırlanmış üç böyük Zəfər tağının altından keçərək girdik. Birincisində "Yaşasın Ənvər", ikincisində "Yaşasın Sultan", üçüncüsündə "bir gün olacak şəmsi- həqiqi doğacaq, şərqin bu əsir valdeləri hür olacak" yazılmışdı".

Türk qoşunlarının 7 oktyabr 1918-ci il, səhər saat 10-da Şuşaya girişi rəsmi "Azərbaycan" qəzetinin 1918-ci il noyabr nömrəsində də təsvir olunub; "Zəfər qapısının yanında əllərində Şuşanın açarını tutmuş ruhanilər Cəmil Cahidin pişvazındadır. Qara çərkəzi geyimli şuşalı gənclərdən ibarət orkestr hərbi marş çalır. Şuşanın tanınmış adamları

Cəmil Cahidi duz-çörəklə, qadınlar gül-çiçəklə qarşılayır. Məktəblilərin əllərində türk bayraqları var. İzdihamın içində, hətta Cəmil Cahidin Şuşaya daxil olmasına "sevinən" 300 erməni də var.

Cəmil Cahid ön sıradadır. Yanında addımlayan İsmayıl bəy Ziyadxanovdur. Süvarilər, topçular, pulemyotçular. Qaladərə qəhrəmanları Sultan bəy və İldırım bəy, Qarabağ süvariləri..”





Xatırladaq ki, bu şəxslərdən İsmayıl bəy Cavad xanın nəticəsidir, 1920-ci ildə Qızıl Ordunun hərbi səhra məhkəməsinin qərarı ilə bolşeviklərə qarşı savaşdığı üçün Gəncədə güllələnib, digərləri sürgün, mühacirət həyatı yaşayıb.

Mucip Kamalyerinin yazılarından məlum olur ki, Şuşa erməniləri Qafqaz İslam Ordusunun şərəfinə bir axşam ziyafət də verib.  Və həmin ziyafətdə ermənilər adından söz alan gur səsli bir ermənibaşı can və mallarının Osmanlı ordusunun təminatı altında olduğunu görməyin bəxtiyarlığı içində olduqlarını ifadə etdikdən sonra deyir: "Biz Qafqaz



ermənilər dünənə qədər rus çarlarının hökumətlərinə bağlı idik, bundan sonra Osmanlı padşahlarına qulluqçu olmaqla heç bir şey itirmərik. Bizlərə inanmanızı, güvənmənizi rica edirik" - deyərək şərab dolu qədəhini padşahın və ailəsinin şərəfinə qaldırıb alqışlar altında içir.

Cəmil Cahid Toydəmir İkinci Dünya müharibəsi günlərində Hitlerin dəvəti ilə Türkiyədən Almaniyaya getmiş hərbi nümayəndə heyətinin rəhbəri olub, onunla görüşüb. Hitler alman tərəfinin təşəbbüsü ilə cəbhə bölgələrini gəzən Cəmil Cahiddən alman ordusunun durumu barədə fikirlərini öyrənir, israrla Türkiyənin hərbi köməyini istəyir.

Onun kədərli olduğu hiss olunur. 1943-cü ildə Cəmil Cahid Ankaraya bu qənaətlə qayıdır: "Hitler məyusdur və müharibədə məğlub olacağı qaçılmazdır. Türkiyə bu adamdan uzaq durmalıdır". Şuşa fatehi Cəmil Cahid Toydəmir Türkiyənin Almaniya tərəfindən müharibəyə qatılmasını

əngəlləyir və tarix bunun uzaqgörən, düzgün qərar olduğunu göstərir. O, CHP-dən millət vəkili, 1946-47-ci illərdə Türkiyənin milli müdafiə naziri olub. Cəmil Cahid bəy 1956-cı ilin 15 iyulunda vəfat edib.

İnanırıq ki, Şuşada Nuru paşanın, albay Cəmil Cahidin və Şuşanın azad edilməsi uğrunda canının fəda verən 33 türk şəhidin xatirə abidə ucalacaq, bu şərəfli tarix həm də bədii, sənədli filmlərə köçürüləcək, əbədiləşəcəkdir.[47]



[47] Nərimanoğlu H. Bakı və Şuşanın ilk komendantı albay Cəmil Cahid https://zengezur.com/index.php/m-qal-l-r/153-u-a-zharaba-fatehi-t-rk-dz-mil-dzahid-b-y

## *Türkçülüyün patriarxı – Şuşalı Əhməd bəy Ağaoğlu*



Əhməd bəy Həsən bəy oğlu Ağaoğlu (türkcə Ahmet Ağaoğlu) 1869-cu ilin dekabrında Şuşada doğulub. Ata, ana tərəfi ziyalı bəy nəsillərindən çıxan maarifçi nəsil olub. 1881-ci ildə Şuşada açılan altı siniflik real məktəbdəki müəllimlərindən ikisinin, tarix müəllimi olan Şineyovski və riyaziyyat müəllimi olan Palekarpın ona böyük təsiri olub. Hər iki müəllim çar rejiminə qarşı idi və işlədikləri məktəbdə də inqilabi təbliğat aparırdılar. Ağaoğlu da həyatında ilk dəfə qərb ideologiyası ilə bu məktəbdə tanış olur. Məktəb şəhərin erməni məhəlləsində yerləşirdi, 45 şagirddən yalnız beşi müsəlman uşağı idi. Erməni şagirdlərin bu azlığa qarşı münasibəti çox aqressiv olmuş, müsəlmanları daim incitmişlər. Bu mühitə dözməyən şagirdlərin dördü məktəbi tərk etmiş, yalnız Əhməd təhsilini uğurla başa vura bilmişdir. O, ərəb, fars, rus dillərini öyrənir. Şuşada VI sinfi bitirən Əhməd VII və sonuncu sinifləri Tiflisdəki 1 nömrəli gimnaziyada oxuyur. Özünün yazdığına görə, Tiflis gimnaziyasında ancaq bir nəfər türk var idi ki, o da Əhməd bəy Ağaoğlu

idi. Tiflisdə təhsil aldığı dövrdə dostlarının təkidi ilə "Narodnik" cəmiyyətinin gizli toplantılarında iştirak edir. Bu toplantılar Ağaoğlunun düşüncəsində dərin izlər buraxır. Tiflisdə gimnaziyanı müvəffəqiyyətlə bitirdikdən sonra Əhməd bəy Ağaoğlu fərqlənmə diplomu və üç yüz rubl mükafatla Şuşaya qayıdır. Bütün yayı dayısı ilə birlikdə yaylaqda keçirdikdən sonra 1887-ci ilin avqustunda ali təhsil almaq üçün Peterburqa gedir, bir xristian ailəsinin evində kirayəşin olur. Həmin ailə Ağaoğlunun türk olduğunu biləndə çox təəccüblənir. Çünki o günədək ali təhsil üçün Peterburqa erməni və xristian əsilli digər xalqların gəncləri gəlirdi. Peterburqda tanış olduğu qafqazlı gənclər Ağaoğlunu Qafqazlı Tələbələr Birliyinin yataqxanasına aparırlar. O, burada dörd nəfər türkün olduğunu öyrənir. Bunlar Əlimərdan Topçubaşov, Əli bəy Hüseynzadə və yol mühəndisliyi ixtisası üzrə təhsil alan 2 tələbə idi. Ağaoğlu Texnoloji İnstitutunun bütün imtahanlarını uğurla verir. Ancaq tez-tez müsəlman türk olduğuna və intellektinə, düşüncəsinə görə gözümçıxdıya salınır. Çar Rusiyasının qeyri-rus xalqlara qarşı şovinist siyasətini aydın görən Ağaoğlu yazır: “Hiddətim o dərəcə idi ki, bütün Rusiyanı bir qaşıq suda boğmağa hazır idim. Çardan tutmuş nihilistinə, universitetindən professoruna, mətbuatından ədəbiyyatına, dilindən elminə qədər rus adı, rus qoxusu daşıyan hər kəsə, hər şeyə qarşı dərin bir nifrət, bir qeyz, ədavət bəsləyirdim. Xeyr, xeyr, mən burada qala bilmərəm. Mən Peterburqda yaşaya bilmərəm. Mütləq getməliyəm. Fəqət hara, necə? 19 yaşım ancaq

olardı. Ah, o yaşın verdiyi yüksək cəsarət, hərarət, laqeydlik və təşəbbüskarlıq! Bir səs içimdən "Paris, Paris!" deyə hayqırdı. Bəli, Parisə gedəcəyəm. Orada oxuyacağam, oranın universitetini bitirəcəyəm və ruslardan yandırıcı bir qisas alacağam, həm də izzəti-nəfsimi yüksək dərəcədə təmin etmiş olacağam."

Fransada təhsil aldıqdan sonra 1894-cü ildə Tiflisə gəlir. İki il burada yerli gimnaziyaların birində fransız dilindən dərs deyir, "Kavkaz" qəzeti ilə də əməkdaşlığını davam etdirir. 1896-cı ildə isə Şuşaya geri dönür. Şuşada Şuşa real məktəbində fransız dilində dərs deməyə başlayır. Burada o ilk kitabxana, qiraətxana açır. Məhz buna görə Şuşada el arasında ona Firəng Əhməd ləqəbi verilir. 1897-ci ildə H.Z.Tağıyevin dəvəti ilə Bakıya gəlib, "Kaspi" qəzetində məqalələr yazıb, Ə.Hüseynzadə ilə birlikdə "Həyat" qəzetində redaktorluq edib. 1905-ci ildə çar hökumətinə və daşnak ermənilərə qarşı mübarizə aparmaq üçün gizlin "Difai" təşkilatını qurub, Şuşa, Qarabağ, Gəncə bölgəsində erməni-rus qırğını törədən terrorçulara qarşı gizli  və layiqli cavab verilməsinin təşkilatçılarından olub. Bakı şəhər dumasının üzvü seçilib, şəhərin bir çox problemlərinin həllinə nail olub. 1905-ci ilin 16 aprel tarixində Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseyinzadə və Əlimərdan bəy Topçubaşovun imzası ilə Qafqaz canişininə məktub göndərilir. Məktubda onlar Azərbaycan dilində "Həyat" qəzetinin çap olunmasına icazə istəyirdilər. 22 aprel tarixində onların istəyinə müsbət cavab verilir. 7 iyun 1905-ci ildə Hacı Zeynalabdin Tağıyevin dəstəyi ilə "Həyat" qəzetinin ilk sayı işıq üzü gördü.

Sonra İsa bəy Aşurbəyovun maliyyə dəstəyi ilə gündəlik "İrşad" qəzetini təsis edir, 1905-ci ildən 1908-ci ilə qədər bu qəzetə rəhbərlik edir. Tezliklə qəzetin tirajı 3 minə çatır, eyni dövrdə çap olunan digər qəzetlərə nisbətən cəmiyyətin problemlərini daha radikal formada işıqlandırır. Bir müddət sonra çar hökuməti tərəfindən təqib olunan Əhməd bəy aylarla dostlarının evində gizlin yaşadıqdan sonra 1908-ci ilin sonlarında İstanbula köçməli olur. Türk Ocağı milli hərəkatının aparıcı siması olan Ağaoğlu bu hərəkat tərəfindən keçirilmiş konqresə prezident seçilir. Sonradan gənc türklərin İttihad və Tərəqqi Partiyasına daxil olur. Süleymaniyyədə kitabxana direktoru, "Türk yurdu" jurnalının redaktoru olmaqla yanaşı, İstanbul Universitetində Türk-monqol tarixindən və rus dilindən dərs deyir. İstanbula köçdükdən sonra jurnalistika fəaliyyətini də davam etdirir və 1909-cu ildən "Kaspi" qəzetində "Türkiyədən məktublar", "Türkiyədə milli sual" mövzularında silsilə məqalələri çap olunur. Bundan başqa İstanbul qəzet və jurnallarında da məqalələr yazır, İran təbəələri üçün farsca çap olunan "Süruş" və fransızca çap olunan "Le Jeune Turc" qəzetləri ilə də əməkdaşlıq edir. 1912-ci ildə Əhməd bəy Ağaoğlu yazdığı məqalələrə görə iki dəfə həbs olunur və tezliklə də azad edilir.

Əhməd bəy 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin köməyinə gəlmiş Qafqaz İslam Ordusu komandanının siyasi müşaviri olur. 26 dekabr 1918-ci ildə Zəngəzur qəzasından bitərəf nümayəndə olaraq Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü seçilir. Daha sonra üzvlükdən imtina edir. Cümhuriyyətin Paris Sülh Konfransında

iştirak etmək üçün göndərdiyi nümayəndə heyətinin tərkibində Ağaoğlu da var idi. Lakin İstanbula çatanda İttihad və Tərəqqi Partiyasının digər rəhbərlərilə birgə ingilislər tərəfindən həbs olunaraq Malta adasına sürgün olunur. Sürgündən qayıtdıqdan sonra Ankaradakı Mətbuat İnformasiya İdarəsinə,  Anadolu Agentliyinə rəhbərlik edir, "Hakimiyyəti-milliyyə" və digər qəzetlərin baş redaktoru olur, ikinci və üçüncü çağırış Türkiyə Böyük Millət Məclisinə deputat seçilir, Mustafa Kamal Atatürkün xarici məsələlər üzrə siyasi məsləhətçisi, Kamalçıların ən mühüm ideoloqlarından olur.

Ağaoğlu ilhaqçı olaraq Azərbaycanın Osmanlı dövlətinə birləşdirilməsinin qatı tərəfdarı idi, coğrafi, mədəni, dil və etnik cəhətdən bu qədər yaxın olan Azərbaycan və Anadolu türklərinin iki fərqli dövlətdə təmsil olunmasını bölücülük kimi qəbul edirdi. Əhməd bəy sarsılmaz, əqidəli türkçü idi və bu düşüncədən sonadək dönməyib. Nəriman Nərimanov məktubla Əhməd bəyi Bakıya, başçılıq etdiyi şura hökumətində mühüm vəzifələrdən birini tutmağa çağırıb. Əhməd bəy 1921-ci ilin iyunun 5-də cavab məktubunda yazır:

"Əziz və möhtərəm Nəriman bəyəfəndi! Köhnə bir dost üçün göstərdiyiniz böyük ehtirama qarşı çox minnətdar və mütəşəkkirəm. Fəqət üç türlü düşüncə mənə bu ehtiramdan yararlanmağa mane olur.

1. Təmsil etdiyiniz fikir sisteminə qatılmamaqdayam.

2. Türklər üçün qurtuluş imkanının təkcə Osmanlı türklüyündə olduğu haqda sizə də məlum olan fikir və qənaətimdə qalmaqdayam.

3. Məni əsarətdən qurtararaq yenidən can və varlıq vermiş Ankaraya getməyin mənim üçün bir namus borcu olduğunu düşünməkdəyəm.

Bu üç düşüncə məni doğulduğum yer olan Azərbaycana gəlməkdən və təklif olunan yüksək məqamı qəbul etməkdən daşındırır. Sizin kimi hər şeydən əvvəl açıqlıq və doğruluğa qiymət verən bir şəxsin məni məzur görəcəyindən şübhə etmirəm. Türklük bölünmə qəbul etməyən bir tamdır. Məqsəd ona xidmətdir. Bu xidmət harada edilirsə müqəddəsdir, mübarəkdir!"

Ə.Ağaoğlu Məhəmməd Əmin Rəsulzadənin İstanbulda nəşr etdirdiyi "Yeni Kafkasya" jurnalının çap olunmasına, Ceyhun Hacıbəyli üçün iş tapmağa kömək edir. Ağaoğlunun yardımı ilə siyasi mühacirlər M. Ə. Rəsulzadə, Xosrov bəy Sultanov və Əbdüləli bəy Əmircanov üçün aylıq 75 lirə pulun ayrılmasına nail olur. Əhməd bəy yüksək nüfuz qazandığı Türkiyədə yeni hökumətin getdikcə güclənən avtoritorizm siyasəti ilə heç cür barışmaq istəmirdi, məhz buna görə də 1926-cı ildə hakimiyyətdə olan Cümhuriyyət Xalq Firqəsini sərt tənqid edən hesabat məktubunu Atatürkə yollayır. Əhməd bəy partiyanın nüfuzdan düşməsinə, hakimiyyət funksionerlərinin vəzifələrindən sui istifadə etmələrinə səbəb kimi ölkədə tək partiyalı idarəetmənin olduğunu göstərir. Və ölkədə demokratik proseslərin gələcək inkişafı üçün çoxpartiyalı sistemə keçməyin vacibliyini vurğulayır,

Əhməd bəy hakim partiyadan olan millət vəkillərinin vəkilliklə bərabər iqtisadiyyatın fərqli sahələrində olan dövlət qurumlarına rəhbərlik etmələrinə də qarşı idi. Atatürk yeni yaradılan müxalif partiyanın - sərbəst firqənin proqram və nizamnaməsini Əhməd bəyin yazdığını bilir. Atatürklə aralarında zaman-zaman fikir ziddiyyətləri yaranır, çox şeyin Əhməd bəyin düşüncəsində olmadığına görə, Atatürklə münasibətində ciddi ayrılıqlar yaranır, Əhməd bəyin müxalifətə keçməsi Atatürk və Hökumət tərəfindən bağışlanmır. Əhməd bəy Ağaoğlu və onun "Akın" qəzeti hökumətə tabe mətbuat və dövlət strukturları tərəfindən hücumlara məruz qalır, məhkəməyə də verilir. Təbliğ etdiyi dəyərlər ölkədəki mövcud təkpartiyalı sitemə zidd olduğu üçün bu qəzet təzyiqlərə məruz qalır, Əhməd bəy 1932-ci ildə Ankaradan İstanbula köçür.

Ə.Ağaoğlunun qurucusu olduğu "Difai" qisasçı gizli təşkilatı Şuşadan başlamış bütün Qafqazda erməni daşnaklarının canına vəlvələ salmışdı, inqilabi fəaliyyəti işğalçı çarizmin qorxulu röyasına çevrilmişdi, Türkiyədə isə Atatürk kimi xalqın sevdiyi bir liderin idarəetmə sisteminə qarşı açıq müxalif mövqedə dayanması, qorxu bilmədən tutarlı dəlillərlə tənqid etməsi hər dəfə bomba effekti yaradırdı. Böyük mütəfəkkir Əhməd bəy qəzetində Atatürkə məktub ünvanlayaraq xalqın etiraz səsini ucaltmamalarını onların hökumətin apardığı yanlış siyasətlə barışmaları kimi başa düşülməsinin yanlış olduğunu onun diqqətinə çatdırırdı: “Susmaq daim hər şeyi qəbul etmək və razılaşmaq məna-

sında anlaşıla bilməz. Xüsusən də Şərq mühiti kimi hissiyatlı, hər şeyi içində çəkən və gözlənilməz hərəkətlərə meyilli olan bir camaatdan bunun əksini gözləmək lazımdır." – deyə xəbərdarlıq edirdi.

M.K.Atatürk Əhməd bəy Ağaoğlunu İstanbul Dolmabaxça sarayına dəvət edir, qəzetində yazılan tənqidi yazılarla bağlı narazılığını bildirir, ona həm dövlətin universitetində professor, həm də qəzetdə redaktor olmasının mümkünsüzlüyünü deyərək qəzetin çapını dayandırmasını istəyir. Ağaoğlu isə qətiyyətlə ona cavab verir ki, heç vaxt qəzetin çapını könüllü olaraq dayandırmayacaq. Atatürk bu cavaba əsəbiləşərək ona sıxıntı olmasını istəmədiyi deyir. Cavabında isə Ağaoğlu: - Bu birinci dəfə deyil ki mən öz ünvanıma bu sözləri eşidirəm. Ancaq bu gecə bu sözləri təkrarlamaqla siz 60 milyonluq türkün qəlbinə qılınc sapladınız". Bu hadisədən sonra "Akın" qəzeti 1933-cü ilin sentyabr ayında hökumət tərəfindən bağlanır. Qəzetin 24 sentyabrda çap olunmuş son sayında hökumət qəzeti olan "Hakimiyyet-i Milliye" sərt tənqid edilmişdi. Bundan başqa Əhməd bəy universitet islahatları adı ilə professorluqdan məhrum edilib təqaüdə göndərilir. Bu isə həmişə fəaliyyətdə olan bir insan üçün faciə idi. Ömrünün son günlərində yataq xəstəsi olan Əhməd bəy Ağaoğlu dünyasını dəyişməzdən əvvəl başına toplanan övladlarına və ağlayan qızı Tezerə bunları deyir: "Heç bir zaman doğrunu söyləməkdən çəkinməyin, doğruya doğru, əyriyə əyri deyin".

Onlarla kitabın, məqalənin müəllifi olan Əhməd bəy Ağaoğlu Əli bəy Hüseynzadə, Ziya Göyalp, İsmayıl bəy

Qaspıralı, Məhəmməd Əmin Rəsulzadə və b.ilə birlikdə Turançılığın, Türkçülüyün ideoloji, elmi-nəzəri, praktiki əsaslarını hazırlayanlardan olub. Ağaoğlu 19 may 1939-cu ildə İstanbulda dünyasını dəyişib, izdihamlı insan axın ilə Feriköy məzarlığında həyat yoldaşının yanında dəfn olunub. Bütün Türkiyə qəzetləri Əhməd bəy Ağaoğlunun dəfnindən reportajlar, xatirələr, həyatından müxtəlif detallar çap etdirmişlər.

Əhməd bəy Ağaoğlunun Həsən bəy Zərdabinin dəfnində cənazəsi başında söylədiyi nitqindən bu sətirləri illərdir 22 iyul-Azərbaycanda Milli Mətbuat Günü feysbuk səhifəmdə paylaşıram: "Ey müqəddəs ruh, Sən ki, gedirsən o dünyaya, əvvəla, bizdən babalarımıza salam deyərsən. Sonra da tutub babalarımızın yaxasından soruşarsan ki, ay kişilər, bu nə Vətəndir bizə qoyub getmisiniz? Vəzifəlisi oğru, məmuru rüşvətxor, bir-iki ziyalısı var, onlar da bir-biri ilə didişirlər. Eyvah, nə bu irs olaydı, nə də biz!"

Böyük vətənsevərin ailəsi barədə. Əhməd bəy Ağaoğlu Peterburqda birlikdə təhsil aldığı Fərrux bəy Vəzirovun əmisi qızı, məşhur Vəzirovlar nəslindən olan Sitarə xanımla 1902-ci ildə ailə qurub, ilk övladları olan Sürəyya Ağaoğlu 1903-cü ildə Şuşada dünyaya gəlib. 1918-ci ildə Nuru Paşanın müşaviri kimi Azərbaycana gəldiyi vaxt İstanbulda yenicə tikdirib köçdükləri ev yanıb, külə dönüb. Maltada sürgündə olarkən Sitarə xanım Əhməd bəyə ünvanladığı məktublarında da yaşadığı çətinlikləri ona hiss etdirməyib. Övladlarını böyütmək üçün evdə nə varsa satıb onlara xərc-

ləyib, lakin bu çətinliklərin heç birini Əhməd bəyə bildirməyib. Sitarə xanım 1933-cü ildə 52 yaşında vəfat edib. Əhməd bəy və Sitarə xanımın 7 övladı olub. Vəzir və Bəşir kiçik yaşlarında vəfat edib, qalan 5 nəfərdən – Sürəyya, Tezər (Təzəxanım), Əbdürrəhman, Səməd və Gültəkin ali təhsil alaraq Türkiyənin ictimai-siyasi həyatında mühüm rol oynamışlar. Sürəyya Ağaoğlu Şərqin, türk dünyasının ilk qadın vəkili, hüquqşünası olub, Türkiyənin siyasi həyatında fəal iştirak edib, Yeni Türkiyə Partiyasının qurucularından olaraq partiyanın İstanbul təşkilatına, bir neçə dərnəyə rəhbərlik edib. Beynəlxalq Hüquqçular Birliyinin, Hüquqçu Qadınlar Federasiyasının başçılarından olub. Təzəxanım Ankara Qız Liseyinin və İstanbul Qız Müəllimlər Məktəbinin müdiri vəzifələrində çalışıb, Türkiyə Böyük Millət Məclisinə deputat seçilib, yüzlərlə məqalənin və 12 kitabın müəllifidir. Kiçik oğlu Səməd Ağaoğlu 1950–1960-cı illərdə TBMM-in deputatı olub və Demokrat partiyası qalib gəldikdən sonra baş nazir Adnan Mendersin hökumətində baş nazirin müavini, əmək naziri, sənaye naziri kimi mühüm vəzifələrdə çalışıb. 27 may 1960-cı il çevrilşindən sonra Menderes və hökumətin digər üzvləri kimi Səməd Ağaoğlu da həbs edilərək ömürlük həbs cəzasına məhkum edilib. Lakin 1964-cü ildə əfvi-ümumiyə düşərək həbsdən azad edilib. 1967-ci ildə o, ata yurdu Azərbaycana gəlib, geri döndükdə isə gördükləri əsasında Sovet Rusiya İmperiyasına dair kitab yazıb. "Strasburq xatirələri", "Hürriyyət", "Öyrətmən Qafur", "Böyük ailə", "Hücrədəki adam", "Qatırın ölümü", "Tanış izlər", "Dostum Menderes" kimi kitabları

da geniş yayılıb. Əhməd bəyin digər övladları da Türkiyənin tanınmış, nüfuzlu mütəxəssisləri olub. Süreyya xanımın 1940-cı ildə Ankarada nəşr edilən "Türkçülüyün patriarxı Əhməd bəy Ağaoğlu" Atamdan xatirələr kitabında Ağaoğlunun və övladlarının Şuşa, Qarabağ, Azərbaycan sevgisi, vüqarlı, qürurlu ömür yaşaması, sağlam əqidə sahibi olmaları təsirli detallarla əks olunub.

Azərbaycan və Türkiyənin dövlət, ictimai xadimi, siyasətçisi, jurnalisti, pedaqoqu, yazıçısı, türkoloqu və liberal Kamalizmin banisi Əhməd bəy Ağaoğlu haqqında yazılan onlarla kitab, məqalədə onun bu titulu qeyd-şərtsiz təsdiq və qəbul olunub: Türkçülüyün patriarxı!



## *Şuşa - maarif, mədəniyyət beşiyidir*

Təkzibedilməz tarixi gerçəklik bundan ibarətdir ki, Şuşa ilk zamanlardan tək Qarabağın deyil, həm də Azərbaycanın, Qafqazın təhsil, musiqi, ədəbiyyat, incəsənət mərkəzlərindən birinə çevrilib. Şübhə yoxdur ki, bu həm də şəhərin təmiz havası, saf təbiəti, büllur kimi suları ilə bağlıdır.

1830-cu ildə Şuşa qəza məktəbi, 1874-cü ildə isə Şuşa şəhər məktəbi açılmışdı. Bu, Azərbaycanda və Cənubi Qafqazda ilk şəhər məktəblərindən biri idi. Üçsinifli, 1878-ci ildən isə dörd sinifli Şuşa qəza məktəbində türk-ana dili, tarix, rus və fransız dilinin tədrisi üstünlük təşkil edirdi. Təsis edildiyi ilk illərdə Şuşa şəhər məktəbində 375 nəfər şagird təhsil alırdı. Bu, çar Rusiyası ərazisində dövrünün ən çox şagird kontingenti olan yeni tipli məktəblərdən idi. Şuşa şəhər məktəbində 1875-ci il mayın 6-dan şagirdlər dövlət hesabına pansionda yaşayıb təhsil alırdılar. Şəhər məktəblərinin nəzdində kitabxanalar təşkil edilmişdi. Şagird kitabxanasının zənginliyi ilə fərqlənən Şuşa məktəbi tədris vəsaiti və fənn kabinetləri ilə çox yaxşı təchiz olunmuşdu. 1880-ci ildə Şuşa şəhər məktəbinin nəzdində xüsusi musiqi sinifləri açıldı. Bu siniflərin peşəkar hazırlığı olan musiqiçilər nəslinin yetişməsində rolu, əhəmiyyətli misilsiz idi. Elə həmin il məktəbin tədris planında ipəkçilik peşəsi (yəni müasir texniki peşə məktəblərində olduğu kimi) də yer aldı. Həm təhsilə, həm də peşə öyrədilməsinə ehtiyacı təmin et-

mək vacib sayılırdı. Buna görə də Şuşa şəhər təhsil ocağının nəzdində bazar günü məktəbləri təşkil edilmişdi. Şuşa şəhər məktəbi təhsilin keyfiyyətinə görə məşhur idi. Ona görə Peterburq, Tiflisdən gələn məmurlar, hörmətli qonaqlar  çox zaman buraya gəlirdi. Şəhər əhalisinin təkidi ilə 1881-ci il sentyabrın 20-də Şuşada 6 sinifli real məktəbin əsası qoyuldu. Bu təhsil ocağı eyni vaxtda açılan Bakı, Tiflis, Gəncə real məktəblərindən daha nümunəvi idi.

Tarixi reallığa hörmətin ifadəsi olaraq, Azərbaycan Prezidenti 20 may 2022-ci ildə Şuşa Real Məktəbinin binasının layihələndirilməsi və bərpası məqsədilə sərəncam imzalayıb. [48]

Çar Rusiyasının müstəmləkəçilik – sömürgəçi siyasətində fərqli bir xətt də olub; işğal edib imperiya içinə qatdığı torpaqlarda zamanın tələbinə uyğun idarəçilik sisteminin qurulması, elmin, maarifin inkişafı, yeni texnologiyaların tətbiqi, yerli əhali içərisindən imperiyaya bağlı, dil, yazı qabiliyyətinə malik savadlı sadiq məmurlar təbəqəsi yaradılması. Məhz bu amil həm də imperiyanın dağılmasına, yerlərdə milli özünüdərkin, milli  mənlik, müstəqillik düşüncələrinin yaranıb  böyüməsinə, mədəniyyətin tərəqqisinə də şərait yaratmışdır. Yəni bu prosesin əvvəlindən iki fərqli nəticəyə alınıb; bir tərəfdə çarizmə, bolşevizmə, sovet-KQB rejiminə sadiq, hətta, dinini dəyişib, dilini, milli kimliyini unudan kadrlar yetişib, digər tərəfdə vətəninə, xalqına

---

[48] https://president.az/az/articles/view/56098

bağlı, onun tərəqqisi naminə çalışan, yazıb yaradan maarifçi aydınlar nəsli yetişib. Xalqımız bu günkü müstəqil dövlətə malik olduğuna görə ağır iztirablar yaşayan, hər cür cəfalara dözərək milli ideallar uğrunda çarpışan bu nurlu insanlara borcldur.

Mövzuya qayıdaq. Azərbaycanda ilk dəfə olaraq Şuşada teatr binası tikilmiş, 1848-ci ildə teatr tamaşası göstərilmişdi.

1850-ci illərdən fəaliyyətə başlayan ədəbi-musiqili məclislər – "Nəvvabın məclisi", "Muğam məktəbi", "Məclisi-fəramuşan", "Məclisi-üns"də toplaşan Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab, Mirzə Rəhim Fəna, Mirzə Ələsgər Növrəs, Mirzə Həsən Yüzbaşov-Qarabaği, Məmo bəy Məmai, M. S. Piran Həsənəli xan Qaradaği, Fatma xanım Kəminə, Hacı Abbas Agah, Abdulla bəy Asi, Məşədi Əyyub Baki, Baxış bəy Səbur və başqa şairlər, eləcə də Xarrat Qulu, Kor Xəlifə, Hacı Hüsü, Məşədi İsi, Dəli İsmayıl, Şahnaz Abbas, Əbdülbağı Zülalov (Bülbülcan), Keştazlı Həşim, Keçəçi oğlu Məhəmməd, Cabbar Qaryağdıoğlu, Sadıqcan həmin məktəblərin daimi qonaqları idilər. Şuşada heç zaman bəzi digər bölgələrimizdə olduğu kimi, ifrat dindarlıq, dini fanatizm olmayıb, Şuşa camaatı gözüaçıq, elmə, maarifə, dünyəviliyə bağlı olub. Hətta, şəhərin ən mötəbər din xadimləri də, Molla İbrahim və digərləri dini yox, daha çox dünyəvi təhsil məktəblərinə yardım edirdi. 1905, 1918-20-ci illərdə ermənilər şəhəri yandırıb dağıdarkən ilk bərpa, təmir olunub əvvəlki həyatına qaytarılan dini abidələr yox, Şuşa məktəbləri olub. 1848-ci ildən başlayaraq mütərəqqi

rus, gürcü teatrlarının təsiri ilə Şuşa ziyalıları teatr tamaşaları hazırlayıb nümayiş etdirib. 1897-ci ilin fevralında Mir Möhsün Nəvvab Şuşada ilk şəhər kitabxanası yaratmışdı. O, həmin ilk kitabxana-qiraətxananı ümumşəhər savadlanma mərkəzinə çevirmişdi. İşğala qədər Molla Pənah Vaqifin məqbərəsinin yaxınlığında Mir Möhsün Nəvvab Qarabağının qəbirüstü abidəsi vardı. 1960-cı ildə bu böyük maarifçinin qəbri üzərində qırmızı mərmərdən abidə-barelyef qoyulmuşdu - müəllifləri heykəltəraş Tokay Məmmədov və memar Rasim Əbdürrəhmanov idi. Nəvvabın oğlu Mir İbrahim Ağamirzadə qəbir daşı üzərində maddeyi-tarix yazdırmışdı: "Böyük Nəvvaba, heyiflər olsun! Öz dövrünün arif, kamil şəxsiyyəti olmuşdur. Seyidin nəsli, peyğəmbərin pak övladı bir çox kitablar yazmışdır ki, cahanda yadigar qalsın. Allah ona rəhmət eləsin hər vaxt gecə-gündüz. Nəvvab 1919-cu il rəbiiləvvəl ayının 29-da vəfat etmişdir".

Anadan olmasının 200 illiyi ilə əlaqədar olaraq 1984-cü ildə Şuşada Mirzə Həsən qəbiristanlığında kiçik bir təpə üstündə Qasım bəy Zakirin qəbirüstü abidəsi ucaldıldı. Burada Cavanşir nəslinə mənsub olan insanlar dəfn edilmişdi.[49]

Qənbər Rəhim oğlu Qarabaği 1830-cu ildə Şuşa şəhərində anadan olmuşdur. O, memar, nəqqaş kimi Yaxın Şərqdə tanınmışdı. Usta Qənbər 1905-ci ildə vəfat edib. İkinci oğlu Usta Şükür atasının sənətini davam etdirmişdi.

---

[49] https://azertag.az/xeber/1753581



Pənahəli xan (1693-1763) · İbrahimxəlil xan (1732-1806) · Molla Pənah Vaqif (1717-1797)

Qasım bəy Zakir (1784-1857) · Xurşidbanu Natəvan (1832-1897) · Mir Möhsün Nəvvab (1833-1918)

Usta Qənbər Şuşada və Şəkidə bir sıra yaşayış evlərinin daxilini bəzəyən müxtəlif dekarativ panno və kompozisiyaların müəllifidir. Şuşada Mehmandarovun evindəki ornamentli və süjetli pannolar Usta Qənbər Qarabağinin ilk əsərlərindən, Rüstəmovun evindəki divar rəsmləri isə son işlərindən hesab edilir. Şəki xanlarının sarayında çəkdiyi divar və tavan rəsmləri bədii-estetik dəyərinə görə Usta Qənbər Qarabağinin ən kamil əsərləridir. 19-cu əsrin sonunda sarayın bədii bərpası zamanı çəkdiyi bu rəsmlər məzmun və kompozisiya müxtəlifliyi, gül və çiçək, quş və heyvan təsvirlərinin realistliyi ilə seçilir. Rəssamın əsərlərində

miniatür boyakarlığından gələn ənənəvi şərti dekarativ üslubla yeni ralistik təsvir üzvü əlaqələndirilmişdir. Onun şagirdlərindən oğlu Şükür, Qurbanəli, Əliqulu, Səfər və başqa rəssamlar Azərbaycan monumental-dekarativ boyakarlığının inkişafında əhəmiyyətli rol oynamışdır.[50]

Şuşa şəhərində yerləşən Mehmandarovların malikanə kompleksinə böyük yaşayış evi, kiçik yaşayış evi və məscid daxildir, sonralar məscidə gedən yolun üstündə bulaq da tikilib. Şuşa xanəndələrini 1912-ci ildə Polşanın Varşava şəhərinə və digər Avropa ölkələrinə dəvət etmişdilər.

1830-cu ildə isə Şuşada ilk mətbəə fəaliyyətə başlamış, bu daş mətbəəsində Şuşa şairlərinin şeirləri çap edilmişdi. 1894-cü ilin yay aylarında xeyriyyə məqsədilə bir-birinin ardınca üç əsərin - "Hacı Qara", "Müsyo Jordan və dərviş Məstəli şah", "Xırs quldurbasan" tamaşasını oynayan Şuşanın gənc müəllimləri - həvəskar artistləri 1895-ci ildə yerli müəllimlərdən olan Haşım bəy Vəzirovun "Evlənmək su içmək deyil" adlı pyesinin, 1896-cı ildə Şuşada Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" faciəsinin ilk tamaşasını göstərmiş, əldə etdikləri 500 manat pulu son qəpiyinəcən bu məktəblərə vermişdilər. 1904-cü il avqust ayının 22-də Şuşada göstərilən "Otello" tamaşası daha böyük müvəffəqiyyət qazanmışdı. Tamaşanın sorağı Azərbaycandan kənarda da əks-sədaya səbəb olmuşdu. Səhnə quruluşunu isə əsərin mütərcimi və baş rolun ifaçısı Haşım bəy Vəzirov hazırlamışdı. XIX əsrin sonu və XX əsrin əvvəllərində Şuşa Qafqazın musiqi mərkəzinə, "Kiçik Paris", "Qafqazın sənət

---

50 https://az.wikipedia.org/wiki/Qənbər_Qarabaği

məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Zaqafqaziyanın konservatoriyası"na çevrilmişdi. Hər tərəfli inkişafda olan bu şəhərdə pedaqoji kursun, ardınca Şuşa Pedaqoji Texnikumunun açılıb fəaliyyət göstərməsi (bu kursları 1, 2 ilə bitirənlər şura hökumətinin gəlişindən sonra Qarabağ, Gəncə bölgəsində savadsızlığın ləğvində, yeni cəmiyyət quruculuğunda müstəsna rol oynayıb), 1930-cu ildə Şuşada ilk musiqi, mədəni-maarif texnikumunun, uşaq musiqi məktəbinin açılması, 1989-1991-ci illərdə Cıdır düzündə "Xarıbülbül" mahnı festivalı keçirilməsi bu ənənənin davamı olub.

Şuşa məktəblərinin istedadlı, zəkalı ədib, alim, musiqiçi, digər elm, sənət, peşə adamlarının, müəllim və məzunlarının adlarını xatırlayaq; Mirzə Salah bəy Zöhrabbəyov, Yusif bəy Məlikhaqnəzərov, Haşım bəy Vəzirov, İsmayıl bəy Şəfibəyov, Əbdüləli bəy Muxtarov, Həsən bəy Bağırbəyov, Muxtar bəy Muradov, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Cabbar bəy Vəlibəyov, Qara bəy Əliverdilər, Rüstəm bəy Axundov, Hüsü Hacıyev, Süleyman Rəhimov, Xan Şuşinski...Şuşa maarif, ədəbiyyat, incəsənət, musiqi mühiti, məktəbi Azərbaycana çox sayda əvəzsiz simalar bəxş edib: Qasım bəy Zakir, Firidun bəy Köçərli, Məhəmməd bəy Aşiq, Mirzə Məmmədqulu Təbib, Cabbar Qaryağdıoğlu, Bəhram bəy Axundov, Ağa xan Qarabaği, Əhməd bəy Ağaoğlu, Məcid Behbudov, Süleyman Sani Axundov, İslam Abdullayev, Fərhad Ağazadə, Qəmər bəyim Şeyda, Zülfüqar Hacıbəyli, Əhməd Ağdamski, Nəriman bəy Nərimanbəyli, Ceyhun Hacıbəyli, Xəlil İbrahim, Əli Zülalov, Dadaş Həsənov, Lətif Kərimov, Şəmsi Bədəlbəyli, Barat Şəkinskaya, Cəlal Qaryağdı, Zakir Bağırov, Mehdi

Məmmədov, Soltan Hacıbəyov, Sürəyya Ağaoğlu, Eldar Əzimzadə, Lətif Səfərov, Süleyman Ələsgərov, Münəvvər Rzayeva, İskəndər Əliyev, Azad Əmirov, Məşədi Cəmil Əmirov, Teymur bəy Aslanov, Xəlil Məmmədov, Ramiz Qəmbərov, Sürəyya xanım Qacar, Azad bəy Vəzirov...

Tarix həqiqəti sevir, yamaq, yalan, yarımçıqlıq götürmür. Bizim necə görmək, eşitmək istəyimizdən asılı olmayaraq, bu həqiqəti qəbul etməliyik ki, Şuşada ermənilər də yaşayıblar, ayrıca məhəllə, kilsə, məktəb, xəstəxana, kitabxana, qiraətxana, teatr, dükan, sənətkarlıq emalatxanaları da olub. Özlərinə xas olan bicliklə, məkrlə və müsəlman türk camaatın çatışmazlıqlarından yararlanaraq, Şuşanı özününküləşdirmək yolunda xeyli də irəli getmişdilər, şəhərin idarəsini ələ keçirmişdilər. Bizim öndə gedənlərin, başbilənlərin, pulluların başı namaza, oruca, mərsiyə deyib sünni-şiə söhbəti edəndə, say-seçmələrimizin əksəriyyətinin başı şeirə, musiqiyə, bulaq başında, kef məclislərində uzun-uzun muğamat oxuyub dinləməyə başı qarışanda erməni məktəb açıb axçilərinə, dığalarına təhsil verirdi, yerli idarəçiliyi əlinə alırdı, silah tədarükü görüb gizli dəstələr, millət fondları yaradırdı. Şuşalı Əhməd bəy Ağaoğlunun, Yusif Vəzir Çəmənzəminlinin, Mir Möhsün Nəvvabın Şuşada keçən həyat, ömür hekayələrini, yazdıqlarını oxumaq dəhşətdir, millət olaraq iki yüz ildir yaşadığımız faciələrin, itirdiklərimizin kökü, mənbəyi aydın görünür – təhsildən, maarifdən, elmdən uzaq qalmaq.

1881-ci ildə Şuşada açılan altı siniflik ilk real məktəb şəhərin erməni məhəlləsində yerləşmişdi, birinci il məktəbə qə-

bul olunan 45 şagirddən yalnız beşi müsəlman uşağı idi. Onların da 4-ü burada türk balalara qarşı dözülməz münasibətdən baş götürüb qaçmışdı, böyüklərdən heç kəs bu qaragüruh qarşısında səsini ucaltmağa cəsarət etməmişdi, yalnız Əhməd Ağaoğlunun məktəbi bitirməyə gücü, iradəsi, dözümü çatmışdı. O, bunu detalları ilə təsvir edib yazırdı ki, bu beş uşağın erməni uşaqlarından çəkdiklərini sözlə tam ifadə etmək imkansızdır. Dəhşət odur ki, Tiflis gimnaziyasında da yeganə türk Əhməd olur, qalanı erməni, gürcü, rus və s. idi. Bakı, Gəncə də elə bu gündə idi. Ancaq fitri istedadlar doğulur, böyüyürdü.

Şuşa Real məktəbində sonralar da 300-dən çox erməni uşağı oxuyanda cəmi 30 müsəlman-türk şagird var idi. Şuşa, Qarabağ-Zəngəzur-Gəncə-Şamaxı-Bakı müsəlmanları bir də ermənilər 1905-1906-cı il qırğınlarına başlayanda ayıldılar ki, hansı məkrli qövmlə birlikdə qonşuluq edib evlərində süfrə başına çıxarıblar. Ancaq tarixin verdiyi dərslərdən ibrət ala bilmədik, hələ də gərəkən dərsi ala bilmirik...

Ancaq "qələbə" qeyd-şərtsiz bizim xeyrimizədir; Şuşada 200 ildə doğulub yaşayan erməni məşhurların çəkiyə gələn ən seçmələrini yığıb tərəzinin bir gözünə qoysan, tək Üzeyirbəyin, İbrahimxanın, Vaqifin, Zakirin, Natəvanın, Cabbarın, Nəvvabın, Xanın, Bülbülün...ağırlığında gəlməz yox e, heç yaxın da getməz. Səbəb: Şuşa torpağı, havası, suyu, daşı, divarı, qayası, özülü, keçmişi, gələcəyi, bütün ruhu ilə təpədən dırnağa türk, müsəlman-azərbaycan torpağı, şəhəri olub.[51]

[51] Nərimanoğlu H, Şuşa əvvəl alınmaz hərbi qalaya, sonra isə maarif, mədəniyyət mərkəzinə çevrilməlidir. https://zengezur.com/index.php/kh-b-rl-r/33-u-a-maarif-m-d-niyy-t-m-rk-zidir

## *Şuşa Azərbaycan musiqisinin məbədidir*

Dünyada bir neçə şəhər var ki, musiqi onun hər daşına, qalasına, ab-havasına hopmuşdur. Məsələn, Avstriyanın Vyana, İtaliyanın Neapol, Azərbaycanın Şuşa şəhəri. Hətta, məşhur kəlam vardır- "Şuşada görpələr beləkdə belə muğam üstündə ağlayır".

Şərq musiqisinin məşhur tədqiqatçısı V.Vinoqradov yazır: "Yaşıl otlaqların büründüyü sıldırım dağ döşündə gözəl mənzərəli Şuşa şəhəri durmuşdur. Onun gözəl təbiət mənzərələri hər il səyyahları özünə cəlb edir. Lakin Şuşadan alınan estetik təəssürat bununla qurtarmır. Burada Azərbaycanın başqa rayonlarına nisbətən musiqiçi daha çoxdur. Şuşa musiqiçiləri Azərbaycan musiqisinin tarixini yaratmış və onu yalnız öz vətənlərində deyil, həm də Şərqin başqa ölkələrində təmsil etmişlər".

"Şuşa – Zaqafqaziyanın konservatoriyasıdır" təbiri, təyini həqiqətdir. Bu konservatoriyanın parlaq nümayəndələri dünyanın bütün qitələrində Azərbaycan musiqisini ləyaqətlə təmsil edərək ona şöhrət gətirmişlər.

Şuşa – Mir Möhsün Nəvvab, Xarrat Qulun, Hacı Hüsü, Sadıqcan, Məşədi İsi, Əbdülbağı Zülalov, Cabbar Qaryağdıoğlu, Keçəçi oğlu Məmməd, Məşədi Məmməd Fərzəliyev, İslam Abdullayev, Seyid Şuşinski, Bülbül, Zülfü Adıgözəlov, Xan Şuşinski, Məşədi Cəmil Əmirov, Qurban Primov, Üzeyir Hacıbəyli, Zülfüqar Hacıbəyli, Fikrət Əmirov,

Niyazi, Əfrasiyab Bədəlbəyli, Soltan Hacıbəyov, Əşrəf Abbasov, Süleyman Ələsgərov, Rəşid Behdudovun vətənidir. Bunların hər biri ayrılıqda bir xalqı tanıtmaq üçün yetərlidir.

XIX əsrin ikinci yarısında Azərbaycanın bir sıra şəhərlərində musiqi məclisləri, cəmiyyətləri, dərnəkləri təşkil olunurdu. Bakıda Məşədi Məlik Mənsurovun, Şamaxıda Mahmud Ağanın, Şuşada isə Xarrat Qulu Məhəmməd oğlunun və Mir Möhsün Nəvvabın musiqi məclislərinin Azərbaycan musiqisinin inkişafında önəmli rolu olmuşdur.

Şuşada birinci musiqi məclisi Şərq musiqisinin bilicisi **Xarrat Qulu** (1823-1883) tərəfindən təşkil edilmişdi. Bu məclis dini məqsədlə yaranmışdı, lakin burada həm də muğam sənəti öyrənilirdi. Məhərrəmlik qurtarandan sonra (onun keçirilməsinə bir neçə ay hazırlaşırdılar) xanəndələr bu muğamları artıq toylarda və başqa yerlərdə ifa edirdilər.

Xarrat Quludan sonra XIX əsrin 80-ci illərdə Şuşada "Məclisi-Fəramuşan" (Unudulmuşların məclisi) və "Musiqiçilər cəmiyyəti" yaranır ki, onların rəhbəri, Azərbaycanın XIX əsrinin mütərəqqi xadimi, alimi, şairi, musiqişünası, rəssamı Mir Möhsün Nəvvab idi.

Şuşa vokal sənətinin ən görkəmli nümayəndələrindən biri Xarrat Qulunun yetişdirməsi **Hacı Hüsü** idi (?-1898). O, şuşalılar qarşısında ilk dəfə "Xandəmirovun teatrı" binasında "Xeyriyyə gecəsi"ndə tarzən Sadıqcanın müşayiətilə çıxış edərək "Çahargah"ı elə oxumuşdu ki, şöhrəti hər yerə yayılmışdı. Hacı Hüsü tək Azərbaycanın toylarına deyil, Yaxın və Orta Şərqin bir sıra şəhərlərinin məclislərinə

dəvət olunurdu. Məsələn, 1880-cı ildə İran şahı Nəsrəddin Hacı Hüsünü öz oğlunun toyuna Təbrizə dəvət etmişdi. Hacı Hüsünü həmin məclisdə müşayiət edən tarzən Sadıqcan və kamançaçı Bağdagül Ata idi. Bu toyda Hacı Hüsü digər məşhur İran musiqiçəliri ilə bərabər çıxış etmişdi. Lakin toyun sonunda şah tərəfindən verilən birinci mükafata məhz Hacı Hüsü layiq görülmüşdü. Hacı Hüsü gözəl xanəndə olmaqla bərabər, həm də Şərq və Azərbaycan muğamlarını əla bilən musiqişünas və müəllim kimi də məşhur idi. O, bir sıra muğamları təkmilləşdirərək, yeni variantlarını yaratmışdır. Məsələn, o, "Kürdi" muğamına "Şahnaz"ı əlavə etmiş və yeni "Kürdi-Şahnaz" muğamını yaradıb oxumuşdur.Cabbar Qaryağdıoğlunun yazdığına görə, Hacı Hüsü Sadıqcanın tarda müşayiətilə "Qatar" muğamının da yaradıcısıdır.

Hacı Hüsü xan qızı Natəvanın sevimli xanəndəsi olmuş, onun məclislərində iştirak etmişdi. Hacı Hüsü şamaxılı Mahmud ağanın və bakılı Məşədi Məlik Mənsurovun məclislərinə tez-tez dəvət olunardı. Deyilənə görə məşhur Qaçaq Nəbi də Hacı Hüsünün səsinə qulaq asmaq üçün gizlincə xüsusi olaraq onun oxuduğu toy məclislərinə gələrmiş.

Hacı Hüsünün həyatının son illəri kədərli olub. O, Ərəbistandan qayıtdıqdan sonra mollaların təzyiqi altında Şuşada Gövhər ağa məscidində minacat deməyə məcbur olmuşdur. Şuşa camaatı ətraf yerlərdən onu dinləmək üçün axışıb məscidə gələrdilər. Bu barədə C.Bağdadbəyov xati-

rələrində belə yazır: "Qış mövsümündə, yüzlərlə adam gəlib bu cazibəli səsə qulaq asardılar. Hacı Hüsünün gur və könüllər oxşayan səsi olmaqla bərabər, zəngulәsinin də misli-bərabəri yox idi". Onun çıxışlarını çox vaxt tarda müşayiət edən böyük tarzən Sadıqcan - Mirzə Sadıq Əsəd oğlu olmuşdu (1846-1902). Mirzə Sadıq İran şahının oğlunun toyunda böyük bacarıq və ustalıq göstərdiyinə görə, şah onu "Şiri-Xurşid" qızıl medalıyla təltif etmişdi.

**Mirzə Sadıqın** musiqimizin tarixində xidmətləri böyük idi. O, çoxəsrli tarı rekonstruksiya edərək təkmilləşdirmiş, beş simli zəif səslənən tara altı sim də əlavə edərək onların sayını on birə qədər artırmışdı. Tarın qolunda olan pərdələrin sayını isə azaldaraq 17-yə endirmişdi. Tarın rezonansını gücləndirmək üçün də Sadıqcan bir sıra işlər görmüşdü. O, tara zildə səslənən yeni pərdələr artırmış, həmçinin "lal barmaq" üslubunu icad etmişdi.

Əvvəllər tarı diz üstə əyilərək çalırdılar. Sadıqcan bu üsulu ləğv edərək, tarı sinə üzərində tutaraq çalmışdı. Mirzə Sadıq yeni Azərbaycan tarının yaradıcısı idi. Onu "tarın atası" adlandırırdılar. Mirzə Sadıq tarla bərabər muğamları da təkmilləşdirmişdi. O, tarın qoluna "Zabul" pərdəsini, "Mirzə Hüseyn Segah"ına isə "Müxalifi" əlavə etmişdi.

Sadıqcan iri əllərə, uzun və güclü barmaqlara sahib idi, deyilənə görə onun tarda işlətdiyi barmaqları, vurduğu mizrabları heç kəs təkrar edə bilməmişdir. Məşədi Zeynal, Məşədi Cəmil Əmirov, Şirin Axundov, Qurban Primov kimi mahir tarzənlər məhz Sadıqcan məktəbinin gözəl davamçılarıdır.

1897-ci ildə Şuşada yazıçı **Əbdürrəhimbəy Haqverdiyevin** rəhbərliyi ilə həvəskar aktyorların ifasında dahi Azərbaycan şairi Füzulinin poeması əsasında "Leyli Məcnunun məzarı üstündə" musiqili səhnəcik göstərildi. Məcnun rolunu məşhur xanəndə **Cabbar Qaryağdıoğlu** (1861-1944) oynayırdı. 1902-ci ildə "Fərhad və Şirin" mövzusunda ikinci belə musiqili tamaşa səhnəyə qoyuldu. Fərhad rolunu yenə də Cabbar Qaryağdıoğlu ifa edirdi. O, həm də bəstəkar kimi məşhur idi. Cabbar Qaryağdıoğlu çoxlu mahnı, təsnif şeirləri yazmışdır. O, "Bakı", "Bəsti", "Tiflisin yolları" və bir çox mahnıların müəllifidir. Onun kimi "Mənsuriyyə", "Heyratı", "Kürdi-Şahnaz" oxuyan yox idi. Səsini məşhur italyan tenoru Enriko Karuzo ilə müqayisə edirlər. Yesenin onu "Şərq musiqisinin peyğəmbəri" adlandırmışdı. Hələ 1906-1912-ci illərdə onun səsi Kiyev, Moskva, Varşavada bir sıra aksioner cəmiyyətlər tərəfindən fonovalikə yazılmışdı. O, musiqili-ədəbi və Şərq konsertlərində çıxış edərək, milli operanın yaranmasında önəmli rol oynadı, onun üçün münbit zəmin yaratdı.

Cabbar Qaryağdıoğlundan sonra Şuşa xanəndəlik məktəbinin ən parlaq nümayəndəsi **Seyid Şuşinski** idi (1889-1965). Cabbar Qaryağdıoğlu onu "Şərq musiqisinin incisi" adlandırmışdı. Seyid Şuşinskinin 1908-ci ildə Şuşanın "Yay klub"unda keçən ilk uğurlu çıxışından sonra Cabbar səhnəyə çıxıb Seyidi bağrına basaraq gözləri yaşarmış halda demişdi: "indi mən ölsəm də, daha qəmim yoxdur, çünki məndən sonra Seyid vardır". Sonrakı çıxışlarının birində

isə Cabbar Seyidin oxumağından riqqətlənərək öz qavalını ona bağışlamışdı.

Nadir və gözəl səsə malik Seyid Şuşinski xanəndəlik sənətinin sirrlərinə yiyələnmək üçün ən əvvəl iki il Nəvvabın yanında oxumuşdu. “Çahargah”ı xüsusilə böyük məharətlə oxuyardı, özü də həmişə onu “Mayə”dən yox, “Mənsuriyyə”dən başlayardı. Hər dəfə zildə böyük ustalıqla zəngulələr vuraraq, sonra “mayə”yə enərdi. Yaşı artıq 74 ili ötmüş Seyid “Mənsuriyyə”ni eyni şövqlə oxuyurdu.

Seyid Şuşinski öz yaradıcılığında Hafiz, Füzuli, Seyid Əzim qəzəllərilə yanaşı, Cavid və Sabirin şeirlərinə də müraciət edirdi. Sabirin “Millət necə tarac olur-olsun, nə işim var” şeirini “Müxalif”də oxuyardı. Seyid Şuşinski siyasi-ictimai mövzuda şeir və qəzəl oxuyan, xalqı mübarizəyə çağıran ilk xanəndə olmuşdur. O, bir sıra mübariz ruhlu mahnılar da oxumuşdur. “Ayıl, ey millət”, “Mən bir türkəm”, “Millət istərsə” və sair.

Seyid Şuşinski Mirzə Cəlil, Əbdürrəhimbəy Haqverdiyev, Hüseyn Cavid, Hüseyn Ərəblinski kimi sənətkarlarla dostluq edirdi. Molla Nəsrəddinin bir neçə nömrəsinin çıxmağına maddi yardım göstərmişdi. Ümumiyyətlə, Seyid Şuşinski böyük mesenat idi, o dövrün teatr aktyorlarına çox kömək etmişdi. Özü də aktyor kimi bir sıra rolları oynamışdı. “Cahargah”dan başqa “Mahur”, “Nəva”, “Məsnəvi”, “Mani”, “Arazbarı”, “Heyratı” kimi muğamların gözəl ifaçısı idi. O, novator sənətkar olaraq, bir çox muğamları birləşdirib onları yeni variantda oxumuşdur (“Rast-Humayun”, “Qatar-Bayatı”, “Şur-Şahnaz”). “Rast”da və “Kürdi-

Şahnaz"da "Dilkəş"i ilk dəfə Seyid Şuşinski ifa etmişdi. Onu da qeyd edək ki, Seyid Şuşinskinin görkəmli bəstəkarımız Fikrət Əmirovun ilk dəfə yaratdığı və dünyada şöhrət qazandığı "Şur" və "Kürd-Ovşarı" simfonik muğamlarının yazılmasında məsləhətçi kimi böyük köməyi olmuşdu. Fikrət Əmirovun atası məşhur tarzən, Şuşa sazəndəlik məktəbinin görkəmli nümayəndəsi, həm də "Seyfül-Mülük" operasının müəllifi Məşədi Cəmil Əmirovdur.

Qarabağdan çıxan muğam ustaları arasında öz məlahətli səsi, xüsusilə pəsdən oxumağıyla seçilən və xalqın ürəyinə yol tapan xanəndələrdən biri də **Zülfüqar Adıgözəlov** idi (1898-1963). 1920-ci illərin axırlarında Şuşa məclislərinin birində Cabbar Qaryağdıoğlu onu eşitmiş, bəyənmiş və Bakıya dəvət etmişdi. Bakıda, dövlət filarmoniyasında işləyə-işləyə opera teatrında da bəzi rollarda çıxış etmişdi. O, tez bir zamanda gözəl səsinə, aydın diksiyasına, səmimi, sərbəst oxumağına görə populyarlaşır. Xalq onu mehribanlıqla "Zülfü" deyə çağırır. Zülfü Adıgözəlov "Rast" muğamının mahir ifaçısı idi. Necə ki, Cabbar "Mahur"u, Seyid "Çahargah"ı, İslam Abdullayev "Segah"ı xüsusi məharətlə, özünə məxsus təkrarsız üslubda oxuyardı, eləcə də Zülfü Adıgözəlov "Rast"ı o cür ustalıqla ifa edərdi. "Rast"ın düzlük, mərdlik, vüsət kimi xüsusiyyətlərini vurğulaya bilirdi. Zülfü "Orta Segah"ı da gözəl oxuyardı. O, "Nəbi", "Kəklik", "Dedim bir busə ver", "Bir cüt sona" kimi xalq mahnılarının mahir ifaçısı idi. Eləcə də "Mən gedirəm Zəngilana" təsnifini böyük məharətlə, həssaslıqla təsirli oxuması

hamını heyran edirdi. Zülfü Adıgözəlovun gözəl ifası Azərbaycanfilm studiyasının çəkdiyi "Kəndlilər", "Səbuhi", "Bakılılar" filmlərində də səslənir.

Şuşanın xanəndəlik məktəbinin son korifeylərindən olan **Xan Şuşinski** (1901-1979) haqqında söz açdıqda Səməd Vurğunun "Azərbaycan" şeirinin bu misraları yada düşür:

*Könlüm keçir Qarabağdan,*
*Gah bu dağdan, gah o dağdan.*
*Axşam üstü qoy uzaqdan*
*Havalansın Xanın səsi,*
*Qarabağın şikəstəsi.*

Xanın ilk müəllimi, xanəndəlik tariximizə "Segah" muğamının ustadı kimi daxil olmuş İslam Abdullayev olmuşdu. Elə Xan Şuşinski adını da gənc İsfəndiyara İslam Abdullayev özü vermişdi. Bir gün Şuşanın musiqi məclislərinin birində gənc İsfəndiyarla bərabər iştirak edən İslam Abdullayev ev yiyəsindən xahiş edir ki, onlar üçün o zaman məşhur olan Təbrizli xanəndə Əbdülhəsən Xanın qrammafon valını səsləndirsin. Xanəndə "Kürdi-Şahnaz" oxuyurdu. Valı dəfələrlə dinlədikdən sonra məclis əhli gənc İsfəndiyardan xahiş edir ki, həmin muğamı təkrar oxusun. O, bu muğamı zildə böyük məharətlə oxuyur və bununla hamını heyrətləndirir. İsfəndiyarın əsil Xan kimi oxumağından qürurlanan müəllimi İslam gənc xanəndəyə o gündən Xan adını verir. Xan Şuşinskinin etirafına görə onun kamil xanəndə

kimi yetişməsində İslam Abdullayevdən sonra Cabbar Qaryağdıoğlunun və Seyid Şuşinskinin böyük rolu olmuşdu. Xan Şuşinskinin geniş diapozonlu, yüksək tessituralı gur səsi var idi. O, bütün muğamları böyük ustalıqla oxuyurdu. Lakin “Mahur-hindi”ni onun kimi oxuyan olmamışdı. Xan “Segah” muğamının da mahir ifaçısı idi. “Qarabağ şikəstəsi”ni isə təkrarolunmaz bir məharətlə oxuyurdu. Xan gözəl qaval çaldığına görə ritmik muğamların da mahir ifaçısı idi. O, Üzeyir bəyin “Qaragöz” mahnısını xüsusi şirinliklə oxuyardı. Xanın özü bir sıra mahnılar bəstələmişdi. Onlardan “Qəmərim”, “Ay gözəl”, “Məndən gen gəzmə”, “Al yanağından”, “Ölürəm a Ceyran bala” və nəhayət Şuşaya həsr etdiyi, dillər əzbəri olan “Şuşanın dağları başı dumanlı” mahnılarıdır.

Üzeyir bəy dəfələrlə etiraf etmişdir ki, özünün şedevri olan “Koroğlu” operasını yaradarkən ən əvvəl Bülbülün səsini nəzərdə tutmuşdu. **Bülbül** (1897-1961) Hacıbəylinin ölməz operasında Koroğlu rolunun klassik ifaçısı oldu. Hələ 12 yaşından Bülbül adıyla məşhurlaşdı, xanəndə, muğam ifaçısı sonradan yeni Azərbaycan vokal sənətinin banisinə çevrildi. Bakı konservatoriyasındakı illər, İtaliyada ən yaxşı belkanto ustalarından aldığı dərslər, rus, sovet və dünya ustalarının sənətindən bəhrələnmək Bülbülü tamamilə yeni tipli Azərbaycan müğənnisi etmişdir. O, öz sənətində milli məxsusluğu dünyəvi texnika ilə məharətlə birləşdirə bilmişdir.

Bülbül xalq alətlərinin səslənməsinin xüsusiyyətinin saxlanılmasını çox vacib sayırdı və ona görə “Tar məktəbi”,

“Kamança məktəbi”, “Balaban məktəbi” dərsliklərinin çap olunmasının təbliğatçısı idi. Bülbül xalq mahnılarını və təsniflərini gözəl ifa edirdi. “Müxalif təsnifi”, “Çahargah təsnifi”, xalq mahnıları “Üç telli durna”, “Bəri bax”, “Yaxan düyməlchanges”, “Xumar oldum”, “Gülə-gülə”, “Qara tellər”, “Girdim yarın bağçasına”, “Qaçaq Nəbi”, “Kəklik” və başqaları Bülbülün təkrarsız ifasında səslənirdi. Bülbül xalq mahnılarının gözəl ifaçısı olmaqla bərabər, italyan bəstəkarları Puççini, Verdi və başqalarının əsərlərindən, həmçinin Azərbaycan operalarından ariyaları özünəməxsus ustalıqla ifa edirdi. 1961- ci ildə ölümündən iki ay əvvəl, Bülbül doğma Qarabağda, anadan olduğu Şuşada konsertlər vermişdi. O, sanki bu torpaqla vidalaşırdı.

Həyatının son illərinə qədər görkəmli bəstəkar və dirijor Niyazi simfonik konsertlərlə Qarabağa, Şuşaya qastrola gedərdi. Maestronun açıq havada, “Cıdır düzü”ndə keçən konsertləri heç vaxt unudulmur və ənənə bərpa olunur![52]

---

[52] Zenfira Səfərova, “Şuşa Azərbaycan musiqisinin məbədidir”, http://www.musigi-dunya.az/new/added.asp?action=print&txt=12

## *Şuşanın tanınmış nəsilləri: Hacıbəylilər, Bədəlbəylilər, Əmirovlar*



Azərbaycan mədəniyyətinin elə bir sahəsi tapılmaz ki, orada Şuşanın yetirmələrinin izi olmasın. Şuşa xeyli adlı-sanlı, nüfuzlu nəsillər yaşayıb ki, onların soyadı bu gün də iftixarla çəkilir, ehtiramla yad edilir. Onlar Şuşanın "pasportudur".

**Hacıbəylilər**

Azərbaycan musiqisinin inkişafında Hacıbəylilər nəslinin böyük xidmətləri var. Bu nəslin şah damarı Üzeyir Hacıbəylidir. Onun kimliyi barəsində düşünərkən, ilk növbədə, bu dahi insanın öz sözləri yada düşür: "Bəşəriyyət tarixində elə şəxslər var ki, onlar özləri üçün anadan olmayıb-

lar. Bəlkə bütün xalqa və hətta ümuminsaniyyətə xeyir gətirmək və tərəqqisinə səbəb olmaq üçün yaranıblar. Bu cür adamlar nəinki sağlığında, bəlkə öləndən sonra da camaata mənfəət verirlər”. Bu sözlər ilk növbədə müəllifin özünə aiddir. Üzeyir Hacıbəyli yaradıcılığı Azərbaycana şərəf, şöhrət gətirən, ikinci nümunəsi olmayan sənətdir.

Üzeyir Hacıbəyli bəstəkar, alim, yazıçı, publisist, ictimai və siyasi xadim kimi çoxşaxəli fəaliyyəti ilə yanaşı, Şərqdə ilk operanın banisi kimi məşhurdur. Məhz onun istedadı sayəsində Azərbaycan milli opera sənətinin tarixi 1908-ci ildə tamaşaya qoyulan “Leyli və Məcnun”dan başladı. İlk nəhəng əsərinin uğurlarından ruhlanan Üzeyir bəy bir-birinin ardınca milli operalar yazdı. 1937-ci ildə tamaşaya qoyulan “Koroğlu” təkcə Azərbaycan mədəniyyətində deyil, dünya operalarının sırasında əzəmətlə dayanan parlaq nümunələrdən birinə çevrildi.

Şərqdə ilk operetta janrının yaranması da Üzeyir Hacıbəylinin adı ilə bağlıdır. “Ər və arvad”, “O olmasın, bu olsun”, “Arşın mal alan” adlanan bu musiqili komediyalara indi də maraqla baxılır. Üzeyir Hacıbəylinin ədəbi irsi çox zəngin və qiymətlidir. Azərbaycan mədəniyyətinə, musiqisinə xidmət edən bu unudulmaz şəxsiyyət 300-dən çox xalq mahnısını nota salmış, marş, kontata, fantaziya, mahnı və romanslar, kamera və xor əsərləri yaratmışdır. Maraqlıdır ki, həm Azərbaycan Xalq Cümhuriyyətinin, həm də sovet Azərbaycanının himnləri dahi bəstəkara məxsus olmuşdur. Sevinirik ki, dövlət müstəqilliyimizin bərpasından sonra millətimizə azadlıq şərafəti çatdıran o ilk himni biz bu gün

yenə də məhəbbətlə səsləndiririk.

Üzeyir bəyin böyük qardaşı Zülfüqar Hacıbəyli Azərbaycanın ilk operalarından olan "Aşıq Qərib"də xalq musiqisi ilə Avropa musiqisinin vəhdətini yaratmağa çalışıb. Onun bir sıra librettolara yazdığı musiqilər öz sadəliyi və aydınlığı ilə, həm də dramaturgiya baxımından seçilirdi. Dahi bəstəkarın kiçik qardaşı Ceyhun Hacıbəyli Üzeyir bəyə bir çox musiqi əsərlərini yaratmaqda yaxından kömək etmişdir O, hətta "Leyli və Məcnun" operasının ilk tamaşasında İbn Səlam və Nofəl obrazlarını yaratmışdır. Onun ən diqqətəlayiq xidmətlərindən biri də "Azərbaycan" qəzetinin meydana gəlməsində göstərdiyi böyük xidmətdir. Bu qəzetin ilk redaktoru məhz Ceyhun Hacıbəyli olmuşdur. 1920-ci ildə bolşeviklərin aprel çevrilişindən sonra Fransada olan Ceyhun Hacıbəyli Vətənə qayıda bilməmiş, ömrünü mühacirətdə başa vurmuşdur.

Maestro Niyazi Üzeyir Hacıbəylinin qardaşı Zülfüqarın oğludur. Görkəmli dirijor, ictimai xadim, xalq artisti, beynəlxalq mükafatlar laureatı Niyazinin musiqiçi kimi formalaşmasında ailə mühitinin böyük təsiri olmuşdur. O, Dövlət Simfonik Orkestrinin təşkilində fəal iştirak etmiş, Azərbaycan bəstəkarlarının, xüsusilə də Üzeyir Hacıbəylinin "Koroğlu" operasındakı qeyri-adi dirijorluq istedadı ona şöhrət gətirmişdir. Niyazinin dirijorluq etdiyi əsərlər Azərbaycan musiqisinin qızıl fonduna daxil edilmişdir.

Çingiz Hacıbəyli isə Niyazinin qardaşıdır. Azərbaycanın əməkdar incəsənət xadimi olub. O da dirijor idi. Yaradıcılıq fəaliyyəti əsasən Azərbaycan Musiqili Komediya

Teatrı, Dövlət Radio və Televiziya Verilişləri Komitəsinin Simfonik Orkestri, Üzeyir Hacıbəyli adına Dövlət Simfonik Orkestri ilə bağlı olmuşdur.

Görkəmli Azərbaycan bəstəkarlarından biri olan Soltan Hacıbəyli Üzeyir bəyin əmisi nəvəsidir. O, məşhur "Karvan" simfonik əsərini Üzeyir Hacıbəyliyə həsr etmişdir. Soltan Hacıbəyli "Gülşən" baletinin, "İsgəndər və çoban" operasının, eləcə də bir sıra simfoniya, üvertura, mahnı, romans və digər musiqi əsərlərinin müəllifidir. 1924-cü ildə Şuşada anadan olan Osman Hacıbəyli, Soltan Hacıbəylinin qardaşıdır. Milli teatrın inkişafında özünəməxsus xidmətləri var. Ömrünün 40 ilini Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrına bağlayan Osman Hacıbəyli 100-dən çox rol yaratmışdır. Soltan bəyin oğlu İsmayıl Hacıbəyli isə əməkdar mədəniyyət və incəsənət xadimi idi. Azərbaycan musiqisinin inkişafında böyük xidmətləri var. Uzun illər musiqi kadrlarının yetişməsində fədakarlıqla çalışıb.

**Bədəlbəylilər**

Elmin, mədəniyyətin, maarifin inkişafında silinməz izlər qoyaraq adlarını tarixə yazan Bədəlbəylilər elə şöhrətli, nəcabətli və möhtəşəm nəsildir ki, onlar həmişə dərin ehtiramla, minnətdarlıq duyğuları ilə yad edilir. Bədəlbəylilərin digər məşhur soyadlarla da qohumluq əlaqələri var ki, məhz həmin nəsillər (Qacarlar, Əliverdibəylilər, Hacıbəylilər) Azərbaycanın tanınmış simalarıdır. Şuşada doğulan Bədəl bəy maarifpərvər ziyalı olub. O, sonralar Bakıya kö-

çərək paytaxtın keçmiş Sovetski küçəsində hələ də yaddaşlardan silinməyən "Bədəlbəyin məktəbi" adlanan binada uzun illər müəllimlik edib. Bədəlbəyin qardaşı Əhmədbəy Azərbaycan səhnəsində qadın rollarının ilk ifaçısı olmaq məsuliyyətini boynuna götürmüş bir şəxsdir. Belə bir ziyalı və fədakar ailədə doğulan övladlar təkcə öz nəsillərinə deyil, Şuşadan gətirdikləri ağayanalıqla Azərbaycan mədəniyyətinə şərəf və şöhrət bağışlayıblar. Əfrasiyab Bədəlbəyli müsəlman Şərqində ilk baletin ("Qız qalası") yaradıcısı olub. Şəmsi Bədəlbəyli Azərbaycan Musiqili Komediya Teatrının qurucusu kimi adını mədəniyyət tarixinə həkk edib. Bu nəslin davamçısı olan, xalq artisti, pianoçuların beynəlxalq müsabiqələr laureatı, dünya şöhrətli mədəniyyət xadimi, Bakı Musiqi Akademiyasının rektoru Fərhad Bədəlbəyli isə ata-babalarından ona etibar edilən missiyanı ləyaqətlə davam etdirməkdədir.

Ömürləri boyu incəsənətə yüksək amalla xidmət edən, onu zənginləşdirən, şöhrət qazandıran Bədəlbəylilər həqiqətən də xalqımıza əvəzsiz musiqi xəzinəsi yaradıb bəxş ediblər. Bədəlbəylilər mədəniyyət tariximizin əbədiyaşar simalarıdır.

**Əmirovlar**

Şuşalı Məşədi Cəmil Əmirov dövrünün görkəmli musiqi xadimlərindən biri olub. Hələ 1910-cu ildə Riqada "Qrammofon" firması Məşədi Cəmilin Azərbaycan musiqiçiləri ilə birgə ifa etdiyi muğam və xalq mahnılarını vala yazmışdır. 1911-1912-ci illərdə Məşədi Cəmil İstanbulda

"Heyratı" muğamını nota köçürərək nəşr etdirmişdir. Tədqiqatçılar söyləyirlər ki, Məşədi Cəmil adi tarzən deyildi. O, muğamlarımızın, xalq mahnılarımızın dərin bilicisi sayılırdı. O, təkcə ifa etmirdi, həm də iri həcmli musiqi əsərləri yaradan bir sənətkar kimi fəaliyyət göstərirdi. Cəmil Əmirov "Seyfəlmülk" operasının (1915) və "Namuslu ər" dramının (1923) müəllifidir. Şuşada doğulan Məşədi Cəmil sonralar bir müddət Gəncədə fəaliyyət göstərib. Elə Fikrət Əmirov da bu şəhərdə dünyaya gəlib. Musiqi məktəbinin tar sinfini Gəncədə bitirən Fikrət Əmirovun gənclik illəri ağır repressiya dövrünə təsadüf etdiyindən, o, Bakıda təhsil almaq arzusuna çox gec çatdı. Həm də qəfil başlayan İkinci Dünya müharibəsində faşistlərlə döyüşmək məcburiyyətində qaldı.

Müharibədən sonra Azərbaycan Dövlət Konservatoriyasında təhsil alan Fikrət Əmirov musiqi sənətimizin demək olar ki, bütün sahələri üzrə öz qabiliyyətini uğurla sınadı. O, istedadlı və hərtərəfli bəstəkar idi. Səhnə əsərləri üçün musiqi bəstələyirdi. Professional musiqi tariximizə nəzər salsaq, onun inkişafında xidmətləri olan korifeylərin sırasında Fikrət Əmirovun yeri əvəzsizdir. Azərbaycan musiqisində simfonik muğam janrının banisi olan Fikrət Əmirov eyni zamanda instrumental konsert janrında da yazan ilk bəstəkarımızdır. Bəstəkarın simfonik əsərləri ona daha çox şöhrət və məhəbbət gətirmişdi. Simli orkestr üçün "Nizami" simfoniyası Fikrət Əmirovun bu sahədə gələcək nailiyyətlərini təsdiqləyən ilk uğurlu əsərlərdən biri olub. "Şur", "Kürd ovşarı" və "Gülüstan-bayatı Şiraz" simfonik

muğamları ilə Fikrət Əmirov simfonik musiqi tarixində qeyri-adi bir yeniliyin müəllifi kimi mədəniyyət tariximizin təzə səhifələrini yazıb. Fikrət Əmirov Azərbaycan mədəniyyətinə bəxş etdiyi iki musiqi abidəsi xüsusilə əvəzsizdir - 1953-cü ildə səhnəyə vəsiqə almış "Sevil" operası və müəllifinə dünya şöhrəti gətirən "Min bir gecə" (1979) baleti. Fərəhlə deyək ki, Əmirovların sənət, musiqi fəaliyyəti bu gün də davam etməkdədir.

**Minçalarlı, minçiçəkli musiqilər**

Mahnı janrından başlayaraq opera kimi böyük musiqi əsərləri yazan Süleyman Ələsgərov bəstəkar, dirijor, pedaqoq kimi zəngin yaradıcılığa malik olub. 1924-cü ildə Şuşa şəhərində anadan olan Süleyman bu yerlərin saf havasından, dağlarının ucalığından, çəmənlərinin ətrindən yetərincə bəhrələnib. Onun bir sənətkar kimi ömrü boyu ilhamının ünvanı Şuşa olub. O, 1948-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirdi. Xalq melodiyalarının zənginliyindən, ritmik çalarlarından, dramaturji inkişafın prinsip və üsullarından istifadə edərək estetik dəyərini həmişə saxlayan əsərlər yaradıbdır. Unudulmaz Üzeyir Hacıbəyli yolunun ən layiqli davamçılarından olan Süleyman Ələsgərov "Bahadır və Sona", "Solğun çiçəklər" operalarını bəstələyib, eləcə də Azərbaycan professional musiqisinin əksər janrlarında gözəl əsərlər yaradıb. Süleyman Ələsgərov 12 musiqili komediyanın, 2 operanın, 2 simfoniyanın, "Bayatı-Şiraz" adlı simfonik muğamın, uvertüraların, simfonik poe-

maların, 6 kantatanın, bir sıra kamera instrumental nümunələrin, 300-ə yaxın mahnı və romansın, eləcə də digər janrda yazılan əsərlərin müəllifidir. Bu görkəmli sənətkar tamaşalara, kinofilmlərə onun dəst-xəttini yaşadan musiqilər bəstələyib. O, yalnız bəstəkar deyildi. Uzun müddət Dövlət Musiqili Komediya Teatrında baş dirijor, direktor vəzifələrində çalışıb. A.Zeynallı adına Musiqi Məktəbinin direktoru, eləcə də Dövlət Radio və Televiziya Xalq Çalğı Alətləri Orkestrinin dirijoru olmuşdur. Süleyman Ələsgərovun məşhur "Bayatı-Şiraz" simfonik muğamı bu janrda olan "Şur", "Kürd ovşarı" (Fikrət Əmirov), "Rast"dan (Niyazi) sonra yazılan gözəl sənət nümunələridir. Mütəxəssislər onu "minçalarlı, minçiçəkli musiqi çələngi" adlandırıblar. Buna səbəb də əsərin monumentallığı, eləcə də kamil formaya, dərin melodik dolğunluğa malik olmasıdır. Onun bütün əsərləri Azərbaycan musiqisinin inciləri sayılır.

**İlk uşaq baletinin müəllifi**

Azərbaycan mədəniyyətinin inkişafında özünəməxsus xidmət göstərmiş görkəmli bəstəkar, xalq artisti, professor Əşrəf Abbasov da Şuşa şəhərində doğulub. Elə ilk musiqi təhsilini də burada alıb. Doğrudur, o, tar ixtisasına yiyələnmişdi. Amma elə uşaqlıqdan özü müəyyənləşdirmişdi ki, bəstəkar olacaq. Musiqiyə olan marağı onu gənc yaşlarında tar üçün kiçikhəcmli birsəsli texniki pyeslər yazmağa həvəsləndirib. Tez-tez Şuşaya gələn Üzeyir Hacıbəyli gənc musiqiçinin yaradıcılığı ilə tanış olduqdan sonra onu konservatoriyada oxumağa dəvət etmişdi. Beləliklə, Şuşadan

qanadlanan arzular Bakıda reallığa çevrilmişdi.

Çoxcəhətli yaradıcılığa malik olan Əşrəf Abbasov gözəl romanslar müəllifi idi. Bununla bərabər, onun yaradıcılığında simfonik əsərlərin də xüsusi yeri var. Əşrəf Abbasov ən çox simfonik poemaya üstünlük verib. “Şuşa”, “Gələcək gün”, “Dramatik poema” bəstəkarın ən kamil simfonik əsərlərindən sayılır. O, simfonik orkestr üçün bir sıra süitalar da yazmışdır. Yaradıcılığının zirvəsi isə “Qaraca qız” baletidir. Bu balet həm də uşaqlar üçün yazılan ilk böyük səhnə əsəridir. Maraqlıdır ki, balet şuşalı Süleyman Sani Axundovun “Qaraca qız” adlı hekayəsi əsasında hazırlanmışdı. Elə libretto müəllifi də şuşalı Əfrasiyab Bədəlbəyli idi. Tamaşanın ilk dirijoru da bəstəkarın özü olmuşdu. Əşrəf Abbasov Azərbaycan musiqi tarixinə ilk uşaq baletinin müəllifi kimi adını əbədi həkk etdirib.

Şükürlər olsun ki, Şuşa düşmən tapdağından azad olub, təmizlənib. Otuz il idi ki, o musiqilərin qəmli notları duyğularımızı haldan-hala salırdı. Sanki ruhların naləsini eşidirdik. Xan Şuşinskinin böyük ehtiramla oxuduğu bir mahnının dərin mənalı nəqarəti ürəyimizi köz kimi yandırırdı: “Şuşanın dağları, başı dumanlı”. Şükür, hər şey xalqımızın, millətimizin haqq savaşında istədiyimiz kimi oldu...[53]

---

[53] Flora Xəlilzadə, “Şuşanın tanınmış nəsilləri: Hacıbəylilər, Bədəlbəylilər, Əmirovlar” https://modern.az/az/news/23294/ susanin-taninmis-nesilleri-hacibeyliler-bedelbeyliler-emirovlar

## *Dahi Üzeyir bəy Hacıbəyli*



Üzeyir bəy Hacıbəyli (1885-1948) İslam dünyasında, müsəlman Şərqində bir çox "ilk"lərə imzasını qoymuş dahi sənətkardır. Bəstəkar, musiqişünas-alim, dirijor, publisist, dramaturq, pedaqoq və ictimai xadim, müasir Azərbaycan peşəkar musiqi sənətinin və milli operasının banisi, Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycan Respublikası himninin bəstəkarı, müsəlman şərqində ilk operanın müəllifi, romans, xor, kamera, süita, üvertüra, kantata, ariya, instrumental vokal, notlu xalq çalğı alətləri orkestrinin yaradıcısı...

Dahi Üzeyir bəy biri-birindən gözəl, rəngarəng əsərləri ilə ikinci əsrdir ki, dünyanı dolaşır, Azərbaycan adına şərəf, şöhrət gətirir. O, 1908-ci ildə Qərb və Şərq musiqisinin sintezindən dahi Azərbaycan şairi Məhəmməd Füzulinin eyni adlı poeması əsasında ilk Azərbaycan operası "Leyli və Məcnun"u yaratdı. 1909-cu ildə yaratdığı "Şeyx Sənan" adlı ikinci, ardınca 1910-1915-ci illərdə Azərbaycan muğamı əsasında qurulmuş müəllif musiqisindən ibarət daha dörd

opera yazdı; "Rüstəm və Söhrab", "Şah Abbas və Xurşidbanu", "Əsli və Kərəm", "Harun və Leyla". 1936-cı ildə yazılmış "Koroğlu" operası dahi bəstəkarın yaradıcılığının şah əsəridir. Bu əsərinə görə Üzeyir Hacıbəyliyə 1941-ci ildə keçmiş SSRİ-nin ən yüksək "Stalin" mükafatı verilib. Ümumilikdə, o, 7 opera və 3 operetta yazmışdır. "Ər və arvad" (1909), "O, olmasın bu olsun" (1910) və "Arşın mal alan" (1913) həm də ilk milli kino nümunələri olaraq dünyanın əksər ölkələrində bu gün də sevilərək izlənir.

O, Azərbaycan Xalq Cümhuriyyətinin himninin musiqisini yazıb və həmin əsər bu gün də rəsmi dövlət himnidir.

Ü.Hacıbəyli ilk musiqi təhsilini uşaqlıq, gənclik illərini keçirdiyi Azərbaycanın ən mühüm mədəniyyət mərkəzlərindən biri olan Şuşada – "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi", "Zaqafqaziya konservatoriyası" sayılan məkanda alıb. 1985-ci ildə Üzeyir Hacıbəyova doğma şəhəri Şuşada ucaldılmış abidəsinin açılışı ümumxalq şənliyinə çevrilib.

Bəstəkarın atası Əbdülhüseyn bəy uzun müddət məşhur Azərbaycan şairəsi, ictimai xadim və Qarabağ xanının qızı Xurşidbanu Natəvanın şəxsi katibi olub. Anası Şirin xanım Natəvanın evində böyüyüb. Bəstəkarın babası Natəvanla süd bacı-qardaşı idilər. Üzeyir uşaqlıqdan bu evin və Xan qızının sevimlisi olub, dövrün tanınmış ədiblərini, sənətçilərini burada görüb tanıyıb, onlardan sənətin sirlərini öyrənib, muğam ifaçılığı dərsləri alıb. 13 yaşında ikən görkəmli yazıçı-dramaturq Əbdürrəhim bəy Haqverdiyev və xanəndə Cabbar Qaryağdıoğlunun 1897-ci ildə səhnələşdirdiyi

"Leyli və Məcnun" sevgi dastanından bir epizod" adlı tamaşada rol alaraq xorda oxuyub. İki illik rus-tatar məktəbini bitirib. 5 il də Qori şəhərindəki müəllimlər seminariyasında oxuyaraq, skripka, violonçel və nəfəs alətlərində ifa etmək bacarıqlarına yiyələnib. Növbəti dörd il ərzində Qarabağ və Bakı məktəblərində müəllimlik fəaliyyəti ilə məşğul olub, qəzet, jurnallarda çox sayda yazıları dərc olunub. Dostu və bacanağı - baba Müslüm Maqomayevin maddi dəstəyi ilə Moskvada musiqi təhsili alıb.

1914–1918-ci illərdə "Yeni iqbal" qəzetinin təsisçi redaktoru, daha sonra Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi mətbuat orqanı "Azərbaycan" qəzetinin redaktoru olub. İlk musiqi məktəbinin, Azərbaycan Bəstəkarlar İttifaqının, İncəsənət İnstitutunun, Konservatoriyanın qurucu rəhbəri olub. 63 il yaşayan Ü.Hacıbəyli həm də görkəmli publisist, dramaturq, pedaqoq, redaktor, ictimai xadim, Azərbaycan və klassik Şərq musiqi sənəti tarixinin ən məşhur bilicisi, tədqiqatçısı kimi tanınır. Onun zəngin ədəbi, musiqi, elmi, pedaqoji irsi öz əhəmiyyətini həmişə qoruyub saxlayır.

SSRİ rəhbəri Stalin "Arşın mal alan" filminə baxıb o qədər bəyənib ki, bir daha müəllif Üzeyir bəyə və onunla birlikdə bir qrup ifaçıya da "Stalin" mükafatı verib. Filmin SSRİ-də prokata çıxarılmasını və xarici dillərdə yayılmasını tapşırıb. Stalin və Çin lideri Mao-Tzedun bu operadakı mahnıların, musiqilərin çoxunu əzbər bilib, zümzümə edərmiş.

Xalq şairi Ramiz Rövşən Üzeyir bəyin tariximizdə yerini, mövqeyini dəqiq ifadə edib: "Bizim bir millət kimi var-

lığımızın 4 sütunu var. Bunlardan biri heç şübhəsiz Məhəmməd Füzulidir. Məhəmməd Füzuli bizim hissiyatımızın sütunudur. İkincisi Mirzə Cəlildir. Mirzə Cəlil bizim əxlaqımızın sütunudur. Üçüncüsü Məhəmməd Əmin Rəsulzadədir. Məhəmməd Əmin Rəsulzadə bizim ağlımızın və dünyagörüşümüzün sütunudur. Dördüncüsü isə bu üçünü də özündə birləşdirən Üzeyir Hacıbəyov sütunudur. Üzeyir Hacıbəyov Məhəmməd Füzulini, Mirzə Cəlili və Məhəmməd Əmin Rəsulzadəni özündə birləşdirən bir şəxsiyyətdir."



Üzeyir Hacıbəylinin 100 illik yubileyi YUNESKO tərəfindən böyük təntənə ilə qeyd olunub. Hər il Azərbaycanda xatirəsinə Beynəlxalq Musiqi Festivalı keçirilir. Artıq bu Festivalın Şuşada keçirilməsi ənənəsi də bərpa olunub.[54]

[54] Nərimanoğlu H. "Şuşa musiqi ocağının dahi yetirməsi" Bu məqalə 14 xarici KİV-də 12 dildə yayılıb: https://www.aztc.gov.az/az/posts/id:1367

## *Şuşalı generallar*

İbrahimxəlıl xan, Mehdiqulu xan, Məhəmmədhəsən ağa, Cəfərqulu xan, Mehdiqulu xana Kürəkçay müqaviləsi imzalandan sonra (1805-ci il) çar tərəfindən general-mayor, general-leytenant rütbələri və ordenlər verilib.

Şuşalı Fərəc bəy Ağarza bəy oğlu Ağayev hərbi xidmətinə knyaz Paskeviçin yanında Varşavada Qafqaz süvari müsəlman alayında başlamışdı. Sonra o. Əlahəzrət İmperator I Nikolayın Şəxsi Konvoyunun leyb-qvardiyasına keçirilmişdi. İmperatorun yanında bir neçə il müvəffəqiyyətlə xidmət edəndən sonra Fərəc bəy xristianlığı qəbul edir və Nikolay Nikolayeviç Ağayev olur, çünki onun xaç atası imperator 1 Nikolay özü, xaç anası isə imperatorun gəlini Mariya Aleksandrovna idi. 1850-ci ildə Fərəc bəy Qafqaz ordusunun baş komandanlığının sərəncamına göndərilmişdi. O, general-leytenant rütbəsinə layiq görülür və "İgidliyə görə" sözləri yazılmış qızıl qılıncla, həmçinin İmperator çələngi və qılınclar daxil edilməklə I dərəcəli Müqəddəs Anna ordeni ilə yanaşı digər çoxlu ordenlərlə də təltif olunur.

Bəhmən Mirzənin nəvəsi Şəfi xan (Cəlaləddin Mirzənin oğlu) 1909-cu ildə general-mayor rütbəsində Sankt-Peterburqda özünü güllələmişdir. Şahzadə Şəfi xanın yeganə oğlu Feyzulla Mirzə (hərbi sənədlərdə Fazulla) Nikolayev süvari məktəbini bitirmiş, I Dünya müharibəsində bir çox cəbhədə savaşmış, general-mayor rütbəsində Birinci Qaf-

qaz yerli süvari diviziyasına komandir təyin edilmişdi. Feyzulla Mirzə 1918-1920-ci illərdə general-mayor rütbəsində Azərbaycan Demokratik Respublikasının ordusuna xidmətə başlayır. Öz süvari alayı ilə ermənilərlə müharibədə iştirak edir. Gəncə şəhər qarnizonunun rəisi təyin edilir.

Sovet hakimiyyətinin gəlişi ilə Gəncədə bu məşhur şuşalı nəslin başqa bir nümayəndəsi, Gəncənin hərbi komendantı, general-mayor Əmir Kazım Mirzə Qacar kimi edam olunur. Bəhmən Mirzənin Şahzadə xanımdan olan böyük oğlu, şahzadə Rzaqulu Mirzə də general-mayor rütbəsində idi.

Əmənulla xan Mirzə 1862-ci ildə Şuşa şəhərində anadan olmuşdur. O, özünü hərb sənətinə həsr etmişdir. 1879-cu ildə Peterburq Hərbi Kadet Korpusunu bitirmiş, general-mayor rütbəsinə çatmışdır. 1904-1905-ci illər rus-yapon və I Dünya (1914-1918) müharibələrində iştirak etmişdir. Fevral inqilabından sonra Qafqaza qayıdır, Tiflisdə və Şuşada yaşayır. ADR yaradılarkən onun ordusuna daxil olur. 1920-ci ilin mart ayında Şuşada erməni daşnakları ilə döyüşlərdə iştirak edir. Azərbaycanın bolşevik işğalından sonra İrana mühacirət edir, orada müəllimlik fəaliyyəti ilə məşğul olur və yeni tipli ordunun yaradılmasına kömək edir. İran məclisinin deputatı və İran-Sovet cəmiyyətinin sədri olur. Əmənulla xan Mirzə 1937-ci ildə Tehranda vəfat etmişdir.

Məhəmməd Mirzə Qacar rus ordusunda polkovnik riitbəsinədək yüksəlmiş və çoxlu mükafat almışdır. General-mayor rütbəsi isə ona 1919-cu ildə Azərbaycan Demokratik Respublikasında xidmət edərkən verilmişdir.

Mahmud Mirzə Qacar 1877-1878-ci illər rus-türk müharibəsindən sonra ehtiyata buraxılaraq İrana getmiş, general rütbəsini orada almışdır.

General-mayor Əmir Kazım Mirzə Qacar 1853-cü ildə anadan olub, Tiflisdə gimnaziya bitirəndən sonra Sankt-Peterburqda Nikolayev kavaler məktəbinə daxil olur. Rus-türk (1877-1878), rus-yapon (1904-1905) və I Dünya (1914-1918) müharibələrində iştirak edir. Bir sıra ordenlərlə, 1905-ci ildə qızıl silahla təltif olunur. 1910-cu ildə general-mayor rütbəsinə layiq görülür. Cümhuriyyət qurulanda Hərbi nazir Səməd bəy Mehmandarova bu raportu yazıb milli orduda iş istəyir: "hərbi qulluğun müasir tələblərinə uyğun olaraq xidmət borclarını icra etmək bacarığına və gərəkli fiziki qüvvəyə malikəm. Zati-aliləri, Vətənin bu ağır vaxtda öz xalqıma xeyir verər, həm də ailəmin zəifləmiş iqtisadi vəziyyətini yaxşılaşdırardım". Səməd bəy Mehmandarovun əmri ilə Əmir Kazım Mirzə Gəncənin komendantı təyin olunur, Gəncə üsyanında fəal iştirak edir, əsir düşür və 1920-cu ildə fövqəladə komissar Tixarelinin əmri ilə Gəncə şəhərində öldürülür. Onun kürəkəni Cahangir Qayıbov (Qafqaz müftisi Hüseyn Qayıbovun oğlu) da 1937-ci ildə Tiflis fövqəladə komissiyasının əmri ilə güllələnmişdir. Məhəmməd Əmin Rəsulzadə "Azərbaycan Cümhuriyyəti" əsərində Əmir Kazım Mirzə Qacarı "İstiqlal şəhidi" adlandırır.[55]

---

[55] Çingiz Qacar. Köhnə Şuşa
Bakı, "Şərq-Qərb", 2019, 344 səh.

Şuşa şəhərindən çıxan generallardan ən məşhuru Səməd bəy Sadıq bəy oğlu Mehmandarov idi. Mehmandarov familiyası generalın İbrahimxəlil xanın sarayında mehmandar (xanın rəsmi qonaqlarını qarşılayıb sarayda yaşaması və geriyə yola salınmasına cavabdeh) işləməsi ilə bağlıdır. Səməd bəy 1873-cü ildə Sankt-Peterburq Konstantin Hərbi Məktəbinə daxil olur. Məktəbi bitirdikdən sonra Türküstan Artilleriya Briqadasına göndərilir. Türküstan hərbi səfərində iştirak edir, ordenlərlə təltif edilir. Artilleriya briqadasında xidmət onu Qafqaza, Varşavaya, Zabaykalyeyə aparıb çıxarır Port-Artur qalasının müdafiəsində iştirakına görə ən yüksək - cəmi 8 sərkərdənin layiq görüldüyü ordeni alır, əla xidmətə görə general-leytenant rütbəsinə layıq görülür. Azərbaycan Cümhuriyyəti ordusunun yaradıcılarından biri olur. Generalın Şuşada dağıdılmış evi bərpa edilib.



## *Şuşanın gerbində əks olunan Qarabağ atları*



"Rusiya imperiyasının "Şəhər əsasnaməsi"nin (1785) 28-29-cu maddəsinə əsasən, 1843-cü il mayın 21-də Şuşa şəhərinin gerbi təsdiq edilmişdi. Şuşanın həmin ilə aid gerbində yaşıl sahədə çapan qızılı rəngli Qarabağ atı təsvir olunmuşdu. Qalxanın yuxarı yarısında, qızılı fonda Kaspi vilayətinin gerbinin bir hissəsi, aşağıda yaşıl fonda Asiya yəhər-cilovu olan qaçan at təsvir edilmişdir. Qəzada əla at cinsləri (Qarabağ atı) yetişdirilir, Asiya yəhəri və cilovu düzəldilirdi. Gerbin təsviri XIX əsr alman ustası Ququ Ştrexelin rəsmi üzrə verilmişdir".[56]

[56] "Qafqaz" qəzeti, 24 may 1868-ci il

Qızılı-kürən rəngini günəşdən, güc və qüdrətini dağlardan alan Qarabağ atları  Azərbaycana məxsus milli at cinsidir. Onlar yüksək sürəti ilə seçilir, hündür və çevikdir, möhkəm bədən quruluşuna malikdir. Alın və burun sümükləri yaxşı inkişaf edib, gözləri qabarıqdır. Boynu orta uzunluqda, hətta bir qədər də gödəkdir. Əsas əlaməti parıldayan narıncı rəngdə olmasıdır. Yalı və quyruğunun ucu qızarmış, tünd-şabalıdı rəngdə olur. Dərisi nazik, tükləri yumşaq və parıltılıdır.

Bu atlar Asiya və Qafqazda ən qədim at cinsi hesab edilir. Müasir Azərbaycan ərazisində eramızdan əvvəl I minilliyə aid mənbələrdə Manna, ondan sonra isə Midiya, Adərbayqan (Atropatena) və Albaniyada atçılığın geniş yayıldığı, qoşqu vasitəsi kimi işlədildiyi, eləcə də savaşlarda istifadə olunduğu göstərilir. Tarixçi Herodot (e.ə. IV əsr) yazır ki, Midiyada, Nesey adlanan geniş ərazidə (Xəzərin cənubqərbində) iri, güclü və yaraşıqlı atlar yetişdirilirdi.

Qarabağ atları öz mənbəyini ən qədim zamanlarda Azərbaycanda mövcud olmuş atlardan, əsas etibarı ilə, həmin Nesey atlarından götürmüşdür. Bəzi ərəb mənbələrində VIII əsrdə Azərbaycanda qızılı Qarabağ atlarının geniş yayıldığı və ərəb istilaçıları tərəfindən Azərbaycandan 60 min qızılı rəngli atın qəsb edilib Ərəbistana aparılması qeyd olunur. Çoxlu mənbələrdə Qarabağ at cinsinin yalnız bu ərazilərdə öz gözəlliyini qoruyub saxladığı yazılır.

Müxtəlif  məşhur at cinslərinin formalaşmasında Qarabağ atlarından çox istifadə olunub. 1839-cu ildə Don Atçılıq Zavoduna gətirilmiş  919 atın əksəri Qarabağ cinsindən

idi. Donun aparıcı at zavodu sayılan Platovun zavodu, demək olar ki, Qarabağ atları ilə komplektləşdirilmişdi.

1865-ci ildə Şuşada olan məşhur rəssam V.Vereşşagin yazırdı: “Şuşanın yaxınlığında, Yelizavetpol qapısının yanında sonuncu Qarabağ hakimi Mehdiqulu xanın qızına məxsus böyük və qədim bir ev var. Ölərkən xan öz qızına çox böyük mal-dövlət qoyub getmişdi. Ən zəngin və gözəl, bayram nümayişinə xüsusi gözəllik və təmtəraq verən əzəmətlə bəzədilmiş atlar Xan qızına məxsus idi. Onun tövləsində xan atı adıyla məşhur olan əla atlar var. Mən həyatımda gördüyüm ən yaxşı atlar Şuşada Cəfərqulu xana məxsusdur. Heç yerdə bu cür atlar görməmişdim. Mən bir cins erkək atın rəsmini çəkdim”.

Hərbçi B.A.Çudovski 1914-cü ildə yazırdı: “Bizim hərbi dəstələrimiz Zaqafqaziyada olduğu zaman bütün ordu alaylarındakı zabitlərdə çoxlu Qarabağ atları var idi. Bu atlar bütün Zaqafqaziya yürüşlərində, habelə İran və Türkiyə sərhədləri boyu yürüşlərdə çox yaxşı davam gətirirdi. Qarabağ atı yerli şərait üçün çox qiymətlidir. İsti havada süvarinin altında az tərləyir, halbuki, yanaşı gedən Kabardin atı tamamilə tər içində olur”.

Qarabağ atlarının böyük pərəstişkarı və bilicisi olmuş polkovnik K.A.Diterixsin 1866-cı ildə “Konnozavodstvo” jurnalında çap edilmiş “Qarabağ atçılığına bir baxış” adlı maraqlı bir məqaləsi var. Onu orta əsrlərdə və XIX əsrdə Qarabağ cinsinin vəziyyətini əks etdirən ilk elmi məqalə saymaq olar.



XVIII-XIX əsrə aid "Qarabağnamələr"də Qarabağ atlarının İranda, Türkiyədə şöhrət tapdığı qeyd olunur. Bu atların şah və sultanlara ən qiymətli hədiyyə kimi bağışlandığı bildirilir.

Qarabağ atçılığının "qızıl əsri" XVİİİ-XIX əsrlər hesab edilir. Məhz bu dövrdə cinsin ən tipik nümunələri Qarabağ xanları Pənah xanın, İbrahimxəlil xanın, Mehdiqulu xanın, Cəfərqulu xanın və Xurşidbanu Natəvanın (Usmiyevlərin) zavodlarında yetişdirilib. 1832-ci ildə Qarabağ əyalətində 250 ayğırı və 1400 madyanı olan 11 atçılıq zavodu var idi. Satış üçün atların yetişdirilməsi ilə iri feodallar məşğul olurdular. Onlar çoxlu sayda madyan yetişdirir və onlardan alınan balaları satışa verirdilər. 1830-cu illərdə bir Qarabağ atının qiyməti 300 çervon qızıl pul idi. Qarabağ xanlığının ixracatında həmin atlar mühüm rol oynayırdı. O dövrlərdə Qarabağ atları bir çox beynəlxalq sərgilərdə təmsil olunub və yüksək yerlər tutublar. Xan qızı Natəvana məxsus "Əlyetməz" adlı ayğır 1867-ci ildə Ümumrusiya at sərgisində, "Xan" ləqəbli at isə həmin il Fransada keçirilən sərgidə mükafat alıb. Parisdə keçirilmiş at sərgisində nümayiş etdirilmiş və gümüş medala layiq görülmüş "Xan" ləqəbli Qarabağ atını görən fransız qadınları onun rənginə valeh olmuş

və saçlarını açıq qızılı-kürən rəngində boyamağa başlamışdılar.

Ağdam Atçılıq Zavodunda yetişdirilən Sumqanda adlı at 1600 metr məsafəni 1 dəqiqə 54 saniyəyə (50.52 km/saat), 2400 metr məsafəni isə 2 dəqiqə 52 saniyəyə (50.24 km/saat) qaçmaqla rekord qazanıb.

Üzərində Qarabağ atının şəkli olan sovet poçt markaları dünyada məşhur idi. 1952-ci ildə 6 baş tipik Qarabağ atı seçilərək ümumittifaq kənd təsərrüfatı sərgisində iştirak üçün Moskvaya göndərilmişdi. 1956-cı ildə Böyük Britaniyaya səfər edən sovet rəhbəri Nikita Xruşşov kraliça Yelizavetaya Ağdam Atçılıq Zavodundan olan "Zaman" adlı at bağışlayıb.

Qızılı-səmənd rəngli həmin at Qarabağ cinsindən idi. Boyunun kiçik olmasına baxmayaraq, onun harmonik quruluşu və ümumi təsiri Krallıqda böyük marağa səbəb olmuşdu. Onu minən bir nüfuzlu şəxs kraliça II Yelizavetanın yubiley mərasimində demişdi: "Mən heç zaman belə rahatlığa və duyuma malik ata minməmişdim". Kral qəsrinin önündə toplanmış minlərlə insan atımızı ayaqda alqışlamağa başlayır. İngiltərənin adlı-sanlı, əsil-nəcabətli lordları dəyirmi şlyapalarını hörmət əlaməti olaraq başlarından çıxarır, qadınlar dəsmallarını yelləyirlər. Sevincindən kraliçanı göz yaşları boğur. Bütün imperiyanın idarəçilərinin yığıldığı London onu qəbul edir, gözəlliyinin qüdrəti qarşısında  afərin deyir. "Zaman" adlı Qarabağ atı London qəsrinə gəlmiş ilk Azərbaycan at cinsi kimi tarixə düşüb. Azərbaycanın Xalq şairi Bəxtiyar Vahabzadə həmin ata poema

həsr edib. Belçikanın Ham şəhərində Qarabağ Atı abidəsi ucaldılıb. Ənənə indi də davam edir. 5 iyul 2021-ci ildə Londonda Qarabağ atlarının da qatıldığı ənənəvi “Royal Windsor Horse Show” – “Vindzor Kral Atçılıq Şousu”nu Kraliça II Yelizavet və ailəsinin üzvləri də izləyib. Ardınca “Xarı-Bülbül” adlı xüsusi şou-kompozisiyada ən çox alqış qazanan Qarabağ atları olub. Britaniya mətbuatı bu şou haqqında: “möhtəşəm idi” yazırdı. İngiltərədə dizaynerlər tərəfindən hazırlanan Ağdamın “Qarabağ” futbol klubunun loqotipində komandanın simvolu olan Qarabağ atları təsvir edilib.

2022-ci il mayın 12-15-də Londonda Vindzor qəsrində Kraliça II Elizabetin taxta çıxmasının 70-ci ildönümünə həsr olunan Kral Atçılıq Şousunda Böyük Britaniya Birləşmiş Krallığının Kraliçası II Elizabet də iştirak edib. 2012-ci ildən etibarən Azərbaycan təmsilçiləri yenə də bu şouya qatılıblar. Təmsilçilərimiz 70 nəfərlik heyət və 15 Qarabağ atı – süvari dəstəsi ilə “Odlar Yurdu” adlı xüsusi proqram təqdim ediblər. 3 gün davam edən şouda ən çox nümayiş olunan videogörüntülərdə Şuşa da əks olunub və möhtəşəm rəqs kompozisiyası milyonların alqışını qazanıb. Azərbaycanda Qarabağ at cinsinin qorunub saxlanması dövlətin diqqətindədir.[57]

[57] Nərimanoğlu H. Qarabağ atları, http://zengezur.com/index.php/m-qal-l-r/265-zharabazh-atlar Bu məqalə ADTM tərəfindən ərcümə olunaraq bir neçə xarici KİV-də yayılıb. https://aztc.gov.az/az/posts/id:1364

## *Şuşanın azadlıq simvolu – xarıbülbül*



Xarıbülbül Azərbaycanın Şuşa şəhərində bitən bitkinin adıdır. Görünüşcə bülbülə bənzədiyinə görə belə adlanıb. Latınca ophrys caucasica və ya ophrys mammosa adlanır. Xarıbülbül həm də Qarabağ və Şuşanın rəmzi, 2020-ci ilin 44 günlük Vətən müharibəsi şəhidlərinin və Qarabağın azadlıq simvoludur.

Şuşa dağlarında xüsusi gözəlliyi ilə seçilən, dünyanın başqa heç bir yerində bitməyən "Xarıbülbül" adlı bu gül may-iyun aylarında çiçək açır. Bu nadir çiçəyə ən çox Cıdır düzündə, Topxana meşəsində, Üçmıx zirvəsində, dağ yamaclarında, çay kənarlarında rast gəlinir. Bu endemik gül həm gözəl, həm də müalicəvidir.

Xarıbülbül qədim türk əsatirlərində də adı keçən gül bitkisidir. Üzüntülü nakam sevgi hekayəsində belə nəql olunur ki, Oğuz xanın döyüşdə ağır yaralanmış alpaqutlarından – döyüşçülərindən biri son nəfəsdə sinəsində gəzdirdiyi bülbülün ayağına qanlı köynəyindən cırıb sevgilisi Aybükə xanıma göndərir, eşqini ifadə edir.

Qırğız yazıçısı Erlan Jurabekovun "Jarxı Bulbul" hekayəsinin mövzusu da bu qədim türk əsatirindən alınıb. Bu gülü ən çox əzizlərini itirənlər, həsrət, qəriblik çəkənlər yaxalarına taxırlar.

Qarabağ xanının qızı, Fətəli şah Qacarın xanımı Şuşalı Ağabəyim ağanın bayatısı dillər əzbəridir:

*Vətən bağı al-əlvandır,*
*Yox içində Xarıbülbül*
*Nədən hər yerin əlvandır,*
*Köksün altı sarı, bülbül?*

Şuşa şəhərində 1989-cu ildən "Xarıbülbül" festivalı keçirilir. İlk festival məşhur xanəndə, musiqiçi pedaqoq Seyid Şuşinskinin (1889-1965) 100 illik yubileyi ilə əlaqədar keçirilib. Tədbir həmin ilin mayında – Şuşada xarıbülbülün çiçəklənmə dövründə düzənlənib. İlk festivalda yerli ifaçılarla yanaşı, 10 ölkədən 100-ə yaxın musiqiçi iştirak edib.

1990-cı ildən "Xarıbülbül" festivalı beynəlxalq status alıb. İkinci festivala Hollandiya, Almaniya, İsrail və Türkiyədən də folklor qruplarının dəvət edilməsi böyük marağa səbəb olub.

Şuşa şəhəri bir sıra böyük dövlətlərin hərbi-siyasi dəstəyi ilə erməni işğalında qaldığı (1992-2020) illərdə festival Qarabağın Ağdam, Bərdə və Ağcabədi bölgələrində keçirilib. Qonaqların sayı da ilbəil artıb. 1991-ci ildə keçirilən III "Xarıbülbül" festivalına 25 ölkədən 300-ə yaxın musiqiçi qatılıb.

"Xarıbülbül" Beynəlxalq Folklor Festivalı Şuşada 28 il sürən işğaldan sonra yenidən bərpa olundu.

2021-ci il mayın 12-13-də Şuşanın Cıdır düzündə Azərbaycanın müxtəlif regionlarını və milli azlıqları təmsil edən folklor, musiqi kollektivlərinin konsertləri keçirilib, müxtəlif illərdə Şuşada lentə alınmış Azərbaycan xanəndələrinin ifalarından ibarət videoçarxlar nümayiş etdirilib.



Şuşa – 2021-ci ildə Azərbaycanın mədəniyyət paytaxtı olub, 2022-ci il Şuşa İli elan edilib, 2023-cü il "Türk dünyasının mədəniyyət paytaxtı" seçilib, "Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" Qanun qəbul olunub.[58]

[58] Nərimanoğlu H, Şuşanın azadlıq simvolu – xarıbülbül, http://zengezur.com/index.php/m-qal-l-r/282-susan-n-azadl-zh-simvolu-khar-bulbul Məqalə ADTM tərəfindən xarici dillərə tərcümə edilərək yayılıb.

## *Məşhurlar Şuşa haqqında*

***“Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar.***

***Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir.”***

*Heydər Əliyev, ümummilli lider*

***“İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi!***

***Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq.***

***2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!”***

*İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti*

***“Şuşa şəhəri işğaldan 2020-ci il noyabrın 8-də azad edilmişdir. Şuşa şəhərini azad etmək böyük qəhrəmanlıq tələb edirdi. Şuşaya gələn hər bir insan bu sıldırım qayalara baxarkən görür ki, bu şəhəri, alınmaz qala sayılan şəhəri götürmək, azad etmək böyük qəhrəmanlıq, peşəkarlıq, şücaət, fədakarlıq tələb edir. Qəhrəman Azərbaycan əsgərləri qan tökərək, şəhid olaraq, sıldırım qayalara***

***dırmaşaraq, demək olar ki, yüngül silahlarla, əliyalın Şuşanı düşmənin əlindən aldı və Azərbaycan bayrağını ucaltdı."***

*İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti*

***"Bu gün təbii ki, fərqli bir həyəcanın, hisslərin içindəyik. Allaha şükür olsun ki, daha əvvəl verdiyimiz sözümüzü bu gün yerinə yetiririk. Qırx dörd günlük məlum müharibənin nəticəsində Qarabağ, Şuşa, çox şükürlər olsun ki, sahiblərinə qovuşdu və erməni zülmündən, erməni işğalından azad edildi.***

***Hazırda arxa fonda görünən bina, əslində, erməni zülmünün təəssüf ki, bu şah əsərləri nə hala gətirdiyinin bir ifadəsidir. Qardaşım da fon olaraq mətbuat konfransı üçün olduqca anlamlı bir yer seçib. Bir tərəfdə valilik binası, o biri tərəfdə də təəssüf ki, ermənilərin, necə deyərlər, yerlə-yeksan etdikləri bir bina..".***

*Rəcəb Tayyib Ərdoğan, Türkiyə Prezidenti*

***"Şuşa qalası Cənubi Qafqazın gözəl və basəfa şəhərlərindən birisi hesab olunurdu və axır vaxtlarda artıq sürət ilə abad olmağa üz qoymuşdu. İçində çox gözəl imarətlər yapılmışdı. Yay fəslində altmış-yetmiş minə qədər nüfus bu şəhərə cəm olurdu, çünki Şuşanın abı havası xeyli saf və salamat olmağa görə, yaylaq mənzələsindəndir".***

*Firudin bəy Köçərli, ədəbiyyatşünas*

***“Uca dağ başında, mədəniyyət mərkəzlərindən və dəmir yolundan uzaq, laçın yuvasına bənzər xırdaca bir şəhər düşübdür. Dağın sağ və sol ətəklərindən köpüklənərək sürətlə axan iki çay, axırda iki mehriban qardaş kimi birləşib axaraq, düzlərdə yaşayan əhalinin bağlarını, əkinlərini sirab edirlər. Şəhər tamam qışı və baharın yarısını qara, dumana bürünmüş keçirib; axırda bu qara çadırşəbi atıb gözəl bir nazənin sənəm tək sürətinin parıltısını aləmə salıb, tamam yay istirahəti arzusunda olan isti yerlər əhalisini öz ağuşuna cəlb edir. Ətrafı səfalı meşələr, sərin bulaqlar, havası məsum uşaq qəlbi tək ipək. Bu şəhərin ömrü bir elə uzun deyilsə də, tarixi bir şəhərdir. Buraya xanlar, bəylər, hətta şahzadələr gəlib-gedirlər. Burada padşah başı kəsilib, təpiklərdə paymal olub. Abu havasının şairəliyi əhalisinin təbiətinə də sirayət etdiyi üçün, o şəhər məşhur şairlərin, ədiblərin, musiqişünasların, xanəndələrin mədəni olmuşdur”.***

*Əbdürrəhim bəy Haqverdiyev, yazıçı, dramatuq*

***“Dağ başında yazı-yayı yaşıllığa, payızı-qışı dumana və qara bürünmüş bir şəhər təsəvvür ediniz. Bu mənim şəhərimdir. Onun tarixi çox qədim deyildir: iki əsr əvvəl Pənahxan Cavanşir və Otuziki adlı elləri ilə bu yerə gəlib, şəhər salır, ətrafına qala tikdirib oturur. Adı Pənahabad, ya Şuşa qalasıdır. Yeni xanlıq, Qarabağ xanlığı meydana çıxır. Araz çayına qədər hökmü yeriyən bu xanlıq bütün İran şahlarının hücumuna baxmayaraq, çar istilasına qədər müstəqil olaraq yaşayır…”.***

*Yusif Vəzir Çəmənzəminli, yazıçı*[59]

---

[59] Nərimanoğlu H, Məşhurlar və səyyahlar Şuşa haqqında. http://zengezur.com/index.php/m-qal-l-r/263-m-shurlar-susa-hazhzh-nda Məqalə ADTM tərəfindən xarici dillərə tərcümə edilərək yayılıb.

## *Şuşanın 28 il davam edən işğalı və son*



Şuşa üç dəfə böyük dağıntıya, talan, qarətə məruz qalıb. 1905, 1918-1920 və 1992-ci illərdə mənfur ermənilərin xarici havadarlarının hərbi-siyasi yardımı, təhriki, qızışdırması ilə Şuşanın sinəsinə çalın-çarpaz dağ çəkilib. 1992-ci il mayın 8-də rus-erməni birləşmələri tərəfindən işğalı nəticəsində şəhərdə 195 nəfər Azərbaycanlı xüsusi amansızlıqla qətlə yetirilmiş, 165 nəfər yaralanmış, onlardan 150 nəfəri əlil olmuş, 552 körpə valideynlərini itirmiş, 20 mindən artıq əhali isə doğma yuvasını tərk edərək məcburi köçkün vəziyyətinə düşmüşdü. Əsir və girov götürülmüş 58 azərbaycanlının taleyi barədə **bu** günə qədər məlumat yoxdur. Şuşanın işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600-ə yaxın tarixi memarlıq abidəsini viran qoymuşlar. O cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər Ağa və Aşağı Gövhər Ağa məscidlərini, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini dağıtmışlar.

Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Şuşanın 25 məktəbi, 31 kitabxanası, 17 klubu, 8 mədəniy-

yət evi, 4 texnikumu, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatrı, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya və turist bazası, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq sağlamlıq məktəbi talan edilmiş, yandırılmış və dağıdılmışdır.[60]

Şuşada 170 ictimai yaşayış binası və 160-dək mədəniyyət və tarixi abidə var idi. Bunların içərisində son tunc və ilk dəmir dövrü abidəsi sayılan Şuşa və Şuşakənd daş qutusu qəbirləri, daş dövrü abidəsi olan Şuşa mağara düşərgəsi, XVIII əsrə dair Şuşa qalasının divarları, Gəncə qapısı, Pənah xanın sarayı və kitabxanası, İbrahimxəlil xanın bürcü və qəsri, Xan sarayı və karvansaray, M.P.Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, İkimərtəbəli karvansaray, Mehmandarovların malikanə kompleksi, Gövhər ağa, Xoca Mərcanlı, Hacı Abbas, Mərdinli, Saatlı, Köçərli məscidləri, Xurşidbanu Natəvanın evi və bulağı,



[60]https://www.azerbaijan-news.az/index.php/posts/detail/susa-zeferi-korifeylerimizin-ruhunu-sad-etdi-1622149488

Ə.B.Haqverdiyevin, Q.B.Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, N.B.Vəzirovun, Y.V.Çəmənzəminlinin evləri, Mamay bəyin evi, məscidi və bulağı, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzənin evləri, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri, Xan Şuşinskinin, Tarzən Sadıqcanın evləri, Realnı məktəbinin binası, Qız məktəbi, Şirin su hamamı, Meydan bulağı, İsa bulağı və s. tarixi mədəniyyət nümunəsi erməni işğalçıları tərəfindən talan edilmiş, dağıdılmış və məhv edilmişdir. Şəhərin tarixi muzeyinin 5 minədək əşyası talan olunub. Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin Şuşa filialının eksponatları, Dövlət Qarabağ Tarixi Muzeyinin 1000-dək əşyası, çağdaş Azərbaycan musiqi sənətinin banisi, bəstəkar Üzeyir Hacıbəylinin (300-dən çox əşya), müğənni Bülbülün (400-dək əşya), musiqiçi və rəssam Mir Möhsün Nəvvabın (100-dən çox əşya) xatirə muzeylərinin fondları qarət olunub.[61]

"Qarabağnamələr"də Şuşanın inşası 3 mərhələyə bölünür. 2020-ci il noyabrın 8-də 28 illik işğaldan azad edilməsindən sonra artıq Şuşa tarixinin növbəti 4-cü mərhələsi başlanıb. Şuşa əbədi olaraq ilk növbədə hərbi, siyasi, strateji cəhətdən alınmaz qalaya və yenidən Azərbaycanın mədəniyyət, musiqi, təhsil mərkəzinə çevriləcəkdir. İnanırıq

[61] Nərimanoölu H. Şuşa həqiqətləri, 11 Noyabr 2020. Məqalə və mətn əsasında çəkilmiş sənədli videoçarx ingilis, rus, türk, fars, ərəb, gürcü, fransız, ukrain, ispan və alman dilinə tərcümə edilərək beynəlxalq internet məkanında, sosial şəbəkələrdə yayılıb, xarici ölkələrin Azərbaycanda akkreditə olunmuş səfirlik və nümayəndəliklərinə, dünyanın nüfuzlu kütləvi informasiya vasitələrinə göndərilib. https://aztc.gov.az/az/posts/id:1174



ki, Şuşada Üzeyirbəy Musiqi Akademiyasının, Qarabağ Universitetinin, Türkiyə universitetlərindən birinin filialının, hərbi məktəbin açılması yaxın vaxtlarda reallaşacaq. Şuşada adları əbədiləşməyə layiq olan qəhrəman şəhidlərimizin, görkəmli şəxsiyyətlərin adına küçələr veriləcək, xiyabanlar, parklar, mədəniyyət obyektləri açılacaq. Şuşa 270 illik tarixi boyu yaradıcılıq, quruculuq, mədəniyyət mərkəzi olub.



Azərbaycan xalqı hər zaman qurub yaratmaq, yaşatmaq yolu ilə irəliləyib, biz yenə də bu yoldayıq.


Şuşa
Xarıbülbül

## *Şuşa Bəyannaməsi*



2020-ci il sentyabrın 27-dən başlayan Vətən müharibəsi noyabrın 8-də Şuşanın alınması ilə sona yetir. Bu tarixi qələbədə qardaş Türkiyənin hərbi-siyasi, mənəvi, informasiya dəstəyini Prezident İlham Əliyev belə dəyərləndirib: “Mənim əziz qardaşım, Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan sentyabrın 27-də müharibə başlanan gün açıq şəkildə Azərbaycana dəstək ifadə etdi. Bu siyasi və mənəvi dəstəyin çox böyük əhəmiyyəti var idi. Əziz qardaşım bildirmişdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır. Əlbəttə ki, bu, çox ciddi mesaj idi, ciddi siqnal idi. Bu, bizə imkan verdi ki, əks-hücum əməliyyatını uğurla keçirək, imkan verdi ki, hər hansı bir kənar qüvvə məsələyə müdaxilə etməsin. Mən həmişə demişdim ki, əgər xarici müdaxilə olmasa, Azərbaycan Dağlıq Qarabağ məsələsini qısa müddət ərzində həll edə bilər və belə də oldu.

Məni və Azərbaycan xalqını Şuşanın azad olunması ilə əlaqədar ilk təbrik edən Prezident Rəcəb Tayyib Ərdoğan olmuşdur. Noyabrın 8-də bu təbriki bizə çatdırmışdır.”[62]

Türkiyənin “Bayraqdar-TB2” silahlı pilotsuz uçuş aparatları (PUA) 44 günlük Vətən müharibəsində düşmənin ağır silahlanmış canlı qüvvəsini necə aşkar etdiyini və qarşıdurmaların nəticələrini necə qətiyyətlə formalaşdırdığını indi dünyada hər kəs bilir. F-35-lər, F-16-lar yaxın gələcəkdə tarixə çevriləcək, havadan müdafiə sənayesində artıq pilotlar olmayacaq, robotla idarə edilən təyyarələrdən istifadə ediləcək. İkinci Qarabağ müharibəsi zamanı “TB2”lər, PUA-lar 3 min saat fasiləsiz uçuş edib, Ermənistana məxsus 90 tank da daxil olmaqla, 900-dən çox hərbi hədəfi məhv edib.

15 iyun 2021-ci il tarixdə isə  Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın ölkəmizin və bütövlükdə Türk dünyasının qədim mədəniyyət beşiyi sayılan Şuşa şəhərində “Şuşa Bəyannaməsi”nin imzalanması Qars müqaviləsi qədər (16.03.1921) mühüm tarixi əhəmiyyətli bir hadisə oldu.

[62] Prezident İlham Əliyev: Türkiyənin dəstəyi bizə əks-hücum əməliyyatını uğurla keçirmək imkanı verdi 31.03.2021 https://azertag.az/xeber/Prezident_Ilham_Aliyev_Turkiyenin_desteyi_bize_eks_hucum_emeliyyatini_ugurla_kechirmek_imkan_verdi-1744785

## *Prezident, Ali Baş Komandan İlham Əliyev Şuşanın azad edilməsi barədə*

“Onlar bizim Şuşaya necə gedib çıxmağımızı hələ də başa düşə bilmirlər. Başa düşə bilmirlər, bir-birindən soruşurlar. Bəzən bu məsələ mətbuata çıxır. Lakin haçansa başa düşəcəklər, bu da Azərbaycanın xüsusi təyinatlılarının və digər xüsusi hərbi birləşmələrinin misilsiz mərdliyi, qəhrəmanlığı, fədakarlığı ilə bağlı ayrıca bir əhvalatdır. Lakin bu gün artıq sirr deyil ki, döyüş əməliyyatlarında sərhəd xidmətinin xüsusi təyinatlı qüvvələri, daxili qoşunlar, təhlükəsizlik xidməti, kəşfiyyat xidməti, Naxçıvan ordusunun xüsusi qüvvələri iştirak edirdilər. Onlardan hər birinin vahid komandanlıq altında öz vəzifəsi var idi. 44 gün ərzində ərazilərimizi azad etməyimizdə xüsusi təyinatlıların böyük xidməti olub. Ordu korpusları da ərazilərin azad edilməsində və mövqelərin əldə saxlanmasında böyük rol oynayıblar. Cəbhə aviasiyası, pilotsuz uçuş aparatları da əlbəttə, itkilərin minimuma endirilməsində çox böyük rol oynayıb, ona görə ki, əgər onlar olmasaydı tələfat qat-qat çox olardı. Sizin tamamilə düzgün olaraq qeyd etdiyiniz kimi onlar təkcə zərbə və kəşfiyyat funksiyalarını deyil, həm də atəşin təshih edilməsi funksiyalarını yerinə yetirirdi. Hətta bəzən göstərilən kadrlarda da görünür ki, hədəf götürülüb, mərmi isə hədəfi vurur. Buna görə də bütün bu əməliyyatların kombinasiyası uğurla nəticələnib. Bir də, əlbəttə, planlaşdırmanın düzgün olması. Sizə deməliyəm ki, planlaşdırma düzgün

olmasaydı bizim üçün çox çətin olardı. Ona görə ki, orada uzunmüddətli istehkamlardan əlavə təbii relyef də çətinlik törədir. Axı, dağa dırmaşmaq, aşağıdan yuxarıya qalxmaq lazımdır. Şuşanın alınması isə, ümumiyyətlə, ayrıca dastandır, bəli, bu, epos kimidir. Ona görə ki, döyüşçülər nə götürə bilərdilərsə götürməliydilər, amma özünlə nə götürə bilərsən? Maksimum qumbaraatan. Bu, inanılmaz fiziki qüvvə, hazırlıq tələb edir. Bu, sal qayalara aşağıdan dırmaşmaq lazımdır. Müdafiə xətləri çox möhkəmlənib, özü də orada ermənilərin tankları və topları vardı. Bizdə isə süngü-bıçaqlar və yüngül silah. Bəzən mən də ekspertlərin fikrini müşahidə edirəm, amma əlbəttə, hərənin öz fikri var. Bu da aydındır, çünki ekspert döyüş əməliyyatlarının bütün mənzərəsinə bələd ola bilməz. Buna görə də təbii ki, müharibə aparılmasının bir növünün xeyrinə müəyyən meyil olur. Amma deməliyəm k, bu elementlərin heç biri vahid komandanlıq, planlaşdırma olmadan bizim qələbəmizi təmin etməzdi. Məhz bunlarının hamısının düzgün kombinasiyası: kəşfiyyat, artilleriya, zərbə pilotsuz uçuş aparatları, pilotsuz kamikadzelər, xüsusi təyinatlılar, ordu korpusları – bütün bunlar birlikdə qələbəyə gətirib çıxarıb. Lakin zaman keçdikcə məxfilik qrifi götürüləcək və informasiya daha çox olacaq. Amma düşünürəm ki, hətta artıq olub keçənlər düzgün nəticə çıxarmaq üçün kifayət qədər əsas verir”.[63]

---

[63] https://shushanews.com/2021/03/01/dillər-dastan-olan-susa-şəhəri-dunyada-belə-doyus-olmamisdi/

### *Prezident, Ali Baş Komandan İlham Əliyevin 2021-ci il noyabrın 8-də Şuşada hərbçilər qarşısında çıxışından:*

"Ermənistan ordusunda 10 min fərari ola-ola, Azərbaycan Ordusunda bir nəfər də döyüş meydanından qaçmırdı. Bax, budur bizim milli ruhumuz, budur Azərbaycan ruhu. Ermənistan işğal dövründə öz ordusu haqqında, guya döyüşkən əsgərləri haqqında mifologiya uydururdu: "yenilməz Ermənistan ordusu". Bəs hanı bu yenilməz ordu, Ermənistan ordusu? Pərən-pərən oldu, biz bunları cəmi 44 gün ərzində pərən-pərən saldıq. İmdad diləmişdilər, diz çökmüşdülər. Bizim şərtlərimizi qəbul edərək, noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktını imzalayaraq bizim qabağımızda ağ bayraq qaldırdılar. Biz bütün dünyaya göstərdik ki, kim kimdir. Bütün dünyaya göstərdik ki, biz böyük xalqıq. Xalqımızın böyüklüyünü müharibə dövründə və müharibədən sonrakı bir il ərzində göstərdik. Ermənilər bütün şəhərlərimizi yerlə-yeksan ediblər. Bu yerlərə səfər edən Azərbaycan vətəndaşları, xarici vətəndaşlar gedirlər, məəttəl qalırlar, dəhşətə gəlirlər ki, bu dərəcədə vandallıq ola bilərmi? Bu dərəcədə nifrət ola bilərmi? Bu dərəcədə barbarlıq ola bilərmi? Bunu işğal dövründə ermənilər törədiblər. Bütün binaları sökərək, talayaraq, hətta qəbir daşlarını Ermənistana apararaq bu vəhşiliyi törədiblər. Biz isə müharibə dövründə müharibə qanunlarına riayət etdik, müharibə qanunlarını pozmadıq, özümüzü ləyaqətlə apardıq,



necə ki, həyatda və siyasətdə özümüzü ləyaqətlə aparırıq. Zəfər Günü bizim bayramımızdır. Bu, Zəfər bayramıdır, bu, rəşadət bayramıdır, bu, ədalət bayramıdır, bu, milli qürur, milli ləyaqət bayramıdır. Biz öz ləyaqətimizi bərpa etdik. Bundan sonra müzəffər ölkə və qalib xalq kimi əbədi yaşayacağıq. Bundan sonra Qarabağda və Zəngəzurda əbədi yaşayacağıq. Əgər Ermənistanda hər hansı bir qüvvə bizə xor baxsa, hansısa revanşist meyillərə əl atsa, bizim yumruğumuzu görəcəkdir. Bizim yumruğumuz yerindədir.

*Əziz Şuşa, sən azadsan!*
*Əziz Şuşa, biz qayıtmışıq!*
*Əziz Şuşa, biz səni dirçəldəcəyik!*
*Şuşa bizimdir! Qarabağ bizimdir!*
*Qarabağ Azərbaycandır!”* [64]

---

[64]https://azertag.az/xeber/Aziz_Susa_sen_azadsan_Aziz_Susa_biz_qayitmisiq_biz_seni_dircheldeceyik-1776407

## *Şuşa əzəlki gözəlliyinə qayıdır*







## *Qarabağ xanlığı və Şuşa tarixinin xronologiyası*

B.e.ə. VI əsr Antik müəlliflərin Albaniya haqqında ilk qeydləri

51-62-cı illər Albaniyada apostol Yeliseyin təbliğatçılıq fəaliyyəti. Qafqazda, Kişdə (Şəkidə) ilk kilsənin tikilməsi və xristianlığın təməlinin qoyulması

314-cü il Albaniya çarı Umayr tərəfindən xristianlığın dövlət dini elan olunması

V əsrin əvvəli Alban əlifbasının tərtibi

VII-VIII əsrlər Azərbaycanın ərəblər tərəfindən istilası

VIII əsrin əvvəli İslam Azərbaycanda hakim din olur

707-ci il- Ərəblərin dövründə ilk sikkənin- dirhəmin kəsilməsi. Arran sikkəsi

IX-XI əsrlər – Arranın (Qarabağın) paytaxtı Bərdə Cənubi Qafqaz müsəlmanlarının mənəvi həyatının mərkəzinə çevrilir

XI-XIİİ əsrlər – Arranın (Qarabağın) Səlcuqilər, sonra isə Azərbaycan Atabəyləri tərəfindən tabe edilməsi

XII-XIII əsrlər – Alban dövlətçiliyinin və kilsəsinin dirçəlməsi. Arsax-Xaçın çarlığı

1258-ci il – XIV əsrin ortaları Qarabağ Hülakülər dövlətinin tərkibində

XIV-XV1I əsrlər – Qarabağ Qaraqoyunl, Ağqoyunlu, Səfəvi Azərbaycan dövlətlərinin tərkibində

XVI əsr – Paytaxtı Gəncə olan yarımüstəqil Qarabağ bəylərbəyliyinin yaranması

XVI əsrin ortaları – Qarabağın ilk bəylərbəyi Kəmaləddin Şahverdi Sultan Ziyadoğlu Qacar

XVI əsrin ikinci yarısı – Görkəmli sərkərdə, Qarabağ bəylərbəyi İmamqulu xan Ziyadoğlu Qacar

1587-1589-cu illər – Qarabağın Osmanlı Dövləti tərəfindən işğalı

XVII əsrin əvvəli – Sarıcalı oymağının Cavanşir tayfasının irsi başçısı İbrahimxəlil bəy (ağa) Şah Abbas (1587-1629) tərəfindən Qarabağın "Otuziki" mahalının əmiri təyin olunur.

1717-1797-ci illər– Molla Pənah Vaqif

1722-1725-ci illər – Qarabağın Osmanlı Türkiyəsi tərəfindən işğalı

1736-cı il – Nadirqulu xan Muğan düzündə böyük türk qurultayında Əfşarların şahı seçilir. Qarabağ bəylərbəyliyinin ləğv olunması və Qarabağ qacarlarının Xorasana sürgünü

1745-ci il – Pənahəli ağanın Qarabağa qayıtması

1748-ci il – Bayat qalasının tikilməsi

1748-1763-cü illər – Qarabağlı Pənahəli xanın hakimiyyəti dövrü

1750- ci il – Şuşa qalasının salınması

1757-ci il – Məhəmmədhəsən xan Qacarın Qarabağa hərbi yürüşü

1758-1763-cü illər – Fətəli xan Əfşarın hakimiyyəti dövrü

1762-ci il – Fətəli xan Əfşarın Qarabağa yürüşü

1763-1806-cı illər – Qarabağlı İbrahimxəlil xanın hakimiyyəti dövrü

1772-1845-ci illər – İbrahimxəlil xanın oğlu Qarabağlı Mehdiqulu xan 1806-1822-ci illərdə Qarabağ xanı olmuşdur. O, general-mayor rütbəsi almışdı (1805-ci il). Rusiya hakimiyyəti tərəfindən Qarabağın xanı elan edilmişdi

1784-1857-ci illər – Qasım bəy Zakir

1786 - 1787-ci illər – Əsgəran qalasının tikilməsi

1787-1866-cı illər – Cəfərqulu xan. Qarabağ xanlığının vəliəhdi Məhəmmədhəsən ağanın böyük oğlu

1788-1910-cu illər – Görkəmli şuşalı memar Kərbəlayı Səfıxan Qarabaği

1795-ci il – Ağaməhəmməd şah Qacarın Qarabağa yürüşü. Şuşanın mühasirəsi və Tiflisin işğalı.

1796-cı il – V.A.Zubovun başçılığı altında rus qoşunlarının Azərbaycana yürüşü

1797-ci il – Ağaməhəmməd şah Qacarın Qarabağa ikinci yürüşü. Şuşanın ələ keçirilməsi.

1805-ci il – Qarabağlı İbrahimxəlil xan Qarabağ xanlığının Rusiya imperiyasının tərkibinə keçməsi barədə məcburi Kürəkçay müqaviləsini könüllü imzalayır

1822-ci il – Qarabağda nominal xan hakimiyyətinin ləğv edilməsi və hərbi komendant tərəfindən (komendant sistemi) idarə olunan Qarabağ müsəlman əyalətinin yaradılması.

1828-ci il – Rus-İran müharibəsinin başa çatması. Ermənilərin İrandan və Türkiyədən Qarabağa və Cənubi Qalqaza

azərbaycanlıların məskunlaşdığı torpaqlara kütləvi surətdə köçürülməsinin başlanması.

1830-1906-cı illər – Usta Qənbər Qarabaği

1832- 1897-ci illər – Xurşidbanu Natəvan

1833- 1918-ci illər – Orta əsr ensiklopedik bilik sahiblən və maarifçilərinin sonuncularından biri Mirmöhsiıı Nəvvab.

1840-ci il – Şuşa qəzasının daxil olduğu mərkəzi Şamaxı şəhəri olan Kaspi vilayətinin yaradılması

1846-cı il – Şuşa qəzasının daxil olduğu Şamaxı quberniyasının yaradılması

1854-1926-cı illər – Nəcəf bəy Vəzirov

1861-1944-cü illər – Cabbar Qaryağdıoğlu

1868-ci il – Şuşa qəzası yeni yaradılmış Yelizavetpol quberniyasına daxil olur.

1870-1933-cü illər – Əbdürrəhim bəy Haqverdiyev

1872-ci il – Xurşidbanu Natəvan "Məclisi-üns" ədəbi dərnəyini yaradır.

1873-ci il – Şuşaya ilk su kəməri çəkilir

1875-1939-cu illər – Süleyman Sani Axundov

1880-ci il – Real məktəbin açılışı; XIX əsrin ikinci yarısı Mirmöhsün Nəvvab "Məclisi-fəramuşan" adlı ədəbi dəmək yaradır. XIX əsrin sonları şəhər özünüidarə sistemi - bələdiyyə idarəsi və şəhər duması təşkil edilir.

1884-1950-ci illər – Üzeyir bəy Hacıbəyovun böyük qardaşı, pedaqoq və bəstəkar Zültüqar Hacıbəyov

XIX əsrin sonu – Mirmöhsün Nəvvab "Xanəndələr məclisi"ni yaradır.

1885- 1948-ci illər – Görkəmli Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəyov

1887-1943-cü illər – Yusif Vəzir Çəmənzəminli

1891 -1962-ci illər – Ceyhun bəy Hacıbəyov

1896-cı il – Şuşaya ikinci su kəməri çəkilir

1897-ci il – İlk şəhər kitabxanasının açılışı

1897-ci il Əbdürrəhim bəy Haqverdiyev tərəfindən muğam operasının ilk prototipinin "Məcnun Leylinin məzarı üstündə" musiqili səhnəciyinin tamaşaya qoyulması

1906-cı il – Real məktəbin binasının tikilməsi

1908-ci il – 12 yanvar Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun" operasının ilk tamaşası

1911-ci il – Üzeyir bəy Hacıbəyovun "O olmasın, bu olsun" operettasının ilk tamaşası

1913-ci il – Üzeyir bəy Hacıbəyovun "Arşın mal alan" operettasının ilk tamaşası[65]

1905, 1920 və 1992-ci illərdə ermənilər Şuşanı üç dəfə yandırıb.

1992-ci il 8 may - Şuşa bir sıra dövlətlərin fəal dəstəyi ilə erməni silahlı birləşmələri tərəfindən işğal edilib.

8 noyabr 2020-ci il - Şuşanın müzəffər Azərbaycan Ordusu tərəfindən işğaldan azad edildiyi gündür.

3 dekabr 2020-ci il - Azərbaycan Respublikasının Prezidenti İham Əliyevin "Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında" Sərəncamına əsasən, hər

[65] Çingiz Qacar. Köhnə Şuşa, Bakı, "Şərq-Qərb", 2019, səh.10-11

il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilir.

2021-ci il 15 iyun - Şuşa şəhərində Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi imzalanıb.

2022-ci il 5 yanvar - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2022-ci il Azərbaycan Respublikasında "Şuşa İli" elan edilib.

* * *



## *Şuşalı məşhurlar*

1. Pənahəli xan (1693-1763), Qarabağ xanlığının banisi
2. İbrahimxəlil xan (1732-1806), Qarabağ xanı
3. Molla Pəhah Vaqif (1717-1797), şair
4. Qasım bəy Zakir (1784-1857), şair
5. Xurşidbanu Natəvan (1832-1897), şairə
6. Mir Möhsün Nəvvab (1833-1918), tarixçi, astronom, şair, rəssam, xəttat və musiqişünas
7. Cəfərqulu xan Cavanşir (1785-1867), şair və ictimai xadim, general-mayor.
8. Hacı Hüsü (1839-1898), xanəndə
9. Əbdülbaği Zülalov (Bülbülcan) (1841-1927), xanəndə
10. Mirzə Ələsgər Növrəs (1836-1912), şair
11. Fatma xanım Kəminə (1841-1898), şairə
12. Mirzə Sadıq (Sadıqcan) (1846-1902), tarzən
13. Kərbəlayı Səfixan Qarabaği (1817 -1910), memar
14. Həsənəli xan Qaradaği (1848-1929), maarifçi, şair, pedaqoq və ədəbiyyatşünas
15. Nəcəf bəy Vəzirov (1854-1926), yazıçı, dramaturq
16. Mehdiqulu xan Vəfa (1855-1900), hərbçi
17. Səfərəli bəy Vəlibəyov (1856-1902), maarif xadimi
18. Həmidə xanım Cavanşir (1873-1955), ilk maarifçi qadınlardan biri, xeyriyyəçi, tərcüməçi
19. Kərim bəy Mehmandarov (1854-1929), həkimi
20. Səməd bəy Mehmandarov (1856-1931), general, Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri

21. Cabbar Qaryağdıoğlu (1861-1944), xanəndə
22. Qurban Pirimov (1880-1965), tarzən
23. Məşədi Məmməd Fərzəliyev (1872-1962), xanəndə
24. Firidun bəy Köçərli (1863-1920), ədəbiyyatşünas
25. Haşım bəy Vəzirov (1867-1916), pedaqoq
26. Əbdürrəhim bəy Haqverdiyev (1870-1933), yazıçı
27. Süleyman Sani Axundov (1875-1939), yazıçı
28. Məcid Behbudov (1873-1945), xanəndə
29. Hacı Hüsü (1830-1898), xanəndə
30. Məşədi Zeynal (1851-1918), xanəndə
31. Məşədi Cəmil Əmirov (1875-1928), tarzən, bəstəkar
32. İslam Abdullayev (1876-1964), xanəndə
33. Keçəçioğlu Məhəmməd (1864-1940), xanəndə
34. Feyzulla Mirzə Qovanlı-Qacar (15 dekabr 1872 - 1920), general-mayor
35. Həbib xan Şəkinski (1880-1956), Azərbaycan Xalq Cümhuriyyəti dövründə Zəngəzur qəzasının rəisi
36. Zülfüqar Hacıbəyov (1884-1950), bəstəkar
37. Üzeyir bəy Hacıbəyov (1885-1948), bəstəkar, pedaqoq, publisist və ictimai-siyasi xadim
38. Əhməd bəy Ağaoğlu (1869-1939), ictimai-siyasi xadim, publisist
39. Yusif Vəzir Çəmənzəminli (1887-1943), yazıçı
40. Nəriman bəy Nərimanbəyli (1889-1937), dövlət xadimi
41. Ceyhun bəy Hacıbəyli (1891-1962), yazıçı, ictimai xadim
42. Bədəl bəy Bədəlbəyli (1875-1932), pedaqoq

43. Əhməd Ağdamski (1884-1954), opera müğənnisi
44. Xan Şuşinski (1901-1979), xanəndə
45. Seyid Şuşinski (1889-1965), xanəndə
46. Zülfü Adıgözəlov (1898-1963), xanəndə
47. Sürəyya Ağaoğlu (1903-1989), Türkiyənin ilk qadın vəkili
48. Aliyə Rüstəmbəyova (1907-1942), Sovet İttifaqı Qəhrəmanı, partizan hərəkatı iştirakçısı, həkim.
49. Aslan Qaraşarov (1919-1943), Sovet İttifaqı Qəhrəmanı
50. Lətif Kərimov (1906-1991), rəssam, xalçaşünas
51. Şəmsi Bədəlbəyli (1911-1987), teatr rejisoru
52. Barat Şəkinskaya (1914-1999), aktrisa
53. Cəlal Qaryağdı (1914-2001), heykəltəraş
54. Zakir Bağırov(1916-1996), bəstəkar
55. Toğrul Nərimanbəyov (1913-2013), rəssam
56. Zakir Bağırov (1929-1989), Azərbaycan SSR mədəniyyət naziri (1971-1988)
57. Xəlil Məmmədov (1916-1989), Sovet İttifaqı Qəhrəmanı, Azərbaycan SSR daxili işlər naziri (1960-1965).
58. Rafiq Xələfov (1939-1998), Azərbaycan SSR avtomobil yollarının istismarı və tikintisi naziri (1979-1989)
59. Süleyman Vəzirov (1910-1973) - Azərbaycan SSR-in ilk neft sənayesi naziri (1954-1958).
60. Soltan Hacıbəyov (1919-1974), bəstəkar
61. Lətif Səfərov (1920-1963), aktyor və rejissoru
62. Süleyman Ələsgərov (1924-2000), bəstəkar
63. Münəvvər Rzayeva (1929-2004), heykəltəraş

64. Əfrasiyab Bədəlbəyli (1907-1976), bəstəkar, dirijor
65. Rəşid Behbudov (1915-1989), mügənni
66. Fikrət Əmirov (1922-1984), bəstəkar
67. Niyazi (1912-1984), bəstəkarı, dirijor
68. Əşrəf Abbasov (1920-1992), bəstəkar və pedaqoq
69. Mehdi Məmmədov(1918-1985), rejissor
70. Teymur Əliyev (Elçin) (1924-1992), Azərbaycan SSR mədəniyyət nazirinin müavini, şair, publisist
71. Lətif İmanov (1922-1980), akademik, pedaqoq, Azərbaycan SSR əməkdar elm xadimi
72. Validə Tutayuq (1914-1980), ilk azərbaycanlı qadın biologiya elmləri doktoru, professor
73. Vahid Hacıyev (1928-2008), Azərbaycan Milli Elmlər Akademiyası Botanika İnstitutunun direktoru, professor.
74. Məhluqə Sadıqova (1917-2003), aktrisa
75. Rafiq Hüseynov (1938-2014), diktor[66] və digərləri.

[66] Elçin Əhmədov, Şuşa Azərbaycanın tarixi və strateji əhəmiyyətli mədəniyyət paytaxtı, Bakı, "Zərdabi Nəşr" MMC-2021, s.62-75

## *Müəllifdən:*

XVIII – XIX əsrlərdə "Qarabağnamələr" yazıb yadigar qoyan salnaməçi və tarixçilərin xatirəsini rəhmətlə, hörmətlə yad edirik.

1.Mirzə Adıgözəl bəy "Qarabağnamələr";

2.Mirzə Camal Cavanşir Qarabaği "Qarabağ tarixi";

3.Əhməd bəy Cavanşir "1747-1805-ci illərdə Qarabağ xanlığının siyasi vəziyyətinə dair";

4.Mirzə Yusif Qarabaği "Tarixi-safi";

5.Mir Mehdi Xazani "Kitabi-tarixi-Qarabağ";

6.Rzaqulu bəy Mirzə Camal oğlu "Pənah xan və İbrahimxəlil xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri";

7.Mirzə Rəhim Fəna "Tarixi-cədidi-Qarabağ";

8.Məhəmmədəli bəy Məxfi, "Əhvalati-Qarabağ";

9.Həsən İxfa Əlizadə "Şuşa şəhərinin tarixi"

10.Həsənəli xan Qaradaği "Qarabağ vilayətinin qədim cədid keyfiyyət və övzaları".

11. Abbasqulu ağa Bakıxanov "Gülüstani-İrəm".


1. Qarabağnamələr, I kitab, ŞƏRQ-QƏRB, BAKI 2006, 214 s.

2. Qarabağnamələr, II kitab, ŞƏRQ-QƏRB, BAKI 2006, 286 s.

3. Qarabağnamələr, III kitab ŞƏRQ-QƏRB, BAKI 2006, 248 s.

# Başlıqlar:

*Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı* ........ 4
*Şuşa* ........ 7
***Pənahəli xan - Qarabağ xanlığının qurucusu***........13
*Şuşanın inşası*........ 19
*"Şuşa" sözünün etimologiyası*........ 25
*Şuşanın təbiəti, iqlimi* ........ 27
*Şuşanın 3 inkişaf dövrü, əhalisi, məhəllələri* ........ 30
*Şuşa əcnəbi səyyahların gözü ilə* ........ 32
*Qarabağın Alban əsilli xristian məlikləri*........ 36
*Şuşa xarici hücumları dəf edir*........ 39
*Kürəkçay müqaviləsi, Şuşa qəzasının yaranması* ........ 42
*Ermənilərin Qarabağa və Şuşaya köçürülməsi* ........ 45
*İbrahimxəlil xan* ........ 49
*Molla Pənah Vaqif – Qarabağ xanlığının baş vəziri*........ 55
*Qacarlar. Ağaməhəmməd şah Qacarın Şuşada qətli*........ 60
*Şuşada sənətkarlıq. Şuşalı tacirlər*........ 64
*Rusiya və Avropada* ........ 64
*Şuşanın məscidləri, dini ziyarətgahları*........ 71
*Şusanın memarı - Kərbəlayı Səfixan Qarabaği* ........ 74
*Şuşalı Mirmöhsün Nəvvab Qarabaği* ........ 76
*Gövhər ağa* ........ 80
*Xan qızı, Şah xanımı Ağabəyim ağa* ........ 82
*Tehranda doğuldu, Şuşada yaşadı,* ........ 88
*Bərdədə dəfn edildi* ........ 88

*Xurşidbanu Natəvan* ........................................................ 93
*Şuşa və Xankəndi Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycan SSR tərkibində* ........................................................ 99
*Türk əsgərləri Şuşada. Albay Cəmil Cahid* .................... 106
*Türkçülüyün patriarxı – Şuşalı Əhməd bəy Ağaoğlu* ... 115
*Şuşa - maarif, mədəniyyət beşiyidir* .............................. 126
*Şuşa Azərbaycan musiqisinin məbədidir* ....................... 135
*Şuşanın tanınmış nəsilləri: Hacıbəylilər, Bədəlbəylilər, Əmirovlar* ........................................................ 145
*Dahi Üzeyir bəy Hacıbəyli* ............................................. 154
*Şuşalı generallar* ............................................................ 158
*Şuşanın gerbində əks olunan Qarabağ atları* ................ 162
*Şuşanın azadlıq simvolu – xarıbülbül* ........................... 168
*Məşhurlar Şuşa haqqında* ............................................. 171
*Şuşanın 28 il davam edən işğalı və son* ........................ 174
*Şuşa Bəyannaməsi* ......................................................... 179
*Prezident, Ali Baş Komandan İlham Əliyev Şuşanın azad edilməsi barədə* ................................................... 181
*Prezident, Ali Baş Komandan İlham Əliyevin* ............. 183
*2021-ci il noyabrın 8-də Şuşada hərbçilər qarşısında çıxışından:* .................................................................. 183
*Şuşa əzəlki gözəlliyinə qayıdır* ...................................... 185
*Qarabağ xanlığı və Şuşa tarixinin xronologiyası* ......... 186
*Şuşalı məşhurlar* ............................................................ 192
*Müəllifdən* ...................................................................... 196



## HACI NƏRİMAN OĞLU ABDULLA

Qubadlı rayonunun Saray kəndində doğulub. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirib. Qubadlı rayon komsomol və icraiyyə komitələri, İcra hakimiyyətində, AzərTAc, AR Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, AR Sənaye və Energetika Nazirliyi, AR Prezidenti yanında Bilik Fondu, Azərbaycan Dövlət Tərcümə Mərkəzində işləyib. 2008-ci ildən "Zəngəzur" Cəmiyyətləri İctimai Birliyinin sədri, www.zengezur.com saytının təsisçi, baş redaktorudur. 22 kitabın, Azərbaycan, türk, rus, ingilis, fransız, ərəb, gürcü, irland, çex, rumın, ispan, ukrain dillərində dərc olunmuş 100-dən çox elmi, elmi-publisistik məqalənin müəllifi, tarix üzrə fəlsəfə doktoru, Qarabağ müharibəsi veteranıdır.

# Hacı Nərimanoğlu

# Şuşa - 270

Naşir: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov
Dizayner: İradə Əhmədova

Yığılmağa verilib: 10.09.2022.
Çapa imzalanıb: 25.09.2022.
Şərti çap vərəqi: 12,5
Tiraj: 400
"Füyuzat" nəşriyyatında çap edilmişdir.
Ünvan: Bakı şəh., Z.Xəlilov küç., 26
Tel.: 055 850 98 69